# Böyük Qayıdışın yüksəliş addımları

**Azad edilmiş ərazilərimizin iqtisadi reinteqrasiyası ölkənin dayanıqlı inkişafına geniş imkanlar vəd edir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında biznes üçün əlverişli mexanizmlərin yaradılması, sahibkarlıq fəaliyyətinin təşviq olunması, vergi, gömrük, sosial sığorta və digər güzəştlərin diqqət mərkəzində saxlanılması regionun inkişafında, eləcə də biznes cəlbediciliyinin artırılmasında mühüm rol oynayır.**

**(ardı 7-ci səhifədə)**




# Xalq qəzeti

Xalqın qəzeti!

№ 53 (30747) 11 mart 2025-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


## Paşinyanın subliminal qəzəbi

### *Yaxud utanmasan, oynamağa nə var...*

**Ermənistan baş naziri Nikol Paşinyan şəxsi “Telegram” hesabında, bir növ, qəzəb püskürüb. O, özünə qarşı yönəlmiş ittihamlara sərt cavab verərkən ucuz populizmə baş vurmağı da yaddan çıxarmayıb. Ancaq Nikolun bildirdikləri ənənəvidir. Baş nazirin onu “satqın” və “xain” adlandıranlara cavabı isə subliminal xassəlidir. Yəni, erməni hökumət rəhbəri ad çəkmir.**

Əvvəlcə, onu bildirək ki, terrorçu “Daşnaksütyun” partiyasının bu günlərdə İrəvanda keçirilmiş 35-ci yığıncağında N.Paşinyan hakimiyyətini devirməyə yönəlmiş çağırışlar səsləndirilib. Görünür, Nikol məhz həmin çağırışlara görə qəzəblənərək özündən çıxıb.

N.Paşinyan bildirib ki, guya, zamanında onu heç kəs hakimiyyətə gətirməyibmiş: “Məni heç kim haki-



miyyətə gətirmədi. 2018-ci ildə populyar, qeyri-zorakı məxməri inqilab xalqı hakimiyyətə gətirdi. Mən ancaq xalq hakimiyyətinin etibarlı adamıyam və o, nə vaxt istəsə, məni başqası ilə əvəzləyəcək”.

Əlbəttə, Nikol hazırda belə bəyanatlar səsləndirə bilər. Çünki vaxtilə onu iqtidar kürsüsündə oturdanlar indi siyasi səhnədən siliniblər. Nəzərə alaq ki, Ermənistanda 2018-ci ildə baş vermiş inqilabı “Soros inqilabı” adlandıranlar çoxluq təşkil etməkdədir. Hazırda isə nə Soros var, nə də ABŞ-ın Beynəlxalq İnkişafa Yardım Fondu olan USAID. Deməli, Paşinyan nə qədər istəsə, boğazdan yuxarı danışa bilər və danışır da.

***(ardı 4-cü səhifədə)***

# Zəngəzur dəhlizinə qarşı ABŞ “sipəri”?

### *İrəvanda qlobal gündəmlə bağlı “şirin yuxular”*




**Son günlər Ermənistanda güclənməkdə olan anti-Azərbaycan isteriyasında fərqli alt gündəm formalaşıb. Söhbət ölkəmizin, guya, ABŞ-ın yeni administrasiyasının xeyir-duası ilə Zəngəzuru ələ keçirmək niyyətinin təbliğindən gedir. Ermənistanın diplomatik mənbələri də bununla bağlı müxtəlif fikirlər yayırlar. Rəsmi İrəvana yaxın ekspertlər isə öz aləmlərində Birləşmiş Ştatları mövqeyindən daşındırmağa çalışır, “arqumentlər” irəli sürürlər. Yazımız bu barədədir. Ancaq ayrı-ayrı əlaqəli məqamların üzərində də dayanacağıq.**

Deməli, erməni diplomatik mənbələrinin iddialarına görə, sən demə, Azərbaycan rəhbərliyi Prezident Donald Trampın İrana antipatiyasından istifadə edib Vaşinqtonu Ermənistana qarşı hərbi təcavüzün zəruriliyinə inandırmağa çalışır. Onlar, həmçinin bildirirlər ki, Bakı ilə Pekin arasında 2024-cü il iyulun 3-də imzalanmış strateji tərəfdaşlıq sazişində tərəflərin öz ərazilərindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin təhlükəsizliyinin və fasiləsiz fəaliyyətinin təminatı, milli qanunvericilik və ikitərəfli sazişlər çərçivəsində tranzit daşımalar üçün əlverişli şəraitin yaradılması istiqamətində bir-birinin səylərini dəstəkləmələri nəzərdə tutulub. Şübhəsiz, bu məqamın qabardılması Birləşmiş Ştatların yeni administrasiyasının anti-Çin mövqeyi üzərinə oyun oynamaq məqsədi daşıyır.

Əslində, qəribə vəziyyət yaranıb. Erməni iqtidarına yaxın politoloq-ekspert yığını həm diqqətə çatdırdığımız məqamı qabardıb, Vaşinqtonu, bir növ, Bakıya qarşı doldurmaq istəyir, həm də Avropa ölkələrində ABŞ-a qarşı yaradılan kampaniyadan yararlanmaq eşqinə düşüb. İkinci cəhət üzrə təxminən belə xətt nəzərdə tutulur: Vaşinqton hər şeyi Rusiyaya güzəştə getdiyi kimi, Cənubi Qafqazı da güzəştə gedəcək. Mövcud kontekstdə Azərbaycanın “təcavüzkar siyasəti” gündəmə gətirilir. Baş nazir Nikol Paşinyan və komandası bu ritorika ilə Avropanın anti-ABŞ köklənişinin Ermənistan müstəvisini formalaşdırmağa çalışır. Yəni, hay hakim komandası “köhnə qitə”nin Ukrayna ilə bağlı köklənişini Cənubi Qafqaza gətirməyə cəhd göstərir.

Baxın, Ermənistanın Avropada başlıca dəstəkçisi olan Fransanın Prezidenti Emmanuel Makron ötən həftə özünü Napoleon Bonapart kimi aparmış, Avropanın Rusiya ilə mübarizəsinin anonsunu vermişdi. Hiss olunmuşdu ki, rəsmi Paris ayrıca anti-Rusiya cəbhəsi yaratmaqda israrlıdır. Baxmayaraq ki, Avropa İttifaqının özündə də Moskvaya qarşı müharibə baxımından yekdil fikir yoxdur.

***(ardı 3-cü səhifədə)***

# Buzlar əriyəndən sonra...

### *Söhbət ABŞ–Azərbaycan münasibətlərinin əvvəlki strateji tərəfdaşlıq səviyyəsinə qayıtmasından gedir*

**Sərlövhənin altına yazdığımız qayıdışı “tormozlayan” amillər olmasaydı, bu gün Azərbaycan Birləşmiş Ştatların bölgədə ən etibarlı və ən əlverişli tərəfdaşlarından biri statusunda idi.**



Təəssüf ki, ikipartiyalı, ikipalatalı siyasi hakimiyyət quruluşuna malik dünyanın supergücünün Azərbaycana, Cənubi Qafqaza, ümumilikdə, postsovet məkanına yanaşması Ağ evdəki dəyirmi kabinetə kimin – demokratların, yoxsa respublikaçıların sahiblənməyindən birbaşa asılıdır. Bu yanaşmanı formalaşdıran amillər arasında dövlət maraqları ilə yanaşı, subyektiv çalarların da yer aldığı, hətta bəzən üstünlük təşkil etdiyi dönəmləri də gördük. Rəsmi Vaşinqtonun ABŞ-ın Kaliforniya ştatında yığcam erməni elektoratının, Senatda və Konqresdə hay lobbisinin ələ aldığı adamların xarici siyasətə müdaxilələri sayəsində tərəfkeşliyini, ikili standartlara baş vurmasını da unutmamışıq.

1992-ci ildə ABŞ keçmiş sovet respublikalarına iqtisadi dəstək vermək üçün qəbul edilmiş “Azadlığa dəstək aktı”na 907-ci düzəlişi qəbul etdi. Bu dəyişiklik Azərbaycan hökumətinə yardımın göstərilməsinə imkan vermirdi. 2001-ci il 11 sentyabr olayından sonra Corc Buş administrasiyası Azərbaycanla təhlükəsizlik sahəsində əməkdaşlığa ehtiyac yarandığı üçün düzəlişin müvəqqəti olaraq ləğvinə nail oldu.

Bununla belə, 2023-cü ilin noyabrında Azərbaycan antiterror əməliyyatı nəticəsində bölgədə separatizmin kökünü kəsdikdən, Qarabağ üzərində nəzarəti bərpa etdikdən sonra ABŞ Dövlət katibinin köməkçisi Ceyms O`Brayn Bakının kəskin tənqidinə səbəb olan düzəlişin dayandırılmasını uzatmamaq niyyətində olduğunu bəyan etdi. Azərbaycan bunu qeyri-dost addım kimi qiymətləndirdi və keçmişdə ABŞ-ı hərtərəfli dəstəklədiyini xatırladaraq, Vaşinqtonu ikili standartlara görə qınadı. Demokrat Bayden hakimiyyəti yuxarıdan aşağı baxmağa çalışdığı, sanksiyalarla hədələdiyi ölkəmizə qarşı başqa addımlar da atdı. Amma Azərbaycan liderinin siyasi qətiyyətini, ədalətli mövqeyini görəndən, şəffaf əməkdaşlıq çağırışlarını eşidəndən sonra “bu hənanın başqa həna” olduğuna şübhəsi qalmadı və hayların iniltili “tütək musiqisi”nə oynamağa son qoydu.

* * *

Hazırda Ağ evin dəyirmi kabineti yenidən respublikaçıların namizədinin ixtiyarındadır. Amma andiçmə mərasimindən iki aya yaxın vaxt keçməsinə baxmayaraq, Donald Tramp Vaşinqtonun Cənubi Qafqazla bağlı prioritetlərini, yeni siyasi yanaşmasını açıqlamayıb. Bu qeyri-məyyənlik ən müxtəlif fərziyyələrə və ehtimallara yol açır.

***(ardı 4-cü səhifədə)***

## XXI əsrin yeni geosiyasi çağırışları və Azərbaycan



Səhifə ⇨ 6

## Azərbaycan “yaşıl” iqtisadiyyata keçid poliqonudur



Səhifə ⇨ 8

## Almaniya qlobal siyasətə qayıdır



Səhifə ⇨ 11

# Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 24 aprel tarixli 613 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Aviasiya təhlükəsizliyinin təmin edilməsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 24 aprel tarixli 613 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 4, maddə 292 (Cild I) ilə təsdiq edilmiş "Aviasiya təhlükəsizliyinin təmin edilməsi Qaydaları"nda dəyişikliklər təsdiq edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 10 mart 2025-ci il**

# İqtisadi Şuranın növbəti iclası



**Martın 10-da İqtisadi Şuranın növbəti iclası keçirilib.**

Nazirlər Kabinetindən bildiriblər ki, Azərbaycan Respublikası İqtisadi Şurasının sədri, Baş nazir Əli Əsədovun rəhbərliyi ilə keçirilən iclasda aqrar sığorta sisteminin təkmilləşdirilməsi və yeni konsepsiyanın müəyyən edilməsi üzrə yaradılmış işçi qrup tərəfindən hazırlanan "Aqrar sığorta sisteminin inkişafı ilə bağlı Fəaliyyət Planı", makroiqtisadi və maliyyə sabitliyi sahəsində cari vəziyyət və siyasət istiqamətləri, o cümlədən 2024-cü ildə pul siyasətinin əsas nəticələri, bank və sığorta sektoru üzrə əsas göstəricilər və inkişaf trendləri, habelə "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" və "İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın Tədbirlər Planı üzrə monitorinq və qiymətləndirmə nəticələrinə dair 2024-cü ilin Hesabatı və digər cari məsələlər geniş müzakirə olunub.

Gündəlikdə olan məsələlər üzrə Azərbaycan Respublikası Prezidentinin köməkçisi Şahmar Mövsümovun, Mərkəzi Bankın sədri Taleh Kazımovun və İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlının məruzələri dinlənilib. İclasda iştirak edən kənd təsərrüfatı naziri Məcnun Məmmədov aqrar sığorta sistemi ilə bağlı çıxış edib.

Təqdim olunan məsələlərə dair İqtisadi Şura üzvləri tərəfindən ətraflı müzakirələr aparılıb.

İclasın yekununda İqtisadi Şura üzvlərinin təklifləri nəzərə alınmaqla qərarlar qəbul olunub və aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

***XQ***

# Ermənistan itkin şəxslərin taleyinə heç bir aydınlıq gətirmir



**Martın 10-da Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının sədri Əli Nağıyev İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiyanın baş direktoru, xanım Katrin Bombergeri qəbul edib. Bu barədə Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası məlumat yayıb.**

Bildirilib ki, tərəflər Ermənistanın hərbi təcavüzü nəticəsində itkin düşmüş vətəndaşlarımızın tapılması məqsədilə 2022-ci ilin aprel ayında baş tutmuş görüşdən sonra həyata keçirilən birgə fəaliyyəti müsbət dəyərləndiriblər. Dövlət Komissiyasının sədri Əli Nağıyev Prezident İlham Əliyevin daim diqqət mərkəzində saxladığı itkin soydaşlarımızın axtarışı məsələsi ilə bağlı Komissiyanın qarşısında qoyduğu vəzifələrin icrası yönündə davam etdirilən təxirəsalınmaz tədbirlərdən, Qarabağ münaqişəsi nəticəsində itkin düşmüş şəxslərə aid məzar yerlərinin müəyyən edilərək ekshumasiyası və tapılmış meyit qalıqlarının eyniləşdirilməsi istiqamətində görülən işlərdən ətraflı bəhs edib. Xidmət rəisi, eyni zamanda, itkin şəxslərin taleyinin aydınlaşdırılması sahəsində Ermənistanın əməkdaşlıq etmək niyyətində olmadığını və hələ də qeyri-konstruktiv mövqe sərgilədiyini bildirib.

Komissiya sədri Əli Nağıyev Beynəlxalq Komissiyanın Qiymətləndirmə missiyası tərəfindən tərtib edilərək Azərbaycan tərəfinə təqdim olunmuş itkin düşmüş şəxslərin axtarışı imkanlarını özündə əks etdirən hesabat barədə də fikirlərini çatdırıb, həmin təşkilatın Dövlət Komissiyasının işinə göstərdiyi dəstəyə görə minnətdarlıq edib.

Katrin Bomberger isə rəhbəri olduğu Beynəlxalq Komissiyanın hazırladığı hesabat sənədinin əhəmiyyətinə toxunub, Dövlət Komissiyası ilə qarşılıqlı fəaliyyət çərçivəsində mühüm işlərin görüldüyünü və komissiyalararası münasibətlərin gələcək inkişafına birgə səylərlə önəmli töhfələr veriləcəyinə dərin inamını ifadə edib.

Görüşdə, həmçinin itkin şəxslərin taleyinə tezliklə aydınlıq gətirilməsi ilə bağlı ümumi maraq kəsb edən digər məsələlər də geniş müzakirə olunub.

***XQ***

# Birinci vitse-prezident Mehriban Əliyeva Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarını təbrik edib

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə rəsmi instaqram səhifəsində paylaşım edib.**




**Paylaşımda deyilir:** "Əziz qadınlar! Sizə möhkəm cansağlığı, tükənməz sevgi, sevinc dolu günlər və xoşbəxtlik arzulayıram!".

# Şimali Makedoniya Prezidenti Azərbaycana rəsmi səfərə gəlib



**Şimali Makedoniya Respublikasının Prezidenti Qordana Silyanovska-Davkova martın 10-da Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Şimali Makedoniya Prezidentini hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Fariz Rzayev və digər rəsmi şəxslər qarşıladılar.

***XQ***

# Hikmət Hacıyev Britaniyanın rəsmi şəxsləri ilə görüşdü



**Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Londonda Böyük Britaniyanın Avropa, Şimali Amerika və Xarici Ərazilər üzrə dövlət naziri Stiven Doutin və digər britaniyalı həmkarları ilə görüşüb.**

Bu barədə Azərbaycanın Böyük Britaniyadakı səfiri Elin Süleymanov "X" sosial şəbəkəsində paylaşım edib.

Onun sözlərinə görə, görüşdə Azərbaycan-Böyük Britaniya ikitərəfli əməkdaşlığının dərinləşdirilməsi mövzusu müzakirə olunub.

Həmçinin, Hikmət Hacıyev Böyük Britaniyanın Milli Təhlükəsizlik müşaviri Conatan Pauell ilə də görüşüb. Görüşdə güclü Azərbaycan-Böyük Britaniya ikitərəfli tərəfdaşlığı və regional inkişaflar haqqında çox səmərəli müzakirə aparılıb.

***XQ***

# Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının məlumatı

## *Son 4 ildə azad edilmiş ərazilərdə 23 kütləvi məzarlıq aşkar edilmişdir*

**Martın 10-da Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiyanın "Azərbaycan Respublikasında itkin düşmüş şəxslərin axtarışı üzrə qiymətləndirmə hesabatı"nın təqdimat mərasimini təşkil etmişdir.**




Mərasimdə Dövlət Komissiyasının üzvləri və İşçi qrupunun əməkdaşları, Beynəlxalq Komissiyanın yüksək ranqlı təmsilçiləri, millət vəkilləri, aidiyyəti dövlət orqanlarının rəhbər şəxsləri, QHT və media nümayəndələri iştirak etmişlər.

Çıxışlarda bildirilmişdir ki, Ermənistanın hərbi təcavüzü nəticəsində dörd min nəfərə yaxın vətəndaşımız itkin düşmüşdür. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin birbaşa nəzarətində olan itkin düşmüş şəxslər probleminə məhz dövlət başçısının göstərdiyi xüsusi həssas münasibət və bu yöndə verdiyi mühüm tapşırıqlar axtarış prosesinin sürətləndirilməsini və zəruri tədbirlərin intensiv həyata keçirilməsini şərtləndirmişdir.

Ötən dövr ərzində Dövlət Komissiyası tərəfindən itkinlərin taleyinin aydınlaşdırılması sahəsində müvafiq addımlar atılmış, ailələrdən bioloji nümunələrin götürülməsi prosesi davam etdirilmiş, DNT profilləri çıxarılmış, işğaldan azad olunmuş ərazilərdə 2021-ci ilin fevral ayından etibarən aparılmış qazıntı işləri nəticəsində 23 kütləvi məzarlıq müəyyən edilmiş və həmin məzarlıqlarda itkin düşmüş soydaşlarımıza aid olan insan qalıqları aşkarlanaraq götürülmüşdür.

Xüsusilə qeyd olunmuşdur ki, Ermənistan itkin şəxslərin taleyinə aydınlıq gətirilməsi məsələsində Azərbaycanla əməkdaşlıqdan və kütləvi məzar yerləri barədə məlumatları təqdim etməkdən müxtəlif bəhanələrlə boyun qaçırır.

Münaqişə dövründə Ermənistan tərəfindən beynəlxalq hüquq normalarının insanların zorakı itkindüşmədən müdafiəsinə dair müddəalarının tələblərinin mütəmadi olaraq pozulması, mülki şəxslərin girov götürülməsi, onlara və hərbi əsirlərə qarşı qeyri-insani rəftar edilməsi, işgəncə verilməsi, onların məhkəmə hökmü olmadan azadlıqdan məhrum edilmələri və edam olunmaları, insanların kütləvi şəkildə, dəfn adətlərinə riayət olunmadan məzarlıqlarda basdırılmaları, habelə məzar yerlərinin gizlədilməsi və qəsdən məhv edilməsi kimi ağır cinayətlərin törədildiyi nəzərə alınaraq, bundan sonra da bu cür məzarlıqların sayının artacağı gözlənilir.

Sonra İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiyanın baş direktoru Katrin Bomberger çıxış etmişdir.

Daha sonra Beynəlxalq Komissiya tərəfindən 2023-cü ildə ölkəmizdə həyata keçirilmiş qiymətləndirmə missiyası ilə bağlı hazırlanmış hesabatın təqdimatı olmuşdur.

Qeyd olunmuşdur ki, itkin ailələrinin otuz illik intizarına son qoymaq üçün bütün imkanlardan yararlanmağa çalışan Dövlət Komissiyası dünyanın müxtəlif yerlərində qanunsuz məzarlıqların aşkarlanması, insan qalıqlarının identifikasiyası, itkinlərin taleyinin aydınlaşdırılması, məhkəmə ekspertizası üzrə böyük iş təcrübəsinə, peşəkar mütəxəssis heyətinə, eləcə də müvafiq sahədə qabaqcıl texniki imkanlara və müasir metodologiyaya malik olan Beynəlxalq Komissiya ilə qarşılıqlı əməkdaşlığı möhkəmləndirmək niyyətindədir.

Sonda Beynəlxalq Komissiya ilə əməkdaşlığın itkin soydaşlarımızın taleyinin aydınlaşdırılması istiqamətində səmərəli nəticələr verəcəyinə dərin inam ifadə olunmuşdur.

***XQ***

# Zəngəzur dəhlizinə qarşı ABŞ “sipəri”?

## *İrəvanda qlobal gündəmlə bağlı “şirin yuxular”*




*(əvvəli 1-ci səhifədə)*

Ukrayna məsələsində Avropanın yekdil fikri yoxdursa, Ermənistana münasibət baxımından tutarlı nəyinsə yaşanacağı şübhəlidir. Üstəlik, Azərbaycanın Aİ ölkələrinin əksəriyyəti ilə əlaqələrinin dinamikliyi də vurğulanmalıdır. Belə bir durumda Parisin dirənişi həlledici ola bilərmi? Yaxud nə dərəcədə həlledicidir? Rəsmi İrəvan hazırda məhz bunun, daha doğrusu, lazımsız məsələnin üzərinə oyun qurur. Amma Paşinyan tərəfdarlarının ayrıca fitnəkarlıq konsepti də mövcuddur. Fitnəkarlıqda Vaşinqton dairələrinin Cənubi Qafqazı Ukraynadan daha fərqli mövqeyə çıxaracaqlarına dair ümid işığı var. Əvvəldə haqqında söz açdığımız Azərbaycan – Çin əməkdaşlığını gündəmə gətirmək də “ümiddən” qaynaqlanır.

Bəli, ABŞ-ın Cənubi Qafqazda fərqli siyasət yeritməsinə inanan rəsmi İrəvana yaxın çevrələr bildirirlər ki, Azərbaycan “İranı şimaldan blokadaya almaq” tezisi ilə Ermənistandan dəhliz (Zəngəzur dəhlizi – red.) zəbt edərsə, Çinin Orta dəhliz təşəbbüsü asanlaşacaq. Həmin çevrələr düşüncələrini qüvvətləndirmək məqsədilə Pekinin rəsmi Tbilisi ilə də strateji tərəfdaşlığa malikliyi məsələsini gündəmə gətirirlər.

Zəruri haşiyə çıxaq. Hazırda baş nazir Paşinyanın əlində olsa, Fransanı və Avropadakı digər havadarlarını unudub tamamilə ABŞ-ın tərəfində dayanar. Sadəcə olaraq, o, Amerikanın ölkəsi ilə əlaqədar mövqeyini bilmir. Nikolun tələm-tələsik Vaşinqtona səfəri də onda müsbət qənaət formalaşdırmadı. Buna görə də rəsmi İrəvan ən müxtəlif variantları nəzərdən keçirir. Həmin variantlar sırasında hətta Rusiya ilə soyuq olan münasibətləri düzəltmək niyyətləri də var. Ancaq, Kremldən Nikola düz-əməlli cavab yoxdur.

Əlqərəz, Azərbaycanın məqsədinin, guya, Çinin regional maraqlarının təminatına yönəldiyi rəyini formalaşdırmağa girişmiş Ermənistanın hakimiyyətə yaxın ekspert cameəsi iddia edir ki, Gürcüstan da Pekinin mövqeyinin müdafiəçisidir. Bu qütb Çin konsorsiumunun Gürcüstanın Anaklia Dərin Dəniz Limanının idarəsinə dair tenderin qalibi olmasını vurğulayır. Ən əsası isə Paşinyan tərəfdarları sözügedən limanın vaxtilə ABŞ-ın maliyyəsi hesabına tikildiyini qabardır və bildirirlər ki, Çin yükləri Orta Asiya ölkələrindən Azərbaycan, Gürcüstan və Qara dəniz vasitəsilə Avropaya daşınacaq.

Ən başlıcası, haylar iddia edirlər ki, Azərbaycan Ermənistanda dəhliz zəbt etməklə, Çinə alternativ nəqliyyat marşrutu verir və guya, Pekin kimi güclü oyunçuya arxalanmaq, Bakıya həmin dəhlizin (Zəngəzur dəhlizi – red.) işğalını legitimləşdirmək imkanı yaradır. Nəticə etibarilə, Vaşinqtona təxminən belə bir mesaj ünvanlanır: Baxın, Azərbaycan və Gürcüstan Çinin maraq və mənafelərini qoruyur, Ermənistan isə Qərb xəttinə sadiqdir.

Məlumdur ki, Ermənistan 44 günlük müharibə məğlubu kimi 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın şərtlərini yerinə yetirmir, Naxçıvana maneəsiz yolun təminatından boyun qaçırır. O yol ki, eyni zamanda, Zəngəzur dəhlizi ideyasından qaynaqlanır və yekunda Şərqdən Qərbə yükdaşımaları üçün optimal variantdır. Üçtərəfli bəyanatın 9-cu bəndində həmin yolda təhlükəsizliyin Rusiya Federal Təhlükəsizlik Xidməti tərəfindən həyata keçirilməsi göstərilib. Erməni ekspert kəsimi mövcud məqamı da qabardır. Bu kəsimin təmsilçiləri məsələyə Türkiyəni də qataraq Bakı və Tbilisi ilə yanaşı, Ankara və Moskvanın da birlikdə Pekinin maraqlarının icrasına çalışdıqlarını vurğulayırlar.

D.Trampın İrana münasibəti, yumşaq desək, yaxşı deyil və Paşinyan tərəfdarları hesab edirlər ki, İrəvanın Tehranla münasibətlərini sabit saxlamaqla, İslam respublikasını Azərbaycana qarşı istifadə etmək mümkündür. Ölkəmizin İranı, guya, blokadada saxlamaq istədiyinə və ABŞ-ın Ermənistanın işğalını gerçəkləşdirməyə imkan tanıyacağına dair ritorika da bundan qaynaqlanır. Yəni, Ermənistan İranı da sipər kimi görmək istəyir. Daha dəqiq desək, Tehran İrəvan üçün ikincinin özünə sərfəli ilk durumdaca asanlıqla imtina edə biləcəyi sipərdir.

Digər tərəfdən, erməni ekspertlərin vurğuladıqları bir məqam da var. Onlar Çinin İranı, belə demək mümkünsə, çətin vəziyyətdə qoymayacağını bildirirlər. Bunun üzərində dayanmaq da ABŞ-ın hazırkı administrasiyasının Pekinlə yanaşı, Tehrana qarşı da zidd mövqeyinə hesablanıb.

Hər bir halda, hay politoloqlar Ermənistanı Qərbin adası qismində göstərirlər. Onların “Ermənistan ərazisindən keçən Azərbaycan – Türkiyə yolları Rusiyanın, Azərbaycanın və Çinin nəzarətində deyil, Ermənistanın nəzarətində qalması ABŞ-a sərfəlidir. Bu marşrutlar Ermənistanın suverenliyinə əsaslansa, ABŞ-ın onlara nəzarət imkanı olacaq” kimi fikirləri də Ağ evi şirnikləndirmək məramından qaynaqlanır. Erməni ekspertlərin, necə deyərlər, tutacaq yerləri də var. Elə isə yazımızın ikinci hissəsinə keçid alaq.

***

Məlum olduğu kimi, 2025-ci il yanvarın 14-də Ermənistan və ABŞ arasında Strateji Tərəfdaşlıq Xartiyası imzalanıb. Sənəddə nəqliyyat kommunikasiyalarının blokdan çıxarılması kontekstində dövlətlərin suverenliyi və yurisdiksiyası vurğulanır. Ermənistan – ABŞ sazişində deyilir ki, birincinin dənizə çıxışı yoxdur və ümumən qlobal ticarət bazarlarına çıxışın məhdudluğu səbəbindən problemlərlə üzləşir. Sənəddə İrəvanın qorunmasının labüdlüyünü əsaslandıran başlıca tezis budur. Bu tezisə görə, Vaşinqton Ermənistanın “Dünyanın kəsişməsi” təşəbbüsünü təşviq etməklə, İrəvanın daha geniş regional nəqliyyat şəbəkələrinə inteqrasiyasını dəstəkləyir. Erməni ekspertlər bildirirlər ki, Tramp Administrasiyası mövcud məqamı, yəni, İrəvana dəstəyin vacibliyini nəzərə alır.

Amma necə nəzərə alır, məsələ bundadır. Azərbaycanın Zəngəzur dəhlizi ideyası Ermənistanı blokadada saxlamaq yönümlü deyil və məsələ barədə ölkəmizin rəsmiləri dəfələrlə açıqlamalar veriblər. Hərçənd, Paşinyan iqtidarına və onun xaricdəki havadarlarına bu, kifayət deyil. Onlar erməni avantürizminin diri saxlanılmasını istəyirlər. Belədə maraqlı durum yaranır. Tutalım, Tramp Administrasiyası Ermənistanın da qorunmasının vacibliyi üzərində dayanır. Ancaq vaciblik ABŞ – Ermənstan Strateji Tərəfdaşlıq Xartiyasının ruhundanmı irəli gəlməlidir?

Bir halda ki, Tramp özündən əvvəlki Bayden hakimiyyətinin bütün qərarlarını inkar yolu tutur, niyə erməni avantürizminin dirçəldilməsinə yönələn sənədə söykənsin? Böyük anlamda yanaşsaq, Çini cilovlamaq mümkünsüzdür. Yaxud, bunun başqa yolları var. Rusiya və Çin olan yerdə İrana qarşı kampaniya da effekt verməyəcək. Yəni, Ağ evdə məsələ barədə düşünmürlər? Əlbəttə, düşünürlər və bu baxımdan demək olmaz ki, Vaşinqton Ermənistan üzərinə ciddi siyasi sərmayə yatırmaq istəyir. Ermənistana dəstək, yalnız, “erməniləri də dolandırın” məntiqindən qaynaqlana bilər. Deməli, hay ekspert cameəsi xəyallara dalmasa, daha yaxşıdır.

Üstəlik, erməni “başbilənlər” ABŞ-ın Türkiyəni ələ alacağını da düşünməməlidirlər. Eyni zamanda, ABŞ artıq Avropanı da “bəsləmək” istəmir. “Köhnə qitə” üçün ən yaxşı “yem” isə Çin məhsullarıdır. Trampa görə, həmin məhsullar Amerika bazarına girməkdənsə, Avropa bazarına daxil olsa, daha münasibdir. Hansı yolla daxil olacaq, bu, yalnız təfərrüatdır. Yəni, indiki durumda Ermənistan özünü dünyaya təfərrüat ampluasında təklif edir. Mövcud ampluanın başqa təzahürləri də var.

Qeyd edək ki, baş nazir N.Paşinyan bir müddət öncə qələmə aldığı məqalədə regional kommunikasiyaların açılması məsələsində Türkiyə amili üzərində dayanmışdı. Onun sözlərindən belə çıxmışdı ki, başlıca vəzifə Laçın – Kornidzor – Marqara marşrutu üzrə hərəkəti təmin etməkdir. Nikol avtomobil yolu kimi nəzərdə tutulan bu marşrutun davamı olaraq Gümrü – Qars dəmir yolunun üzərində dayanmışdı. O, həmçinin, regional kommunikasiyaların açılmasının dəmir yolu seqmenti baxımından ayrıca təklif də irəli sürmüşdü. Həmin təklifə görə, Azərbaycandan Naxçıvana dəmir yolu olmalı, yolda gömrük və sərhəd nəzarəti tətbiq edilməlidir. Ən maraqlısı isə Paşinyanın, bir növ, şərt kimi irəli sürdüyüdür.

Sən demə, Azərbaycandan Naxçıvana yol özündə Mehri – Yerasx marşrutunu ehtiva edəcəyi təqdirdə mümkündür. Nikol bunu “Ermənistandan Ermənistana yol” kimi qələmə verməklə, rəsmi Bakının “Azərbaycandan Azərbaycana yol” təklifinə qarşı çıxır, beləliklə, Naxçıvana yolun dəmir yolu mahiyyətini qəlizləşdirir.

Deməli, regional kommunikasiyaların blokdan çıxarılması kontekstində rəsmi İrəvanın razılıq verdiyi ancaq Laçın – Kornidzor – Marqara (Azərbaycandan və Ermənistandan keçməklə Türkiyəyə doğru - red.) marşrutudur. Hay ekspertlərin bildirdikləri onu söyləməyə əsas verir ki, rəsmi İrəvan Birləşmiş Ştatların Türkiyəni buna razı salmasına ümid bəsləyir. Həqiqətən gülməli və aciz düşüncədir. Ancaq bu düşüncə müqabilində Ermənistanın ABŞ-a güzəştləri də var. Məsələn, ölkənin dəmir yollarının Birləşmiş Ştatların sərəncamına verilməsi. Hayların yadına, hazırda Rusiyanın mövcud istiqamətdəki öhdəliklərini, guya, yerinə yetirmədiyi düşür və onlar məsələni ictimailəşdirirlər. Söhbət Moskvaya məxsus “Cənubi Qafqaz Dəmir Yolu” şirkətinin milyonlarla dollar kəsirlə işləməsindən gedir. Sən demə, bu, Ermənistanın Rusiya şirkəti ilə konsessiya müqaviləsinin ləğvinə əsas verirmiş.

Göründüyü kimi, hazırda Ermənistan rəhbərliyi, ona yaxın ekspert və politoloqlar, ötən beş ildə olduğu kimi, var gücləri ilə Azərbaycana qarşı çıxır, regionda yeni reallıqlar formalaşdırmağa çalışır, ən ağlagəlməz metod və vasitələri gündəmə gətirirlər. Halbuki, bütün bunlara ehtiyac yoxdur. Onlar bir məqamı düşünməlidirlər ki, Ermənistan adlı dövlətin nəinki hansısa iqtisadi üstünlük qazanması, eləcə də onun gələcəkdə varlığı məhz Azərbaycandan asılıdır. Bu düşüncənin hay cəmiyyətində, ümumən hakim elitasında dərk edilmədiyi hər gün isə ölkənin zərərinədir.

**_Ə.CAHANGİROĞLU_**
**_XQ_**

---

# Ermənistan sülh sazişini silahlarla imzalayacaqmı?

**İkinci Qarabağ müharibəsindən sonra Hindistan Ermənistanın ən mühüm xarici tərəfdaşlarından birinə çevrilib. Bu, iki tərəfin qarşılıqlı maraqlarından irəli gəlir. Daha doğrusu, Pakistanla Azərbaycan arasında uzun illərdir ki, müxtəlif sahələrdə sıx qarşılıqlı əməkdaşlıq mövcuddur. Pakistanla Hindistanın arasında isə Kəşmir problemi var. Bu, Nyu-Dehlinin İrəvanla münasibətləri inkişaf etdirmək istəyinə təsir göstərir. Yəni ölkəmizə Pakistanın dostu kimi baxır. Ona görə də, bizə düşmən mövqedə olan Ermənistanla siyasi və hərbi əməkdaşlığı genişləndirir. Daha doğrusu, “düşmənimin düşməni mənim dostumdur” prinsipi ilə hərəkət edir.**

Ancaq başqa amillər də var. Ən mühümü Hindistanın dünyanın beşinci iqtisadiyyatına çevrilməsidir. Nyu-Dehli artan nüfuzu ilə paralel olaraq Ermənistanla münasibətləri möhkəmləndirmək, bu ölkənin ərazisindən istifadə etməklə Avropa bazarına çıxmaq istəyir. Bu mənada, ekspertlər Hindistanın hakim dairələrinin Cənubi Qafqaz siyasətini həm Azərbaycan–Pakistan tandeminin Kəşmir başda olmaqla regional məsələlərdə ortaq hərəkətinə cavab olaraq, həm də öz infrastruktur layihələrinin marşrutlarını genişləndirmək istəyi kimi qiymətləndirir. Bildirilir ki, bu sahədə əməkdaşlığı möhkəmləndirmək üçün son illərdə mütəmadi görüşlər geçirilir. Sonuncu belə görüş, martın 10-da Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanla hindistanlı həmkarı Subrahmanyam Caiyşankar arasında olub. “Bu səfər çox rəmzi bir məqamda baş tutur, çünki bu il ölkələrimiz arasında dostluq və əməkdaşlıq haqqında müqavilənin imzalanmasının 30 ili tamam olur”, – A. Mirzoyan sosial şəbəkələrdə yazıb.

Görüş zamanı hərbi sahədə əməkdaşlıq müzakirə olunub. Yada salaq ki, 2023-cü ildə Hindistan faktiki olaraq Ukraynadakı müharibəyə başı qarışmış Rusiyanı əvəz edərək Ermənistanın əsas silah tədarükçüsünə çevrilib. Nyu-Dehlinin Ermənistana silah ixracı 2020-ci ildə, hələ 44 günlük müharibə başlamazdan əvvəl, 4 ədəd “Swathi” radar sisteminin satılması ilə bağlı razılıqla başlanıb. O vaxtdan Ermənistanla Hindistan arasında silah alışı ilə bağlı 600 milyon dollarlıq müqavilə imzalanıb.

Hindistan hərbi ekspertləri hesab edirlər ki, Hayastana satdıqları silah bu ölkənin Azərbaycan qarşısında effektiv müdafiəsini təşkil edəcək gücdə deyil. Buna görə də qarşıdakı illərdə Ermənistanın hərbi ehtiyacları dərindən araşdırılmalı və müvafiq silah sistemləri təklif olunmalıdır. Bunlar, Hindistanın Ermənistanı silahlandırmaq və daha çox gəlir əldə etmək istəyindən xəbər verir. Deməli, Yeni Dehli İrəvana “daimi müştəri” gözü ilə baxır. İrəvanın Bakı qarşısında hərbi sahədə gücsüz olduğunu da yaxşı başa düşür. Bununla belə, Hindistan Ermənistanı silahlandırmaqla regionda sülhü, əməkdaşlığı və təhlükəsizliyi təhdid edir.

Onu da qeyd edək ki, tərəflər, həmçinin kosmik texnologiyalar, infrastruktur və bərpaolunan enerji sahəsində də tərəfdaşlıq əlaqələrinin qurulması istiqamətində müzakirələr aparıblar. Göründüyü kimi, hərbi-texniki əməkdaşlıqla yanaşı, iki dövlət arasında ticarət dəhlizinin (infrastruktur) yaradılması həmişə diqqət mərkəzində olub. “Şimal-Cənub” nəqliyyat dəhlizinin Ermənistan ərazisindən keçəcək qolu olan bu layihəyə əsasən, marşrut Hindistanın Mumbay limanından İrana, Azərbaycandan yan keçməklə Ermənistana, oradan isə Avropaya uzanacaq.

Ehtimal olunur ki, marşrut körfəz ölkələrindən və Hindistandan yüklərin optimal marşrutla Avropa İttifaqı (Aİ) və Avrasiya İqtisadi İttifaqına (AİI) daşınmasına imkan verəcək. İran və Hindistan üçün bu marşrut mürəkkəb dəniz yollarından yan keçməklə tədarükün diversifikasiya yolu kimi xüsusi əhəmiyyət daşıyacaq.

İlk baxışdan hər şey Ermənistan üçün çox gözəl görünür. Amma heç də belə deyil. Birincisi, Hindistandan Rusiyaya və əksinə, göndərilən yüklər əvvəlcə Ermənistandan, sonra Yuxarı Lars gömrük-keçid məntəqəsindən keçməlidir. Çünki Ermənistanı ən böyük iqtisadi tərəfdaşı olan Rusiya ilə birləşdirən yeganə quru yolu Kazbek dağından keçən Yuxarı Lars gömrük-keçid məntəqəsidir. Bu məntəqənin yerləşdiyi ərazi olduqca çətin coğrafi relyefə malikdir. Əksər aylarda yollar şaxtalı və buzlu olur və yük maşınlarının keçməsində böyük çətinliklər yaradır. Digər tərəfdən, Yuxarı Lars gömrük-keçid



məntəqəsinin texniki imkanları da məhduddur.

Burada maraqlı bir məqam da var. Bəs Ermənistan–İran sərhədindən yüklər Gürcüstana qədər necə daşınacaq. Yada salaq ki, Ermənistanın dəmir yolu sisteminin İran sistemi ilə əlaqəsi yoxdur. Sovet dövründə Naxçıvan vasitəsilə təmin olunan əlaqə çoxdan ermənilərin özləri tərəfindən sıradan çıxarılıb. Üstəlik, gələcəkdə bu ərazidə işlək nəqliyyat xətlərinin tikilməsi böyük xərc tələb edir. Çünki Zəngəzurun dağlıq relyefi var. Oradan dəmir yolu xətti və ya adi yol çəkmək böyük vəsait tələb edir. Unutmayaq ki, asfalt yolun da bir hissəsi Azərbaycan ərazisindən keçir.

Ermənistanın özündə də dəmir yolu xətti istismara yararsız vəziyyətdədir. Vaxtilə mövcud olmuş dəmir yollarından biri Tbilisiyə, digəri isə Qazax vasitəsilə Bakı və Rusiyaya gedirdi. Ermənistanı Rusiyaya birləşdirən digər istiqamət isə Naxçıvan, Zəngəzur dəhlizi vasitəsilə Azərbaycanın cənubundan keçir. Beləliklə, dəmir yolu xətti əvvəllər üç istiqamətdən hərəkət edərək Rusiyaya çıxış əldə edə bilirdi.

Cənubi Qafqazda baş verən münaqişələr səbəbindən hər üç istiqamətdə Rusiyaya çıxış bağlıdır. Abxaziyadan keçən dəmir yolu 1991-93-cü illərdə gürcü –abxaz münaqişəsi nəticəsində fəaliyyətini dayandırıb.

Ermənistanla Azərbaycan arasında hələ 1988-ci ildən başlanan münaqişədən sonra Dilican–Qazax istiqamətində dəmir yolu 1989-cu ildən tamamilə fəaliyyətsizdir. Bu xətt, demək olar ki, sökülüb.

Ermənistanın cənubundan keçən Mincivan–Mehri–Culfa dəmir yolu da öz fəaliyyətini dayandırıb. Bu xəttin Mehri istiqamətindən keçən hissəsi tamamilə sökülüb. İnfrastruktur istifadəyə yararsız vəziyyətdədir. Hazırda Zəngəzur dəhlizinin Ermənistan hissəsinin bərpasına çəkiləcək xərclər təxminən 226 milyon dollar təşkil edir. Onun öz ərazisindəki dəmir yolu infrastrukturunu tam bərpa edib işlək vəziyyətə salmaq üçün isə milyardlarla dollar lazımdır. Ermənistan dəmir yolu yalnız Gürcüstana işləyir. Bu ölkənin mallarının 70 faizi Gürcüstanın Poti və Batumi limanlarından daşınır. Hər iki limanın texniki imkanları artan yükdaşımalarını qarşılaya biləcək gücdə deyil. Deməli, yeni, beynəlxalq standartlara cavab verən liman tikilməlidir.

İrəvan isə çıxış yolunu Rusiya ilə Ermənistanı birləşdirən və Abxaziyadan keçən dəmir yolu xəttinin açılmasında görür. Lakin bu arzu reallaşana oxşamır. Məsələ ondadır ki, Abxaziya ilə Rusiya və Ermənistan arasında dəmir yolunun açılması mövzusu dəfələrlə müzakirə olunub, amma gürcü tərəfinin haqlı etirazı səbəbindən razılığa gəlmək mümkün olmayıb. Gürcüstan hesab edir ki, Abxaziya ilə dəmir yolu əlaqəsinin bərpası onun “hakimiyyətinin” legitimliyini tanımağa bərabərdir, yalnız separatçıların maraqlarına xidmət edir.

Rusiya ilə Ermənistanı birləşdirən və Abxaziyadan keçən dəmir yolu xəttinin açılmasına mane olan digər səbəb isə maliyyə ilə bağlıdır. Dəmir yolunun Oçamşirdən Zuqdidiyə qədər olan hissəsi yalnız xəritədə mövcuddur. Abxaziya ərazisində yolun çox hissəsi isə sökülüb.

Beləliklə, bu layihədə siyasi-iqtisadi cəhətdən səmərəli sayılmır. Odur ki, Hindistan–İran–Ermənistan “dəhlizi də” daha çox dalan olacaq. Çünki Ermənistan hazırda çoxsaylı problemləri və xarici ianələr hesabına mövcud olan iqtisadiyyatı, regionda oynadığı pozucu fəaliyyəti ilə arzuolunmaz vəziyyətdədir.

“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu XQ-yə bildirdi ki, Ermənistanla Hindistan arasında hərbi əməkdaşlıq, əlbəttə, narahatlığımıza səbəb olur. Çünki Ermənistan indi uzaqmənzilli raketlər əldə etməyə çalışır. Bu isə Azərbaycana birbaşa təhdid yaradır. Amma son zamanlar hiss olunur ki, haylar Hindistandan istədikləri silahları tam ala bilmirlər. Bu dövlətin Cənubi Qafqazda iqtisadi tərəfdaşı Azərbaycandır. Nyu-Dehli Azərbaycandan böyük həcmdə neft alır. İki ölkə arasında ticarət dövriyyəsi 1,5 milyard dollar həcmindədir. Üstəlik, Hindistandan Azərbaycana gələn turistlərin sayı ildən-ilə artır. Ona görə də hesab edirəm ki, Hindistanın rəsmi strukturları bu məsələni diqqətdən yayındırmamalıdırlar.

Ölkəmizin ərazisindən keçəcək “Şimal-Cənub” nəqliyyat dəhlizi onun üçün daha faydalıdır. Nyu-Dehli bu dəhliz vasitəsilə yüklərini Rusiya və Avropaya rahatlıqla daşıya bilər. Ermənistandan keçəcəyi ehtimal olunan dəhliz isə xəyaldır. Həyata keçirilməsi inandırıcı görünmür. Ümid edirəm ki, Hindistan Ermənistanla hərbi əməkdaşlıqda Azərbaycanın mövqeyini nəzərə alacaqdır”.

**_Pünhan ƏFƏNDİYEV_**
**_XQ_**

# Milli Aviasiya Akademiyasında “Boeing 777” simulyatoru

**Milli Aviasiya Akademiyasında (MAA) “Silk Way West Airlines” şirkəti ilə birgə idarəçilik məqsədilə “Boeing 777” tam uçuş simulyatorunun təhvil verilməsinə dair tədbir keçirilib.**



Akademiyadan bildiriblər ki, tədbirdə MAA-nın rektoru akademik Arif Paşayev, Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayev, ADA Universitetinin rektoru professor Hafiz Paşayev, “Silk Way Group”un şirkətlər qrupunun prezidenti Zaur Axundov və “Azərbaycan Hava Yolları” QSC-nin prezidenti Samir Rzayev iştirak ediblər.

MAA-nın rektoru akademik Arif Paşa- “777-F”, “777-200 LR”, “777-300 ER” kimi üç “Boeing 777” təyyarəsini özündə birləşdirən yeni nəsil modelidir. Qabaqcıl vizuallaşdırma və uçuş simulyasiyası texnologiyaları ilə təchiz edilmiş bu model ən yüksək beynəlxalq aviasiya standartlarına uyğun olaraq, geniş çeşiddə kvalifikasiya sessiyaları, pilot qiymətləndirmələri və sertifikatlaşdırma təlimləri keçirməyə imkan verir.




yev çıxışında bildirib ki, yeni simulyator həm milli, həm də qlobal səviyyədə aviatorlar üçün yüksəkkeyfiyyətli pilot hazırlığı imkanlarını təmin edəcək. Simulyator MAA-da müvafiq ixtisas üzrə təhsil alan tələbələrin hazırlığında mühüm rol oynamaqla yanaşı, “Silk Way West Airlines”, “Azərbaycan Hava Yolları” kimi dünyada “Boeing 777” təyyarələrini istismar edən digər hava yolu şirkətlərinin pilot və aviatorlarının bacarıqlarının artırılmasını, aviasiya təhlükəsizliyinin ən yüksək standartlara uyğunluğunu təmin edərək bu təlimlərin əsasını təşkil edəcək.

“Böyük Britaniya mərkəzli L3 Harris Commercial Aviation Solutions” şirkəti tərəfindən istehsal edilmiş simulyator olduqca real təlim təcrübəsi təklif edən və

Qeyd edək ki, sözügedən “Boeing 777” tam uçuş simulyatoruna fevral ayında Avropa Aviasiya Təhlükəsizliyi Agentliyinin (EASA) ekspertləri tərəfindən hərtərəfli baxış keçirilib. Agentliyin uğurlu sertifikatlaşdırma prosesinin ardından yerli aviasiya hakimiyyət orqanları tərəfindən rəsmi tanınma MAA-nın beynəlxalq aviasiya standartlarına sadiqliyini daha da gücləndirəcək.

Simulyator ölkəmizdə istifadəyə verilməklə milli mütəxəssislərimizə qoyulan xərcləri əhəmiyyətli dərəcədə azaltmaqla və əlçatanlığı artırmaqla pilotların təlimlər üçün xaricə getməsi zərurətini aradan qaldırır.

*XQ*

# Leyla Əliyeva və Arzu Əliyeva “Xəyal etmək azadlığı” sərgisində







**Azərbaycan Rəssamlar İttifaqı və VarYox mədəniyyət və incəsənət platforması birgə əməkdaşlıq çərçivəsində qadınların bədii təcrübələrini vurğulamağa həsr olunmuş illik “Her Art in Action” festivalının builki buraxılışını təqdim edib.**

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Bakı Media Mərkəzinin prezidenti Arzu Əliyeva festival çərçivəsində keçirilən “Xəyal etmək azadlığı” mövzusunda sərgidə iştirak ediblər.

Martın 9-dan aprelin 6-dək davam edən builki sərgi qadınların həm fərdi, həm də kollektiv şəkildə xəyallarını necə təsəvvür və ifadə etdiklərini, necə vizuallaşdırdıqlarını araşdırır. Festival sərgi və dinamik ictimai proqram vasitəsilə dialoq, düşüncə və bədii araşdırma üçün platforma yaradır.

Lesli Qrey və Ayna Moazzenin kuratorluq etdiyi sərgi açıq çağırışla seçilmiş 23 azərbaycanlı və 3 beynəlxalq rəssamı, həmçinin beynəlxalq kuratoru bir araya gətirir. Sərgidə rəsm, videoəsərlər, tamaşalar və instalyasiyalar daxil olmaqla, müxtəlif bədii üslublar və vizyonlar nümayiş etdirilir. Sərgi təxəyyülün şəxsi təcrübələrdən, sosial kontekstlərdən və mədəni normalardan təsirlənərək həm imkanlar, həm də məhdudiyyətlər üçün bir məkan kimi necə xidmət etdiyini araşdırmaq məqsədi daşıyır.

Sərgidən əlavə, “Her Art in Action” bir sıra seminarlar, portfolio icmallar, həmçinin qonaq olan rəssamlar və kuratorlar ilə müzakirələr vasitəsilə bədii inkişafı və əməkdaşlığı dəstəkləyir. Bu təşəbbüslər yeni başlayan və təcrübəli rəssamlar üçün öz təcrübələrini təkmilləşdirmək, yeni perspektivlər qazanmaq və həm yerli, həm də beynəlxalq sənət icmaları ilə əlaqə yaratmaq üçün mühüm fürsət yaradır. Azərbaycan Rəssamlar İttifaqı, “Pasha Travel”, Nar və Niderlandın Azərbaycandakı səfirliyinin dəstəyi ilə keçirilən “Her Art in Action” incəsənətdə qadınların səsini artırmaq üçün əsas platforma rolunu oynamaqda davam edir.

*XQ*

# Qadınların şərəfinə veloyürüş



**Azərbaycan Velosiped İdmanı Federasiyası, Gənclər və İdman Nazirliyi, eləcə də Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin (AYNA) təşkilatçılığı ilə "İdman həftəsi" çərçivəsində martın 8-də Bakıda xanımların veloyürüşü keçirilib.**

Müxtəlif sahələrdə çalışan xanımların iştirakı ilə baş tutan veloyürüş Dənizkənarı Bulvar ərazisində təşkil olunub.

Veloyürüşdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, gənclər və idman naziri Fərid Qayıbov və Azərbaycan Velosiped İdmanı Federasiyasının prezidenti Mədət Quliyev iştirak ediblər.

Veloyürüşün təşkilində əsas məqsəd həvəskar xanım velosipedçilərin asudə vaxtlarının səmərəli keçirilməsinə dəstək olmaq, ekoloji nəqliyyat vasitəsi olan velosipedi təbliğ etmək və qadınları velosipeddən istifadəyə həvəsləndirməkdir. Veloyürüş zamanı xanımlar Azneft dairəsi-Dəniz Vağzalı marşrutu üzrə hərəkət ediblər.

# Təqsirləndirilən Bako Sahakyan Qarabağda silahlanmanın qanunsuz olduğunu etiraf edib



**Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, Davit Babayan, Lyova Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə məhkəmə prosesinin baxış iclası martın 10-da davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, habelə müdafiələri üçün vəkillərlə təmin olunub.

Məhkəmənin baxış iclasında təqsirləndirilən şəxslər və onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, habelə dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Məhkəmə baxışı təqsirləndirilən şəxslərə suallar verilməsi ilə davam etdirilib.

Əvvəlcə təqsirləndirilən şəxs Arkadi Qukasyana dövlət ittihamını müdafiə edən prokurorlar tərəfindən suallar verilib.

O, suallara cavabında “Sovet Ermənistanı” qəzetində redaktor müavini vəzifəsində çalışdığını bildirərək deyib: “Mən Qarabağ münaqişəsinə aid mövzularda yazırdım. Qəzet 1991-ciilədək çıxdı. O vaxtdan sonra qəzet nəşr olunmayıb”.

Arkadi Qukasyan qanunsuz hərəkətləri qınadığını vurğulayaraq bildirib: “Mənim fikrimcə, qadını, uşağı və ya ahıl insanı öldürən şəxs insan deyil. Söhbət onun milliyyətindən getmir”.

O, Qarabağda məktəbdə rus dilində oxuduğunu, lakin erməni məktəblərinin Azərbaycan və rusdilli məktəblərdən sayca daha çox olduğunu deyib. Qukasyan etiraf edib ki, Qarabağda erməni dili ilə bağlı heç bir problem olmayıb.

Prokurorun “böyük Ermənistan” ideologiyasına dair sualına cavabında A.Qukasyan bu ideyanı nağıl adlandıraraq qeyd edib: “Çoxdandır “böyük Ermənistan”la bağlı nağıllara inanmıram. “Böyük Ermənistan” ideyası nağıldır. Mən real həyatda yaşayıram, mən heç vaxt buna real yanaşmamışam".

O, iş üzrə cinayətkar dəstənin üzvləri kimi adı keçən Zori Balayanla 1993-cü ildə, Vazgen Manukyanla isə 1994-cü ildə tanış olduğunu deyib. Bildirib ki, Robert Köçəryan isə onun rəhbəri olub.

A.Qukasyan dövlət ittihamını müdafiə edən prokurorların suallarını cavablandırarkən Ermənistan Respublikasının keçmiş prezidenti Robert Köçəryanla bağlı da danışıb. O, 1988-ci ildə Qarabağda keçirilən qanunsuz mitinqlərdə əsas çıxışçının Arkadi Manveloviç Manuçarov olduğunu bildirərək deyib: “Robert Köçəryanın çıxışları yadımda deyil. Biz rus dilində təhsil aldığımız üçün mənim kimi, onun da ədəbi erməni dili ilə bağlı problemi var idi. Ola bilər ki, o, mitinqin təşkilatçılarından olub, çünki “Krunk” təşkilatının üzvü idi”.

Daha sonra Bako Sahakyanın vəkili məhkəməyə müraciət edərək hüquqlarını müdafiə etdiyi şəxslə konfidensial görüş üçün şərait yaradılmasını xahiş edib. Məhkəmə müdafiəçinin vəsatətini təmin edib və konfidensial görüş üçün məhkəmə iclasında fasilə elan olunub.

Fasilədən sonra təqsirləndirilən şəxslər Bako Sahakyan, Arayik Harutyunyan, Davit İşxanyan və Davit Babayana Ermənistan SSR-in ərazisində və Azərbaycan SSR-in tərkib hissəsi olan Qarabağda Ermənistan tərəfindən yaradılan, onun dəstəyi və rəhbərliyi altında fəaliyyət göstərən, cinayətkar birliyin özəyini təşkil edən qanunsuz silahlı birləşmələrin rəhbərləri və iştirakçıları, Ermənistanla, onun rəhbərliyi və yüksəkvəzifəli şəxsləri ilə əlaqələri, fəaliyyəti, onların bu birləşmələrin fəaliyyətində iştirakı, habelə “böyük Ermənistan” cinayətkar ideologiyası, “Miatsum” və “Qarabağ” hərəkatlarının məqsədi, həmçinin “Krunk” təşkilatının funksiyaları, fəaliyyəti, müdafiə etdiyi ideyalar, qeyd olunan hərəkatlara rəhbərlik edən şəxslər və təqsirləndirilən şəxslərlə onların əlaqələri, Qarabağda təşkil edilən qanunsuz mitinqlərdə təqsirləndirilən şəxslərin iştirak edib-etməmələri, həmin mitinqlərdə çıxış edənlər, insanların mitinqlərə kim tərəfindən və hansı formada cəlb edilmələrinə, yaxud dəvət olunmalarına dair suallar verilib.



Təqsirləndirilən şəxs Bako Sahakyan dövlət ittihamını müdafiə edən prokurorların suallarına cavabında etiraf edib ki, Qarabağda silahlanma haqqında ilk çağırış qanunsuz mitinqlərdə olub.

O, kəndlərdə və şəhərlərdə silahlanmanın olduğunu bildirərək qeyd edib: “Silahların bir hissəsi dislokasiya olunmuş sovet hərbi hissələrindən idi. Bundan başqa, Ermənistandan silah tədarükü var idi. Silahlanma ilə bağlı əsas istiqamətlər bunlar idi”.

Ardınca təqsirləndirilən şəxs Davit İşxanyan dövlət ittihamını müdafiə edən prokurorların suallarını cavablandırıb.

Digər təqsirləndirilən şəxs Arayik Harutyunyan dövlət ittihamını müdafiə edən prokurorların suallarına cavabında deyib ki, Qarabağ hadisələri başlayanda 14 yaşı olub. O, məktəbli olduğu üçün qanunsuz mitinqlərdə iştirak etmədiyini, lakin həmin mitinqlərdə çıxış edən şəxslər barədə məlumatlı olduğunu, onları tanıdığını bildirərək deyib: “Bilirəm ki, Qurgen Qabrelyan, Vartan Akopyan, Haraçı Beqlaryan adlı yazıçılar mitinqlərdə çıxış edirdilər. Yazıçılardan Qurgen Qabrelyan uşaq şairi idi, bu qədərini bilirdim”.

A.Harutyunyan suallara cavabında qanunsuz silahlı birləşmələrin bir hissəsinin adını eşitdiyini qeyd edərək, “Arabo” batalyonundan danışıb: “Sizin saydığınız siyahıdan mən 30 faizinin adını eşitmişdim. “Arabo”, “Arami”, “Böyük Tiqran”, “Sasunçi David” haqqında bilirdim. Bilirdim ki, hansısa döyüş əməliyyatlarında iştirak ediblər. Daha çox “Arabo” haqqında bilirəm. Onun komandirlərindən birinin adı Manvel olub. Onunla təmasım 2020-ci ildən sonra başlayıb”.

Təqsirləndirilən şəxs Davit Babayan dövlət ittihamını müdafiə edən prokurorların suallarına cavabında qondarma rejimin “ordusu”nun müxtəlif silahlı birləşmələrdən təşkil olunduğunu, lakin özünün həmin proseslərdə iştirak etmədiyini bildirib. O, Arayik Harutyunyanla 1990-cı ildə tanış olduğunu deyib.

Bugünkü məhkəmə prosesində təqsirləndirilən şəxslərə zərərçəkənlərin nümayəndələri, habelə özlərinin vəkilləri də suallar ünvanlayıblar.

Məhkəmənin növbəti iclası martın 13-nə təyin olunub. Növbəti proses təqsirləndirilən şəxslərə sualların verilməsi ilə davam etdiriləcək.

*XQ*

# Milli Məclis Sədrinin Gürcüstana rəsmi səfəri



**Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlamentin nümayəndə heyəti martın 10-da Gürcüstana rəsmi səfəri çərçivəsində Tbilisidəki Heydər Əliyev Parkında Ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib.**

Milli Məclisin mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, Sahibə Qafarova abidənin önünə əklil qoyub, Ulu öndərin xatirəsini ehtiramla anıb.

Sonra Milli Məclisin Sədri Qəhrəmanlar Meydanında Memorial kompleksi ziyarət edib. O, burada Gürcüstanın ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəmanların abidəsi önünə əklil qoyub.

Daha sonra Azərbaycanın və Gürcüstanın Dövlət himnləri səsləndirilib.



*

**Həmin gün Milli Məclisin Sədri Sahibə Qafarova bu ölkə parlamentinin sədri Şalva Papuaşvili ilə görüşüb.**

Görüşdə Şalva Papuaşvili bu səfərin Gürcüstanda keçirilən parlament seçkilərindən və yeni çağırış parlamentin fəaliyyətə başlamasından sonra qanunverici orqanın rəhbəri səviyyəsində ilk rəsmi səfər olduğunu bildirib. O, bunu ölkələrimiz arasında yüksəksəviyyəli dostluq münasibətlərinin göstəricisi kimi qiymətləndirib və ölkəmizin Gürcüstana verdiyi dəstəyə görə Azərbaycan hökumətinə təşəkkür edib.

Sahibə Qafarova Gürcüstan parlamentinə keçirilən seçkilər və yenidən parlamentin spikeri seçilməsi münasibətilə təbriklərini çatdırıb.

Azərbaycan ilə Gürcüstanın dost və tərəfdaş ölkələr olduğunu söyləyən Milli Məclisin Sədri deyib ki, bu dostluq münasibətləri, ilk növbədə, xalqlarımızın iradəsindən qaynaqlanır. Xalqlarımız əsrlər boyu bir yerdə olub, dostluq, qardaşlıq, mehriban qonşuluq şəraitində yaşayıblar. Azərbaycan Prezidenti İlham Əliyevin də qeyd etdiyi kimi, Azərbaycanla Gürcüstan arasındakı siyasi əlaqələr bütün qonşular üçün nümunə ola bilər.

Qeyd olunub ki, Azərbaycan–Gürcüstan dostluğu və strateji tərəfdaşlığı böyük enerji və nəqliyyat layihələrinin həyata keçirilməsinə imkan yaradıb. Bu layihələr xalqlarımızın mənafelərinə xidmət edib, Cənubi Qafqazın sabitliyinə, inkişafına töhfə verib.

Görüşdə dost və qonşu ölkələrimiz arasında yüksəksəviyyəli münasibətlərin parlamentlər müstəvisində də uğurla davam etdirildiyi qeyd olunub. Vurğulanıb ki, parlamentlərarası əlaqələr Azərbaycan ilə Gürcüstan arasında ikitərəfli və çoxtərəfli münasibətlərin mühüm tərkib hissələrindən biridir və bu gün qanunverici orqanlarımız arasında həqiqətən çox səmərəli əməkdaşlıq qurulub. Azərbaycan və Gürcüstan parlamentarilərinin beynəlxalq platformalarda bir-birinə qarşılıqlı dəstəyinin və birgə fəaliyyətinin əhəmiyyəti qeyd olunub.

Görüşdən sonra Milli Məclisin Sədri Sahibə Qafarova Xatirə kitabını imzalayıb.

*

**Dünən iki ölkənin qanunverici orqanları arasında əməkdaşlıq haqqında memorandumun imzalanması mərasimi keçirilib.**

Sənədi Milli Məclisin Sədri Sahibə Qafarova və Gürcüstan parlamentinin Sədri Şalva Papuaşvili imzalayıblar.

Qeyd olunub ki, bu sənəd qanunverici orqanlarımız arasında münasibətlərin daha da dərinləşməsinə, əməkdaşlığın daha da genişlənməsinə töhfə verəcək.

***XQ***

# Ceyhun Bayramov Katrin Bomberger ilə görüşüb



**Xarici işlər naziri Ceyhun Bayramov martın 10-da İtkin Düşmüş Şəxslər üzrə Beynəlxalq Komissiyanın Baş direktoru Katrin Bomberger ilə görüşüb.**

Görüşdə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və ərazilərimizin işğalı zamanı itkin düşmüş azərbaycanlılar məsələsi, itkin düşmüş şəxslərin tapılması və kimliklərinin müəyyənləşdirilməsi istiqamətində mövcud vəziyyət, habelə beynəlxalq əməkdaşlıq istiqamətində səylər müzakirə olunub.

Nazir Ceyhun Bayramov "itkin düşmüş şəxslər" məsələsinin hər zaman əsas diqqət mərkəzində olduğunu diqqətə çatdırıb.

2023-cü ildən etibarən ölkəmizin bu məsələ ilə bağlı məlumatlılığın artırılması üçün beynəlxalq konfranslar təşkil etdiyi, Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının bu işdə fəal rol oynadığı qeyd olunub.

İtkin düşmüş şəxslər məsələsinin həllini tapması istiqamətində beynəlxalq səylərin səfərbər edilməsinin vacibliyi vurğulanıb.

Söhbət zamanı tərəflər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

***XQ***

# Fransanın müstəmləkə siyasətini ört-basdır etmək üçün ölkəmizə qarşı iddiaları əsassızdır

**Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Fransanın dənizaşırı ərazilər naziri Manuel Valsın "BFM TV"yə müsahibəsi zamanı ölkəmiz əleyhinə səsləndirdiyi əsassız iddialara dair ölkə mediasının sualını cavablandırıb.**

Fransız nazirin əsassız və qərəzli iddiası ilə bağlı XİN-in rəsmi mövqeyini açıqlayan mətbuat katibi bildirib: "Fransa tərəfinin dənizaşırı ərazilərdəki uğursuz siyasətini, kolonializm keçmişini davam etdirmək səylərini ört-basdır etmək üçün ölkəmizi ittiham edərək, təkrar-təkrar səsləndirdiyi əsassız iddiaları qətiyyətlə rədd edirik. Manuel Vallsın Azərbaycana qarşı növbəti dəfə səsləndirdiyi cəfəng iddialar Fransanın həmin xalqlar arasında dayaqlarını itirməsi ilə barışmadığının növbəti təzahüründən başqa bir şey deyil. Fransa tərəfindən belə iddialar səsləndirməklə ölkəmizə qarşı apardığı əsassız qarayaxma kampaniyasını dayandırmağı tələb edirik".

***XQ***

# XXI əsrin yeni geosiyasi çağırışları və Azərbaycan



**II MƏQALƏ**

## Qlobal geosiyasi dünya nizamı mövcuddurmu?

ABŞ bütövlükdə qlobal geosiyasi situasiyanı dəyişmək niyyətindədir. "Qlobal geosiyasi situsiya" xüsusi mənada işlədilir. Nəzərdə tutulur ki, hazırda özünəxas qüvvələr balansı, işləmə mexanizmləri olan aparıcı güc mərkəzlərinin açıq və qeyri-xətti sistemi qlobal geosiyasi situasiyanı əmələ gətirir. Burada onun detallarına varmaq imkansızdır. İndi "geosiyasi situasiya" ilə "qlobal dünya nizamı" anlayışlarını qısa müqayisə edək.

İntiuitiv olaraq aydındır ki, qlobal dünya nizamı dedikdə bütün dünyaya sistem kimi baxdığımız halda, onun strukturu və funksionallığının geosiyasi aspekti üçün qanunauyğunluq yaradan faktorlar kompleksini nəzərdə tuturlar. Lakin H.Kissincer "Dünya nizamı" əsərində yazırdı ki, əslində, "dünya nizamı deyilən bir şey yoxdur". Bunun əvəzində H.Kissincerə görə, daha doğrusu, Vestfal sazişində müəyyən edilmiş beynəlxalq münasibətlər sistemi, beynəlxalq hüquq qaydaları mövcuddur. Biz H.Kissincerin bu mövqeyinin indiki dünya geosiyasi durumu kontekstində bir aspekti üzərində dayanaq.

H.Kissincer çox güman ki, XX əsrin sonları XXI əsrin əvvəllərində qloballaşmış dünyanı tam əhatə edən və bu mənada praktiki müstəvidə həmin qloballığı geosiyasi aspektdə adekvat əks etdirən dövlətlərarası münasibətlər sisteminin olmamasını nəzərdə tutmuşdur. Bir qədər konkret səviyyədə bu o deməkdir ki, hətta Qərbin aparıcı fikir sahibləri hazırda qlobal miqyasda real işləyən geosiyasi düzənin olduğuna əmin deyillər. Yəni burada daha çox bir sıra tədqiqatçının ifadə etdiyi kimi, regional geosiyasi nizam dominantlıq təşkil edir, başqa qrup araşdırmaçının ifadə etdiyi kimi isə geosiyasi fraqmentləşmə aparıcıdır. Hər bir halda indi dünyanın həqiqətən vahid sistem kimi işləyə bilən geosiyasi nizama ehtiyacı vardır. ABŞ məhz bu sistemi yaratmaq yolundadır. Proses çoxmərhələli və ağrılıdır. Üstəlik, ABŞ qlobal geosiyasi sistemi öz maraqlarına uyğun formalaşdırmağa çalışır. Bu tezisin bir neçə fəlsəfi və siyasi-nəzəri detallarına baxaq.

## İdarəedən güc

Müasir elmin ən yeni istiqamətlərində mürəkkəb sistemlərin dərkinə bir özəl yanaşma mövcuddur. Bu yanaşmadan hər bir sosio-humanitar və siyasi elmlər istifadə edir. Politologiyada da aparıcı tədqiqatçıların əsərlərində həmin yanaşmanın prinsipləri özünü göstərir. O cümlədən, fəlsəfə ilə politologiyanın qnoseoloji-metodoloji kəsişmə sahəsində liderliyin tədqiqinə rast gəlinir (bunun konkret nümunələri bizə məlumdur).

Həmin yanaşmaya görə, dünya açıq, qeyri-xətti və özünütəşkil edən mürəkkəb sistemdir. Bu sistemin idarəedici parametri (faktoru, altsistemi, komponenti, elementi və s.) olur. Bütövlükdə sistemi həmin güc idarə edir. Bunun üçün bir qədər məhdud çərçivədə mürəkkəb sistemin nizamlayıcı parametrləri olmalıdır. Onlar ya avtonom, ya da "lokal aqreqatlar" kimi fəaliyyət göstərirlər. Hər bir variantda əsas funksiyaları idarəedici parametrin qərar verməsinə optimal uyğunlaşmaqla bütövlükdə sistemdə dəyişiklik etməkdən ibarətdir. Bununla sistem xaosdan nizamlılığa və əksinə keçidlər edə bilir. Məsələnin bundan sonra nəzəri detalları bizim təhlil üçün lazım olmaya bilər. Çünki onların konkret praktiki təzahürü daha önəmlidir.

Beləliklə, nəzəriyyə göstərir ki, qlobal miqyasda dünya sistemini idarə edə bilən güc lazımdır. Bu rola ABŞ iddialıdır. O, vahid mərkəz (və ya idarəetmə punktu) olaraq dünyanın geosiyasi "orqanizm" kimi nizamlı fəaliyyətini tənzimləməlidir. Ancaq idarəedən güc təkbaşına bunu dünya kimi böyük və mürəkkəb sistemdə edə bilməz. Ona "nizamlayıcı parametrlər-dövlətlər" lazımdır.

## Nizamlayıcı dövlətlər

Müasir geosiyasi situasiyada bu məqam çox önəmli yerə malikdir. Hələlik həmin nizamlayıcı–dövlət rolunu kimlərin oynayacağı məlum deyildir. İddialılar çoxdur. Burada son illər daha çox dövlətlər qrupunun geosiyasi nizamlayıcı parametr rolunu oynamaq iddiasını görürük. Məsələn, Avropa İttifaqı, Qoşulmama Hərəkatı, BRICS, Şanxay Əməkdaşlıq Təşkilatı, qismən MDB və s. Lakin real olaraq nizamlayıcı parametr–dövlət və ya təşkilat praktikada özünü təsdiq etməmişdir.

ABŞ-ın indiki rəhbərliyinin isə Obama və Baydendən fərqli olaraq bu aspektdə (görünür, Tramp həm də bu səbəbdən onlara hirslidir) planının olduğu getdikcə daha çox aydınlaşır. Əlbəttə, bu yolda onun üçün, məsələn, USAID kimi gizli niyyətli və əsas olaraq qanunsuz işlər görən təşkilatlar maneədir. Onların əvəzində Vaşinqton dünyada nizamlayıcı rol oynaya biləcək dövlət-dövlətlər qrupu müəyyən etməlidir. Onların başında D.Trampın fikrincə, Böyük Britaniya gəlir. Bəs digərləri? Təbii iki, bu prosesi Çinsiz, Rusiyasız, Türkiyəsiz, Hindistansiz, Braziliyasız aparmaq mümkün deyildir. Buna görə də hazırda vəziyyət həm mürəkkəbdir, həm də risklidir. Onun fonunda D.Trampın Rusiya siyasəti olduqca düşündürücüdür.

## Dön, Moskvaya bax!

D.Tramp Ukrayna və Avropaya bu mesajı verir: Moskvaya baxın! Yəni ABŞ Rusiyanın Avrasiyada geosiyasi rolunu hazırda mövcud olandan daha geniş və təsir dairəsinə görə əhatəli görmək istəyir. Ukrayna faktoru burada ciddi rol oynaya bilər. İki aspektdə.

Birincisi, Rusiyaya "Ukrayna tikəsi"ni istədiyi kimi vermək mümkün olsa, geniş bir geosiyasi məkanda ABŞ-ın idarəedici rolunu avtomatik qəbul etmiş potensialı və təsiri çox olan bir qüvvə qazanılır.

İkincisi, XX əsrin 70-80-ci illərində olduğu kimi, Rusiyanı Çindən geosiyasi kontekstdə ayırmaq imkanı yaranır. Lakin bu dəfə Qərb daha uzağa gedən və zahirən sivil görünən üsuldan istifadə edir. Üstəlik, Rusiyaya elə bir geosiyasi dividend verir ki, Mokvanı da uzun müddətə qane edir. Bundan başqa, istisna deyildir ki, ABŞ təkcə Ukrayna ilə deyil, keçmiş SSRİ məkanı ilə bu oyunu aparsın. Hələlik, bu, fakt deyil, təxmindir! Fakt odur ki, hazırda Ukrayna geosiyasi nizamlayıcı qüvvələrin formalaşmasında qurbanlıqdır.

Üçüncüsü, Qərb geniş bir coğrafi ərazidə Çinin xammal əldə etmək imkanlarına əl qoyur.

## Çin məsələsi

Pekin hər halda hər hansı yeni dünya nizamının formalaşmasında mərkəzi rollardan birini oynamalı tək gücdür. Hələlik ABŞ-ın təkbaşına idarəedici dövlət rolunu oynaya biləcəyi məlum deyildir. Onun Çinlə bu rolu necə bölüşəcəyi də naməlumdur. İndi onların çox ciddi və əhatəli mübarizəsi gedir. Bütün dünya onun gedişatını izləyir. Belə görünür ki, tərəflər əllərindəki bütün rıçaqlardan dünyanın müxtəlif regionlarında istifadə etməyə çalışırlar. Hazırda ABŞ–Çin münasibətlərində başlıca faktor Avropa və Yaxın Şərqdir. Əlbəttə, hər iki dövlət üçün Hindistan məsələsi də çox önəmlidir. Hiss olunur ki, London, Paris və Berlin Dehlinin "geosiyasi ovuna" çıxmışlar. Amma bu "ov"un da tor hörəni ABŞ-dır. Çin məsələsini Vaşinqton Aİ vasitəçiliyi ilə Hindistanı alternativ kimi qabartmaqla Pekinin nizamlayıcı parametr–dövlət rolunu qəbul etməsi formasında həll edə bilər.

Belə alınır ki, indi Avrasiya üçün ciddi geosiyasi nəticələri ola biləcək səviyyədə ABŞ–Çin rəqabəti gedir. Bu baxımdan iki faktorun hər iki güc üçün (ABŞ və Çin) əhəmiyyəti daha da artır – birincisi, Rusiya, ikincisi, Türk Dövlətləri Təşkilatı (TDT).

Hələlik, zahirən TDT faktoru D.Tramp üçün arxa plandadır. Yalnız Türkiyənin regional məsələlərdə fəallığı ilə "türk geosiyasətinin nəbzini" ölçürlər. Son illər Azərbaycanın həmin kontekstdə fəallığı yaxşı mənada heyrət doğurur. Çünki rəsmi Bakı türk dövləti və TDT üzvü kimi Mərkəzi Asiya, Qafqaz, Yaxın Şərq və Balkanlarla yanaşı, Ukrayna istiqamətində dünyanı maraqlandıran siyasi-diplomatik və humanitar addımlar atır. Onların üzərində irəlidə geniş dayanacağıq.

Rusiya məsələsi isə ABŞ və Çin üçün praktiki aspektdə daha intensiv aktuallıq kəsb edir. Vaşinqton və Pekin Moskva ilə təmaslarını hər zaman ön planda saxlayırlar. D.Trampın Ukrayna həmləsindən sonra bu istiqamətdə vəziyyət Amerikanın xeyrinə dəyişməyə başlamışdır. Buna baxmayaraq, Pekin xəbərdarlıq etdi: Ukrayna–Rusiya münaqişəsinin həlli önəmli olsa da, İsrail–Fələstin, konkret Qəzza faktorunu dünya siyasətində arxa plana atmaq olmaz! Yəni bu, Vaşinqtona xəbərdarlıqdır: "Avrasiyada nə etdiyini bilirik, anlayırıq, ancaq sənin də "arxa bağçan" var, ora qarışa bilər".

Bu qeyri-müəyyənlik qlobal miqyasda idarəedici və nizamlayıcı parametr-dövlətlərin müəyyən edilməsinə ciddi əngəllər törədir. Onun fonunda yeni geosiyasi dünya nizamının formalaşması bütövlükdə riskli yeni çağırışlarla müşaiyət olunur. Bununla bizim "ikiqat riskli situasiya" adlandırdığımız və politoloji anlamı olan bir vəziyyət meydana gəlmişdir. Bu anlayışın kontekstində regional və regionlararası miqyasda Azərbaycanın geosiyasi fəaliyyəti və liderliyin yeni əlamətləri məsələlərini təhlil edəcəyik. Öncə daxil etdiyimiz anlayışın fəlsəfi və politoloji anlamlarına baxaq.

## "İkiqat riskli situasiya"

Geosiyasi situasiyanın ikiqat riskləri qlobal sistemin struktur və funksiyaca ierarxik (pilləvari) olmasından qaynaqlanır. İndiki mərhələdə ikiqat risklilik həm dünya sisteminin geosiyasi funksiyasında özünü göstərən qeyri-müəyyənlikləri və təhdidləri, həm də idarəedən və nizamlayan aktorların yoxluğunu kompleks halda ifadə edir. Nəticədə qlobal geosiyasi mənzərənin strukturu aydın olmur – belə şəraitdə H.Kissincer mənasında nizamdan danışmağa dəyməz.

"İkiqat riskli geosiyasi situasiya" müstəqil milli dövlətlər üçün bütöv vəziyyəti çox mürəkkəbləşdirir. Çünki risklər yalnız inforser olmaq iddiasında və aparıcı olmaq niyyətində olanlara deyil, həm də dünyanın hər bir müstəqil dövlətinə təsir edir. Əslində, müstəqil dövlət dünya sistemindən qaynaqlanan ikiqat geosiyasi risklərlə yanaşı, liderlik iddiasında olanların birbaşa təsirləri ilə üz-üzədir. Bu da şübhəsiz olduqca mürəkkəb vəziyyət əmələ gətirir. İndi bu ümumfəlsəfi və politoloji tezislərin fonunda konkret Azərbaycan məsələsinə baxaq.

## Azərbaycan: regional kontekst

Azərbaycanın Cənubi Qafqazın lideri olması avtomatik şəkildə onun müstəqil dövlət kimi funksiyasına yeni çalarlar əlavə edir. Bakı istənilən dəyişkən geosiyasi situasiyada liderliyini adekvat həyata keçirmək kimi ciddi məsuliyyət daşıyır. Burada, şübhəsiz ki, dövlətin fəaliyyəti ilə liderin fəaliyyətinin tam harmoniyası şərtdir. Konkret ifadə etsək – dövlət başçısı inklüziv lider kimi dövlətin regional miqyasda fəaliyyətində həlledici və aparıcı rol oynamalıdır. Lidersiz bunu həyata keçirmək mümkün deyildir. Təcrübə göstərir ki, risklərin, qeyri-müəyyənliklərin və böhranlı durumların üstünlük təşkil etdiyi hər bir tarixi dönəmdə ölkənin taleyi birmənalı olaraq liderin fəaliyyətindən asılı olur. Dövləti mürəkkəb geosiyasi vəziyyətlərdən və tənəzzüldən öncə lider çıxarır. Toplum onun proqramlarını tam yerinə yetirməlidir. Təşəbbüs toplumdan gələ bilməz. Tarixi təcrübə göstərir ki, ən güclü dövlətdə belə öncə lider uğurlu kurs seçməlidir. Onun vasitəsilə öz komandasını və cəmiyyəti səfərbər etməlidirlər. Bütün dövlət orqanları dəqiqliklə liderin proqramlarına əməl etməlidirlər. Bununla inklüziv şəkildə dövlətdə lider-xalq, prezident-cəmiyyət birliyi təmin edilir.

Cəmiyyətdən belə bir liderlik mandatı almış dövlət başçısı regional miqyasda milli maraqlarını təmin edə bilər. Deməli, Azərbaycanın lider kimi regional miqyasda fəaliyyəti Prezidentin ölkə daxilində tam inklüziv xarakterli liderlik statusundan birbaşa asılı olur. Bununla XXI əsrin yeni qlobal çağırışlarının regional miqyasa proyeksiyası müstəqil dövlətlərdə liderlik faktorunu daha da aktuallaşdırır.

Fəlsəfi və politoloji olaraq bu məntiq dövlət başçısının lider kimi vəzifəsi və məsuliyyəi ilə dövlətin ölkə olaraq regional liderliyinin vəzifəsi və məsuliyyəti nisbətinin adekvat elmi dərkini aktuallaşdırır.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Böyük Qayıdışın yüksəliş addımları



(əvvəli 1-ci səhifədə)

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın uğurla icrası bu baxımdan böyük önəm daşıyır. Bölgədə yeni istehsal müəssisələrinin qurulması, məşğulluğun təmin olunması məqsədilə yerli və xarici investorların cəlbi istiqamətində dəstək tədbirlərinin həyata keçirilməsi xüsusi qeyd edilməlidir. İstehsal fəaliyyəti ilə məşğul olan rezidentlər üçün idxal olunan texnika, texnoloji avadanlıq və qurğuların, habelə xammal və materialların ƏDV və gömrük rüsumlarından azad edilməsi bu istiqamətdə atılan əhəmiyyətli addımlardan biridir. Bu yerlərdəki sahibkarlıq subyektlərinin mənfəət (gəlir), torpaq, əmlak və sadələşdirilmiş vergidən azad olunmaları da həmin ərazilərin iqtisadi reinteqrasiyasını sürətləndirir.

İqtisadiyyat Nazirliyinin tabeliyində Sahibkarlığın İnkişafı Fondu işğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərən sahibkarlara dəstək mexanizmi çərçivəsində sahibkarlıq subyektlərini banklardan ayrılan kreditlər üzrə zəmanət və subsidiya ilə təmin edir.

Qarabağ və Şərqi Zəngəzurun zəngin təbii ehtiyatları mədənçıxarma, kənd təsərrüfatı, "yaşıl" enerji və s. sahələrin inkişafı üçün böyük potensiala malikdir. Bölgədə biznes üçün güzəşt və azadolmalar, həmçinin güzəştli kredit, kredit-zəmanət və subsidiya mexanizmləri, digər dəstək tədbirləri tətbiq edilir. Eyni zamanda, adları çəkilən iqtisadi rayonlarda rəqabətqabiliyyətli sənaye məhsullarının istehsalı, investorlar üçün əlverişli biznes mühitinin gerçəkləşdirilməsi məqsədilə yaradılan Ağdam və "Araz Vadisi İqtisadi Zonası" sənaye parkları Qarabağ və Şərqi Zəngəzurun sənayeləşməsini sürətləndirir.

Ağdam Sənaye Parkı yaradıldığı qısa müddət ərzində rezident sayına görə ölkəmizdəki sənaye parkları arasında ikinci yerə yüksəlib. Burada 28 rezidentin və 4 qeyri-rezidentin səmərəli fəaliyyət göstərməsi üçün hər cür şərait yaradılıb. Sənaye parkının 70 faizə yaxın hissəsi sahibkarların istifadəsinə verilib. İş adamları tərəfindən sənaye parkında görülmüş işlərə 107 milyon manat investisiya yatırılıb, 450-dən




çox daimi iş yeri yaradılıb.

Ağdam Sənaye Parkındakı 9 müəssisədə istehsal edilən məhsulların daxili bazarda satılması ilə bərabər, ixracı da diqqətdə saxlanılıb. Parkda indiyədək sahibkarlar tərəfindən 22,3 milyon manatlıq məhsul satışı həyata keçirilib.

"Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı logistik imkanlar baxımından çox əlverişli ərazidə – yeni salınan magistral avtomobil və dəmir yollarının üzərində təşkil olunub. Sənaye parkının investisiya portfeli 130 milyon manatdan çox 16 sahibkarlıq subyektinə rezidentlik, 2 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Bu 18 sahibkarlıq subyekti tərəfindən sənaye parkında 1800-dən artıq daimi iş yerinin yaradılması nəzərdə tutulub.

Parkın artıq 30 faizdən çox hissəsi sahibkarların istifadəsinə verilib. İndiyədək sənaye parkında görülmüş işlərə rezidentlər tərəfindən 29,6 milyon manatdan çox investisiya yatırılıb, 100-ə yaxın iş yeri yaradılıb. Parkda 1 müəssisənin fəaliyyəti reallaşdırılıb, 6 müəssisənin isə yaxın gələcəkdə istifadəyə verilməsi planlaşdırılıb.

Bu il martın 1-i məlumatına görə, işğaldan azad edilmiş ərazilərdə mövcud olan sənaye parklarının rezidentlərinə idxal olunan texnika, texnoloji avadanlıqlar, eləcə də xammala görə 123 təsdiqedici sənəd verilib ki, bu sənədlər əsasında müəssisələr üçün, təqribən, 7,4 milyon manat dəyərində vergi və rüsumlardan azadolma tətbiq olunub.

Sakinlərin həyat şəraitini yaxşılaşdırmaq məqsədilə dövlət başçısının təşəbbüsü ilə işğaldan azad edilmiş ərazilərdə "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyasının həyata keçirilməsi diqqətdə saxlanılıb. Prezident İlham Əliyev tərəfindən ilk "Ağıllı kənd" layihəsinin təməli 2021-ci ilin aprelində Zəngilan rayonunda qoyulub, yaşayış məntəqəsi qısa müddətdə tikilərək məskunlaşdırılıb. Həmçinin dövlət başçısı tərəfindən 2021-ci ilin oktyabr ayında ikinci "Ağıllı kənd" konsepsiyası əsasında Füzuli rayonunda bir neçə yaşayış məntəqəsini birləşdirən Dövlətyarlı kəndinin təməli qoyulub. Burada "yaşıl" və alternativ enerjidən istifadə olunması, "ağıllı" idarəetmə sisteminin tətbiq edilməsi və "Ağıllı kənd" təsərrüfatı sahəsinin yaradılması nəzərdə tutulub.

# Avropanın Azərbaycan qazına tələbatı artır

**Azərbaycanın etibarlı enerji tərəfdaşı Belçikanın paytaxtında Avropa Komissiyası və Slovakiya arasında yaradılmış işçi qrupunun ilk iclası keçirilib. Slovakiyanın üzləşdiyi qaz təchizatı probleminin müzakirəsinə həsr olunmuş iclasda ölkəmiz energetika nazirinin müavini Orxan Zeynalovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə təmsil olunub.**



Toplantıda Avropa Komissiyasının Energetika üzrə Baş İdarəsinin direktoru Kristina Lobillo Borrero və Slovakiya Respublikasının Baş nazirinin müavini, iqtisadiyyat naziri Denisa Sakova iştirak ediblər. Avropa Komissiyasının və Slovakiyanın nümayəndələri Azərbaycanın enerji sahəsində etibarlı tərəfdaş kimi strateji əhəmiyyətini vurğulayıblar. Həm təbii qazın tədarükü, həm də "yaşıl" enerji sahəsində əməkdaşlığın inkişafı üçün qarşılıqlı fəaliyyət və dəstəyə hazırlıq ifadə olunub.

SOCAR-ın vitse-prezidenti Elşad Nəsirovun da iştirak etdiyi müzakirədə ölkəmizin təbii qaz potensialı, xüsusilə də Avropaya əlavə ixrac imkanları barədə təqdimat edilib. Tədarükün artırılması və infrastrukturun inkişafı üçün zəruri şərtlər diqqətə çatdırılıb. Nazir müavini Azərbaycanın enerji dəhlizlərinin yaradılması istiqamətində strateji rolundan bəhs edərək ölkəmizin Avropa tədarükçüləri ilə əməkdaşlığın genişləndirilməsi və enerji təhlükəsizliyinin təmin olunmasına dair dialoqa töhfə verməyə hazır olduğunu bildirib. İclasda bərpaolunan enerjidən istifadənin inkişafı və ixrac planları haqqında məlumat verilib, "Xəzər – Qara dəniz – Avropa", "Azərbaycan – Mərkəzi Asiya –Avropa", "Azərbaycan – Türkiyə –Avropa" və "Azərbaycan – Gürcüstan –Türkiyə – Bolqarıstan" yaşıl enerji interkonnektor layihələrinin reallaşdırılması istiqamətində görülən işlər diqqətə çatdırılıb.

Səfər çərçivəsində Avropa Komissiyasının enerji üzrə baş direktoru Ditte Juul Jorgensen ilə görüş keçirilib. Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında enerji dialoqu, Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində əməkdaşlıq, Mərkəzi Asiyadan "yaşıl" enerji tranziti də daxil olmaqla Avropaya bərpaolunan enerjinin müxtəlif marşrutlarla tədarükü məsələsi müzakirə edilib.

# Qeyri-neft ixracı çoxalıb



**2025-ci ilin yanvar–fevral aylarında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 6,6 faiz artaraq 485 milyon dollar təşkil edib. Bu barədə məlumat İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac icmalı"nın mart sayında yer alıb.**

Bildirilib ki, cari ilin yanvar-fevral aylarında yeyinti məhsullarının ixracı 12,3 faiz artaraq 153,9 milyon dollar bərabər olub. Nəşrin məlumatına əsasən, hesabat dövründə ixrac olunan qara metallar və ondan hazırlanan məmulatlar 66,9 faiz, şəkər və şəkərdən hazırlanan qənnadı məhsulları 47 faiz, alkoqollu və alkoqolsuz içkilər 39,2 faiz, kimya sənayesi məhsulları 30 faiz, çay 21,3 faiz, alüminium və ondan hazırlanan məmulatlar 2,8 faiz artıb.

İlin ilk 2 ayında aqrar məhsulların ixracı 9,5 faiz artaraq 119,7 milyon dollar, aqrar-sənaye məhsullarının ixracı isə 17,7 faiz artaraq 43 milyon dollara bərabər olub. Bütövlükdə, aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 11,6 faiz artaraq 162,8 milyon dollar təşkil edib.

# Təhlükəsiz gələcəyə təmiz enerji töhfəsi

**Azərbaycan regionda "yaşıl" enerjiyə keçidə yanaşmaların tətbiqi üzrə liderdir və iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə böyük töhfə verir. Ölkəmiz ekoloji mübarizəni davamlı olaraq genişləndirir və təmiz gələcək üzrə praktiki tədbirlər həyata keçirir, səmərəliliyi ilə diqqətçəkən öhdəliklər yerinə yetirir. Dövlət Neft Şirkətinin metan tullantılarının sıfra endirilməsi ilə bağlı öhdəlik götürməsi bunun bariz ifadəsidir.**

İşğaldan azad olunmuş ərazilərin yenidən qurulmasında əsas prioritetlərdən biri ekosistemin bərpası və ətraf mühitin qorunmasıdır. Dövlət başçısının dediyi kimi, Qarabağın "yaşıl" enerji zonasına çevrilməsi bu baxımdan olduqca önəmlidir.

İqtisadiyyat Nazirliyinin məlumatında daha sonra bildirilir ki, ölkəmizin dünyada etibarlı tərəfdaş kimi tanınması Azərbaycanın iqtisadi münasibətlərinin genişlənməsində mühüm şərt kimi diqqət çəkir. Respublikamızın münbit sərmayə və əməkdaşlıq mühiti sayəsində 2 QVt gücündə "yaşıl" enerji layihələri beynəlxalq investorlar tərəfindən maliyyələşdirilir. Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə ümumi qoyuluş gücü 1000 MVt olan "yaşıl" enerji layihələri üzrə müqavilələrin imzalanması, "Masdar"la əməkdaşlıq çərçivəsində Xəzər və MDB məkanının ən böyük günəş elektrik stansiyası olan Qaradağ Günəş Elektrik Stansiyasının istifadəyə verilməsi, Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti ilə əməkdaşlıq çərçivəsində "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının gözlənilən tikintisi, xarici tərəfdaşlarla Biləsuvar və Neftçalada günəş enerjisi layihələrinin maliyyələşdirilməsi üzrə sənədlərin imzalanması və s. ölkəmizdə bu sahədə görülən işlərin parlaq ifadəsidir. Həmçinin Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı və Asiya İnfrastruktur İnvestisiya Bankı tərəfindən maliyyələşdiriləcək layihələrin ümumi dəyərinin 670 milyon ABŞ dolları təşkil edəcəyi gözlənilir.

Dövlət Nef Şirkəti, bp və Azərbaycan İnvestisiya Şirkəti (AİŞ) tərəfindən



Cəbrayıl rayonunda 240 MVt gücündə "Şəfəq" Günəş Elektrik Stansiyasının tikintisi nəzərdə tutulur. AİŞ-in portfelində işğaldan azad edilmiş ərazilərdə Türkiyənin "Demirören Holding"i ilə birgə həyata keçirilən 5 kiçik su elektrik stansiyasının bərpası layihəsinin də xüsusi önəmi var. Bu layihə su elektrik stansiyalarının regionu bərpa olunan enerji ilə təmin edərək ənənəvi enerji təchizatı mənbələrindən asılılığı azaltması ilə AİŞ-in davamlı inkişafa sadiqliyini əks etdirir.

Alternativ energetika sahəsində dünyanın aparıcı şirkətləri ilə bağlanmış müqavilələr nəticəsində ölkəmizə 2 milyard ABŞ dolları həcmində investisiya yatırılacaq. Bu investisiyalar nəticəsində 2 min meqavat gücündə bərpa olunan enerji istehsalı mümkün olacaq.

Azərbaycanın liderlik etdiyi "Xəzər – Qara dəniz – Avropa", "Azərbaycan –Türkiyə – Avropa" və "Azərbaycan – Mərkəzi Asiya – Avropa" yaşıl enerji dəhlizləri üzrə layihələr Avropaya "yaşıl" enerjini müxtəlif marşrutlarla ötürməklə strateji missiya yerinə yetirmiş olacaq və bu istiqamətdə ölkəmizin dünyada mövqeyini daha da gücləndirəcək.

Beləliklə, yeni trendlərin iqtisadiyyatda uğurlu tətbiqi, dövlət-özəl sektor tərəfdaşlığının gücləndirilməsi, investisiya fəallığının artırılması və s. amillər innovativ və prioritet layihələrin gerçəkləşdirilməsi üçün münbit şərait yaradıb. Bu layihələrin intensivliyi isə, öz növbəsində, qeyri-neft sektorunun şaxələndirilməsi və strukturunun yenilənməsində, iqtisadi artımın və davamlılığın gələcəkdə də təmin edilməsində, "yaşıl" iqtisadiyyatın sürətli inkişafında, sosial rifahın yüksəlişində böyük rol oynayacaq.

# Qoz bağları da güzəştli sığortaya cəlb edilir

**Azərbaycanda dövlət dəstəyi ilə tətbiq edilən aqrar sığorta mexanizmi vasitəsilə sığortalana bilən 41 bitki növü arasında qoz bitkisi də var. Artıq ölkəmizdə kütləvi şəkildə əkilən qoz bağlarının sığortalanmasına başlanılıb. Təsərrüfat sahibləri qoz bağlarını 50 faiz güzəştli şərtlərlə sığorta edə bilərlər. Bu barədə Aqrar Sığorta Fondu məlumat yayıb.**



Bildirilib ki, 2024-cü ilin rəsmi məlumatlarına əsasən, Azərbaycanda qoz bağlarının ümumi əkin sahəsi 7 min hektara çatır. Bura, həmçinin son illər xüsusilə artan intensiv və superintensiv bağlar da daxildir. Qoz bağlarının 40 faizindən çoxu, təqribən, 3 min hektarı Şəki – Zaqatala iqtisadi rayonunda yerləşir. Bu göstərici Quba – Xaçmaz və Dağlıq Şirvan iqtisadi rayonları üzrə isə müvafiq olaraq 1335 hektar və 776 hektar təşkil edir.

Fondun məlumatına əsasən, son illər ölkəmizdə qoz bağlarının sahəsi genişlənməkdədir. Təkcə onu qeyd etmək kifayətdir ki, ötən il istiyə tələbkar, eyni zamanda, quraqlığa, sərt iqlim şərtlərinə, şaxtaya davamlı qoz bitkisinin əkin sahəsində 210 hektar artım qeydə alınıb. Qoz bağlarına fermerlərin marağının çoxalması və bu sahəyə yatırılan investisiyaların artımı bağların çoxsaylı risklərdən sığortalanmasını da zəruri edir.

Aqrar sığorta qoz bağlarını, dolu, fırtına, qasırğa, subasma, vəhşi heyvan hücumu, 3-cü şəxsin hərəkəti və sair hadisələrdən qoruyur. Artıq qoz bağlarına dəyən zərərlər üzrə ödənişlər də başlayıb. Belə ki, 2024-cü ildə Şəki – Zaqatala regionunda baş vermiş hadisələr və qoz bağlarına dəyən zərərə görə Aqrar Sığorta Fondu tərəfindən fermerlərə 20 min 161 manat sığorta ödənişi edilib. Bu ödənişlər fırtına, qasırğa, sel-subasma kimi hadisələr üzrə edilib. Yeri gəlmişkən, sığorta haqqının yarısı dövlət tərəfindən ödənildiyi üçün fermerlər cüzi ödənişlə bağlarını sığorta edə bilərlər. Belə ki, Quba – Xaçmaz regionunda 1000 manatlıq qoz məhsulunun sığortalanması üçün 10 manat, Şəki – Zaqatalada 19 manat, Dağlıq Şirvan regionunda isə 17 manat sığorta haqqı ödənilməlidir. Eyni zamanda, fermerlər qoz bağında gözlənilən məhsulla yanaşı, ayrıca olaraq acağları və tingləri də olduqca sərfəli şərtlərlə sığorta edə bilərlər.

# Tikinti sektoruna yatırım yüksəlir

**Bu ilin fevralın 1-nə Azərbaycanda inşaat və tikinti sektoruna kredit qoyuluşlarının həcmi 1,2 milyard manat təşkil edib. Bu da yanvar ayına nisbətən 6,1 milyon manat və ya 0,5 faiz, 2024-cü ilin eyni dövrü ilə müqayisədə isə 40,3 milyon manat və ya 3,5 faiz çoxdur.**

Mərkəzi Bankın məlumatına görə, Azərbaycanda real sektora kredit qoyuluşu üzrə kredit portfeli, ümumilikdə, 29,3 milyard manat təşkil edib. Bu da aylıq müqayisədə 37,1 milyon manat və ya 0,1 faiz, əvvəlki ilin yanvar ayındakı göstərici ilə müqayisədə isə 5 milyard manat və ya 20,4 faiz artım deməkdir.



*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Azərbaycan "yaşıl" iqtisadiyyata keçid poliqonudur

**Ölkəni dünya birliyi üçün cəlbedici edən cəhətlərdən ən önəmlisi onun beynəlxalq aləmdə həyata keçirdiyi mühüm layihələrdir. Bu vaxtadək Azərbaycanda beynəlxalq təşkilatların çox sayda siyasi, iqtisadi və humanitar mövzularda tədbirlər keçirilib. Belə tədbirlərin ölkəmizdə, onun paytaxtı Bakı şəhərində və regionlarda keçirilməsi bizə nə verir? Azərbaycan bu platformalardan məharətlə yararlanaraq, ilk növbədə, öz həqiqətlərini bütün dünyaya çatdıra bilir. Bu tədbirlər vasitəsilə apardığımız təbliğatla bizə düşmən mövqedə olan qüvvələrin dünyanın ayrı-ayrı yerlərində ölkəmiz, xalqımız barəsində yaratmaq istədikləri neqativ fikirlər alt-üst edilir. Belə tədbirlərin yüksək səviyyədə keçirilməsindən sonra dünyanın müxtəlif ölkələrindən gələn nümayəndələr geriyə qayıtdıqda ölkələrində Azərbaycan və azərbaycanlılar barəsində gerçəkləri çatdıraraq, ölkəmiz və xalqımız haqqında müsbət fikirlər formalaşdırırlar.**

**COP29-a ev sahibliyi edəcək ölkə kimi yekdil qərarla seçilmək bizim üçün həqiqətən böyük şərəfdir. Biz bunu beynəlxalq ictimaiyyətin Azərbaycana və gördüyümüz işlərə, o cümlədən yaşıl enerji sahəsindəki fəaliyyətimizə hörmətinin əlaməti hesab edirik.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

2024-cü ildə Azərbaycan dünyada ən böyük beynəlxalq tədbirə – BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi etdi.

Belə bir sanballı beynəlxalq tədbirin Azərbaycanda keçirilməsi 2024-cü ilin ən mühüm hadisəsi və ölkənin "yaşıl" iqtisadiyyata keçid strategiyasının məntiqi davamı kimi qiymətləndirmək olar. Ölkəmizin COP29-a ev sahibliyi etməsi respublikamızın beynəlxalq nüfuzu baxımından mühüm önəm daşıyır. Prezidentimiz cənab İlham Əliyev həyata keçirilən layihələrə müşahidəçi yox, iştirakçı və təşkilatçı kimi qoşulduğumuzu dünyaya bir daha nümayiş etdirdi, dünya ölkələri liderlərini Bakıya topladı və onların diqqətini bəşəri ekoloji problemlərin həllinə yönəltdi. COP29 nəinki Azərbaycanın, bütövlüklə Kainatın iqlim böhranını həll etmək üçün mühüm addımlar atmaq üçün bir platforma rolunu oynadı.

Tarixə nəzər saldıqda görürük ki, COP 29-un Azərbaycanda keçirilməsi dövlətimiz tərəfindən uzun illər ərzində aparılmış, düşünülmüş uğurlu siyasətin nəticəsidir. Belə ki, "Azərbaycan Respublikasında ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa dair" Milli Proqram hələ 2003-cü ildə qəbul edilmişdir. Həmin proqramın davamı kimi 2012-ci ildə qəbul edilən "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının, həmçinin "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014–2020-ci illər üçün Milli Strategiya"nın da əsas hədəflərindən biri ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişaf olmuşdur.

Təsadüfi deyildir ki, dövlət rəhbərinin 2021-ci il 2 fevral tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də 5-ci prioritet "Təmiz ətraf mühit və "yaşıl artım ölkəsi" adlanır.

Azərbaycan alternativ enerjiyə keçid istiqamətində səylərdə regionda liderdir və bu istiqamətdə fəaliyyətini daim artırır. 2019–2023-cü illərdə BMT Baş Assambleyasından sonra ən böyük beynəlxalq təsisat olan 120 ölkənin üzv olduğu Qoşulmama Hərəkatına uğurla sədrlik etməsi ölkəmizin tərəflərin maraqlarını birləşdirmək qabiliyyətinin göstəricisidir.




COVİD-19 pandemiyasının başlanmasından dərhal sonra ona qarşı qlobal səyləri səfərbər etmək təşəbbüsü ilə çıxış edən məhz Qoşulmama Hərəkatı oldu. Eyni zamanda, bu beynəlxalq təsisatın sədri kimi ölkəmiz "peyvənd millətçiliyi"nə qarşı uğurla mübarizə apardı. Azərbaycanın təşəbbüsü ilə həm BMT Baş Assambleyasında, həm də BMT-nin İnsan Hüquqları Şurasında vaksinlərin ədalətli bölüşdürülməsinə dair qətnamələr qəbul edildi. Azərbaycan Qoşulmama Hərəkatı ailəsinin üzvləri olan 80-dən çox ölkəyə koronavirusla bağlı ya ikitərəfli kanallar, ya da Ümumdünya Səhiyyə Təşkilatı vasitəsilə maliyyə və humanitar yardımı göstərdi.

COP29-un Azərbaycanda keçirilməsi ölkəmizin Qoşulmama Hərəkatına sədrliyi və Təhlükəsizlik Şurasına üzvlüyündən sonra xarici siyasətimizin ən böyük uğuru və Prezident İlham Əliyevin növbəti təntənəli qələbəsi oldu.

Azərbaycan Prezidentinin sərəncamı ilə 2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi bu missiyaya verilən dəyərin təsdiqi oldu. Bu təşəbbüs sadəcə rəmzi məna daşımır, eyni zamanda, dövlətimizin gələcək nəsillər üçün daha sağlam gələcəyin qurulması istiqamətində dəyərli öhdəliyini, strateji məqsədlərini və fəal tədbirlərini əks etdirən addım idi.

COP29 qlobal iqlim maliyyələşdirilməsi sistemində əsaslı dəyişikliklərə səbəb olacaq tarixi qərarlarla yadda qaldı. Bu qərarlar hansı məsələləri əhatə edir?

1. Azərbaycanın COP29 sədrliyi inkişaf etməkdə olan ölkələrə hər il 1,3 trilyon dollar məbləğində iqlim maliyyələşdirilməsi yönəltməyi nəzərdə tutan Bakı Maliyyə Məqsədinin (BMG) qəbul edildiyini elan etdi. Bu məqsəd çərçivəsində inkişaf etməkdə olan ölkələr üçün iqlim maliyyələşdirməsini üç dəfə artırmaq, 2035-ci ilə qədər iqlim danışıqları çərçivəsində razılaşdırılmış əvvəlki 100 milyard ABŞ dolları hədəfinin artımını ildə 300 milyard ABŞ dollarına çatdırmaq barədə tarixi qərar əldə olundu.




2. COP29 zamanı BMT-nin yüksək səviyyəli karbon bazarlarına dair 10 il davam edən Paris Sazişinin 6-cı maddəsinin müzakirələri də uğurla başa çatdırıldı. Bu bazarlardan gözlənilən maliyyə axınlarının 2050-ci ilə qədər illik 1 trilyon dollara çatdırılacağı proqnozlaşdırıldı.

3. Bundan əlavə, COP29 sədrliyi uzun zamandır ki, gözlənilən İtki və Zərər Fondunun yaradılması üzrə mühüm qərar qəbul etdi. Fondun 2025-ci ildən etibarən vəsaitlərin paylanmasına hazır olacağı bildirildi. Bu qərarın xüsusilə kiçik ada dövlətləri və az inkişaf etmiş ölkələr də daxil olmaqla, inkişaf etməkdə olan ölkələr üçün böyük əhəmiyyət kəsb edir.

Bir faktı da əlavə edək: Stokholm Beynəlxalq Sülh Araşdırmaları İnstitutunun məlumatına görə, 2023-cü ildə dünya dövlətləri hərbi xərclərə gündəlik 6,7 milyard dollar xərcləyiblər. Bu, o deməkdir ki, illik 300 milyard dollarlıq iqlim maliyyələşdirmə hədəfi dünyanın 45 günlük hərbi xərclərinə bərabərdir.

Son illərdə ekoloji problemlərin sürətlə artması və iqlim dəyişikliyinin təsirlərinin daha qabarıq şəkildə hiss olunması dünya dövlətlərini davamlı inkişaf modelləri axtarışına sövq edir. Ətraf mühitin qorunması və iqtisadi inkişafın uyğunlaşdırılmasını hədəfləyən "yaşıl iqtisadiyyat" modeli strateji əhəmiyyət kəsb edir. Yaşıl iqtisadiyyat, iqtisadi fəaliyyətlərin ətraf mühitə təsirlərini azaltmağı, bərpa olunan enerji mənbələrinin tətbiqini təşviq etməyi və təbii resurslardan səmərəli istifadəni prioritetləşdirən iqtisadi sistemdir.

Azərbaycanda enerji effektivliyinin artırılması, mühafizə olunması, istehsal texnologiyalarının modernləşdilrilməsi və tullantıların idarə edilməsi kimi sahələrə diqqət yetirilir.

Bu baxımdan Azərbaycanda həyata keçirilən təkrar emal texnologiyası yaşıl iqtisadiyyatın inkişafına, rəqabətqabiliyyətli sənaye məhsullarının istehsalının genişləndirilməsinə, ekoloji vəziyyətin yaxşılaşdırılmasına xidmət edir. Bu gün tullantıların emalının iqlim dəyişikliyinə təsiri ilə bağlı fikirlər də dəyişib, hazırda bir sahədə tullantı sayılan məhsul digər sahə üçün unikal xammaldır.

Təkrar emal yenidən istifadəsi mümkün olan materialların dövri olaraq istehlak prosesinə daxil edilməsidir və burada başlıca məqsəd təbii sərvətlərin israfının, ekoloji çirklənmənin qarşısını almaqla yanaşı, əlavə xammal bazası yaratmaqdır.

Nəzərə almaq lazımdır ki, təkrar emal ilkin istehsaldan fərqli olaraq, asan və tez başa gəlir, bu da enerji qənaətinə imkan verir. Bu sahədə alimlərin rolu böyükdür və düzgün innovativ texnologiyanın tətbiqi nəinki ekoloji problemlərin həllinə, həmçinin iqtisadi səmərənin artımına yol açacaq.

Biz istehsal zamanı əmələ gələn hər hansı bir tullantını təkrar emal və yaxud utilizasiya etmir və birbaşa təbiətə atırıqsa, bu ətraf mühitin çirklənməsinə və iqlim dəyişməsinə səbəb olur.

Əgər tullantıların düzgün çeşidlənməsini, sonra isə düzgün istiqamətdə utilizasiya və emal texnologiyalarından keçiririksə, iqlim dəyişikliyinə qarşı mübarizədə müsbət töhfə vermiş oluruq ki, bu da aparılan elmi tədqiqatların nəticəsində mümkün ola bilər.

Ümummilli liderimiz Heydər Əliyev respublikamızda toplanmış milyon tonlarla tullantıların düzgün idarə olunması və ekoloji problemlərin qarşısının alınması məqsədilə respublikamızda elmi mərkəzlər yaratmışdı.

AMEA-nın Gəncə Bölməsinin elmi müəssisələrində də uzun illər ərzində tullantısız texnologiyanın tətbiqi istiqamətində elmi-tədqiqat işləri aparılmışdır. Dünyada yeganə olan Naftalan nefti və onun tullantılarından bioloji-aktiv komponentlərin ayrılması məqsədilə yeni adsorbentlərin, sənaye tullantılarından və təbii xammaldan istifadə edərək müxtəlif tikinti materiallarının, təbii boyaqların alınması texnologiyaları işlənib hazırlanması, sınaqdan keçirilməsi və texnoloji reqlamentlər dəqiqləşdirilərək, boyaq emalı zavodunun tikilməsi və milyon tonlarla tullantının istifadə edilərək müxtəlif növ materialların alınması olmuşdur.

Əldə olunan təkrar emal texnologiyaları əsasında Kirovabad (Gəncə) İstehsalat Birliyində 1984-cü ildə Qərb bölgəsində toplanmış sənaye tullantıları əsasında yuyucu maddələrin istehsal texnologiyası yaradıldı və bunun əsasında ilk dəfə olaraq yuyucu maddələrin istehsalına başlanıldı və keçmiş İttifaqın müxtəlif respublikalarına ixrac edildi.

Qərb bölgəsində milyon tonlarla müxtəlif növ sənaye tullantılarından bir sıra tikinti materiallarının (sement və üzlük materialları) alınması istiqamətində sənaye sahələri yaradıldı.

Maraqlı elmi-tədqiqat işlərindən biri sənaye tullantılarından istifadə edərək sementin rəngini dəyişmək məqsədilə əlavə qatqılar hazırlanmış və bunlar əsasında dekorativ döşəmə örtük plitələr alınması texnologiyası həyata keçirilmişdir.

Uzun illər ərzində Gəncədə fəaliyyət göstərən Alüminium Oksidi Kombinatında qlinozyom istehsalı zamanı milyon tonlarla tullantılar (35 milyon ton) torpaq ərazilərini zəbt etmişdir ki, bu da ekoloji problemlərə səbəb olmuşdur. Tullantıların təkrar istifadə olunması məqsədilə onlardan silikat boyaların alınması texnologiyası sahəsində bir qrup alimlərin apardığı elmi tədqiqat işləri müsbət nəticələr vermiş və Respublika Texniki Təchizat Komitəsi nəzdində boyaq emalı istehsal sahələri yaradılmışdır.

Son illərdə Azərbaycanda yaşıl iqtisadiyyata keçid istiqamətində mühüm addımlar atılıb. Ölkəmiz, BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə uyğun olaraq, bərpaolunan enerji mənbələrinin genişləndirilməsi, enerji səmərəliliyi və dövri iqtisadiyyatın inkişafı sahələrində ciddi nailiyyətlər qazanıb.

Dördüncü Sənaye İnqilabı adlandırılan yeni dövrün əsasını təşkil edən yaşıl enerji ənənəvi enerji mənbələrini – daş kömür, neft-qaz kimi sahələri geridə qoyur. "Yaşıl" iqtisadiyyata keçid zamanı bərpaolunan enerji mənbələrinin tətbiqinə xüsusi önəm verilir. Azərbaycanın coğrafi mövqeyi və təbii sərvətləri ölkənin bərpa olunan enerji mənbələrini əhəmiyyətli dərəcədə artırır, çünki dünyada mövcud olan 11 iqlim qurşağından 9-u Azərbaycandadır. Ölkəmizin bərpa olunan enerji mənbələri — Günəş, külək və su hövzələri haqqında müzakirələr olunmuş, ehtiyatları hesablanmış və günəş batareyaları, külək enerjisi və dağ çayları alternativ enerji mənbələri kimi istifadəyə yararlı hesab edilmişdir.

Azərbaycan Günəş enerjisindən istifadə üçün geniş imkanlara malikdir, xüsusilə də ölkənin cənub və cənub-şərq hissələri bu baxımdan əlverişlidir. Cənub bölgəsində günəşli günlərin sayının yüksək olması bu resursdan enerji istehsalı üçün ideal şərait yaradır. Şərqi Zəngəzur və Qarabağ bölgələrinin də Günəş enerjisi ehtiyatları yüksəkdir. İqlim şəraiti bu bölgələrdə günəş panellərinin səmərəli işləməsinə və iri Günəş elektrik stansiyalarının qurulmasına əlverişli şərait yaradır.

Külək enerjisi Azərbaycanın bərpa olunan enerji strategiyasının əsas komponentlərindən biridir. Xəzər dənizi sahilində, xüsusilə Abşeron yarımadasında və yaxın ərazilərdə küləyin gücü orta illik göstəricilərdən yüksək olur, bu isə külək enerjisinin alınmasına əlverişli şərait yaradır. Ənənəvi enerji mənbələrindən asılılığı azaltmaq üçün külək enerjisindən istifadə prioritet olaraq müəyyən edilmişdir.

Ölkəmiz uzun müddətdir ki, hidroenerji mənbələrindən istifadə edir, Hidroenerji ölkənin illik elektrik enerjisi istehsalının təqribən 10 faizini təşkil edir. Son illərdə bu sahədə müasir texnologiyaların tətbiqi ilə daha effektiv hasilat hədəflənir. Bölgədə yerləşən çaylar və su mənbələri, xüsusilə dağlıq ərazilərdə yerləşən çaylar, kiçik su elektrik stansiyalarının qurulması üçün əlverişlidir. Ölkənin şirin su ehtiyatlarının təxminən 25 faizi yaşıl enerji zonaları kimi müəyyən edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında cəmləşir. Bu potensial həmin ərazilərdə 2050-ci ilədək xalis sıfır hədəfinə çatmaq üçün xüsusi əhəmiyyətə malikdir. Azərbaycanın hidroenergetika infrastrukturunun tacı 424 MVt qoyuluş gücünə malik Mingəçevir Su Elektrik Stansiyası hesab olunur.

Ölkəmiz kənd təsərrüfatı sahəsi üzrə geniş imkanlara və doqquz iqlim qurşağına malik olduğu üçün bioenerji də vacib bir sahə hesab edilir. Kənd təsərrüfatı tullantılarının və digər bioresurslarının alternativ enerji mənbəyi kimi istehsalında, həm tullantıların istifadəsini, həm də enerji tələbatının qarşılanmasını təmin edir. Bioenerjinin istehsalı tullantıların təkrar istifadəsini və karbon qazı emissiyalarının azaldılmasını təmin edir, bu da yaşıl iqtisadiyyatın əsas istiqamətlərindən biridir.

Azərbaycan 2023-cü ilin fevralında Avropa Yenidənqurma və İnkişaf Bankının dəstəyi ilə aşağı karbonlu hidrogen istehsalını araşdırmağa başlayıb. Ölkə yaşıl hidrogen sektoru ilə bağlı planlarını həyata keçirmək üçün fəal surətdə çalışır. Beynəlxalq investorlarla imzalanan əməkdaşlıq müqavilələri ortamüddətli dövrdə 10 QVt-a yaxın bərpaolunan enerji güclərinin reallaşdırılmasına imkan yaradacaq ki, bu da öz növbəsində yaşıl hidrogen istehsalına töhfə verə bilər.

Azərbaycan dövləti təbii mühitdən və coğrafi şəraitdən istifadə edərək bərpa olunan enerji sahəsindəki imkanlardan tam istifadə etmək məqsədilə müxtəlif böyük layihələr həyata keçirir. Bu layihələr, ölkənin enerji təhlükəsizliyini gücləndirmək və ekoloji tarazlığı qorumaq üçün nəzərdə tutulmuşdur. Hazırda icra edilən əsas layihələrdən biri Qarabağ Yaşıl Enerji Zonası layihəsidir. Bu layihə, Azərbaycanın Qarabağ bölgəsində bərpa olunan enerji mənbələrindən istifadəyə yönəlmiş bir təşəbbüsdür və bölgənin yaşıl enerji mərkəzi kimi inkişaf etdirilməsini nəzərdə tutur. Ağıllı şəhər və ağıllı kənd layihələrinin həyata keçirilməsi innovativ texnologiyalar əsasında XXI əsrin tələblərinə uyğun olaraq 30 il qürbətdə yaşamış insanlara təmiz enerjinin təmin edilməsi məqsədilə həyata keçirilir.

2020-ci ildə 44 günlük müharibədən dərhal sonra Prezident İlham Əliyev Qarabağı və Şərqi Zəngəzuru, Naxçıvanı yaşıl enerji bölgəsi adlandırıb və bu istiqamətdə genişmiqyaslı işlərə başlanılıb. Azərbaycanın bütün bölgələrində, eləcə də işğaldan azad edilmiş Kəlbəcər və Ağdərə rayonlarında geotermal və Günəş enerjisi ehtiyatları, Laçın, Qubadlı və Zəngilan rayonlarında hidroenerji mənbələri, Şuşa, Xocavənd və Cəbrayıl rayonlarında külək enerjisi, Tərtər, Ağdam, Xocalı rayonlarında bioenerji ehtiyatlarının səmərəli istifadə edilməsi nəticəsində ölkəmizin ümumilikdə "Yaşıl enerji" istehsalçısına və istehlakçısına çevrilə bilər.

Ölkə Prezidentinin fərman və sərəncamları əsasında görülən işlərə və qarşıya qoyulan məqsədlərə nəzər saldıqda qarşımızda yüksək nəticələr əldə edən bir ölkə görürük, bu ölkənin yaşıl enerji iqtisadiyyatına verdiyi önəmi öz fəaliyyəti ilə sübut edir. İqtisadi cəhətdən dayanıqlı, təmiz və sağlam gələcəyə keçid ən aktual çağırışlardan biri olmaqla gələcək nəsil üçün qarşımızda duran böyük məsuliyyətdir və COP29.da həyata keçirilən layihələr bu məqsədləri daşıyır.

Dünyada ətraf mühitin çirklənməsi, azalan təbii ehtiyatlar və artan tələbat fonunda dayanıqlı inkişafa nail olmaq üçün ölkə Prezidenti cənab İlham Əliyev "Yaşıl dünya naminə" layihəsi də bu məqsədlə həyata keçirilir.

Azərbaycanda "yaşıl" iqtisadiyyata keçidin ən mühüm layihələrindən biri də müasir iqtisadiyyatın vacib elementlərindən olan texnoparkların yaradılmasıdır. Texnoparkların inkişafı elmtutumlu istehsalata dayaq olur və ağıllı kəndlərin yaranmasına səbəb olar, qabaqcıl texnologiyaların tətbiqində texnoparklar mühüm rol oynayar.

"Yaşıl" iqtisadiyyatın tətbiqi ətraf mühitin təmizliyini təmin edəcək, bu da insanların sağlamlığını yaxşılaşdıracaq. Təhsil sahəsində yaşıl iqtisadiyyata uyğun olaraq Gəncə Bölməsində yeni layihələr hazırlanır. Bu layihələr gələcək nəsillərin ekoloji biliklərini artırmağa və orta məktəb şagirdlərinin yaşıl dünyamızı düzgün başa düşməyə imkan yaradacaq.

"Yaşıl" iqtisadiyyat, həmçinin insanların iqtisadi fəaliyyətlərə cəlb olunmasını dəstəkləyəcək, ölkənin qlobal platformalarda lider mövqeyə yüksəlməsinə şərait yaradacaq. Bu sahədə əldə edilən nailiyyətlər Azərbaycanın beynəlxalq səviyyədə ekoloji nüfuzunu artıracaq, ölkənin qlobal ekoloji təşəbbüslərdə fəal rol oynamasına imkan verəcək və xarici investorların ölkəyə marağını artıracaq. Beynəlxalq əməkdaşlıq və xarici investisiyalar "yaşıl" iqtisadiyyatın inkişafına əlavə stimul verəcək, bu isə ölkəmizin iqtisadi inkişafını daha da sürətləndirəcək.

*Fuad ƏLİYEV,*
*akademik,*
*Sara ƏZİZOVA,*
*fəlsəfə doktoru*

**Yurdum-yuvam məskənimsən!**

> **Xankəndi qədim Azərbaycan diyarıdır. Bu kəndin təməli Qarabağ xanı tərəfindən qoyulmuşdur və ondan sonra Azərbaycan Respublikasının vəsaiti hesabına Azərbaycan memarları, inşaatçıları tərəfindən böyük şəhər yaradılmışdır.**
>
> ***İlham ƏLİYEV,***
> ***Azərbaycan Respublikasının Prezidenti***
>
> **Xankəndi şəhəri, 21 dekabr 2023-cü il**



# Xankəndi – Qarabağ xanının kəndi

## *XVIII əsrin sonu – XX əsrin əvvəllərində*





### Qarabağ xanlığının qurulması

Azərbaycan dövlətçiliyi tarixində xüsusi yeri olan Qarabağ xanlığını (1747–1822) Əfşarlar imperiyasının süqutundan sonra, bu dövlətin mövcudluğu dövründə hərbi şücaəti ilə ad-san qazanmış, əslən Qarabağın Sarıcalı oymağından olan Pənahəli bəy Cavanşir yaratmışdır. Xanlığın hökmdarı kimi o, müstəqil dövlətin təşəkkülü üçün zəruri tədbirlər həyata keçirmiş, böyük quruculuq işləri görmüşdür.

İlk belə quruculuq nümunəsi 1748-ci ildə Bayat qalasının (indiki Ağcabədi rayonunun ərazisindədir) inşa olunmasıdır. Az sonra Pənahəli xan özünün yeni inzibati mərkəzinin – Şahbulaq qalasının (indiki Ağdam rayonunun ərazisindədir) tikintisini başa çatdırmış və xanlığı burdan idarə etməyə başlamışdır.

Daim düşmən hücumlarına məruz qalan xanlığa daha təhlükəsiz və coğrafi cəhətdən əlverişli yerdə mərkəz – paytaxt inşa etdirmək üçün o, 1750-ci ildə indiki Şuşa şəhərinin yerləşdiyi hündür, dağlıq ərazini seçərək burda genişmiqyaslı tikinti-quruculuq işləri aparmışdır. Etibarlı müdafiə istehkamları ilə əhatə olunan və el arasında ilk vaxtlar "Pənahabad" adlandırılan qala-şəhər xanlığın paytaxtı kimi qısa müddətdə sürətlə inkişaf etmişdir.

Pənahəli xan öz iqamətgahını və dövlət idarələrini yeni paytaxta köçürməklə xarici təhlükələrin qarşısını müəyyən qədər ala bildi. Üzücü və dağıdıcı müharibələrə son qoymağa çalışan, sonrakı həyatını yalnız Qarabağın müdafiəsinə, mədəniyyətinə, iqtisadi inkişafına, siyasi yüksəlişinə həsr etmək istəyən bu qurucu və yaradıcı hökmdar qala ətrafında yeni yaşayış məntəqələri salmağı da qərarlaşdırdı. Hələ paytaxt üçün ərazi axtarışında olarkən Pənahəli xan Qarqar çayının sol, qərb sahilində, yaşıl meşələrin əhatəsində çox səfalı və mənzərəli bir yerə rast gəlmişdi.

Bu ərazinin münasib və əlverişli yaşayış məntəqəsi ola biləcəyi qənaətinə gələn xan Pənahabad qalasını hərtərəfli möhkəmləndirdikdən sonra əhalinin bir qismini burda məskunlaşdırmaq niyyətində idi. Lakin o, sonuncu hərbi səfəri zamanı, 1763-cü ildə Şiraz şəhərində (indiki İran ərazisindədir) qətlə yetirildi və bu istəyini həyata keçirə bilmədi. Onun nəşi İrandan gətirilərək Qarabağda, indiki Ağdam şəhəri ərazisindəki "İmarət" adlandırılan yerdə dəfn edildi. (Hazırda burda Qarabağ xanlarının məqbərə kompleksi mövcuddur).

Pənahəli xanın böyük oğlu İbrahimxəlil xan Cavanşir (1721–1806) girov saxlanıldığı İranda azad edilərək vətənə döndü. Xanlıq idarəçiliyini əlinə aldıqdan dərhal sonra o, atasının yarımçıq qalmış işlərini başa çatdırmağa, onun siyasətini həyata keçirməyə, vəsiyyətlərini yerinə yetirməyə başladı.

### Xan kəndinin salınması və inkişafı

İbrahimxəlil xan da atası kimi bərk at həvəskarı idi. Onun ilxılarında atların sayı dörd minə çatırdı. Deyildiyinə görə, Pənahəli xan Cavanşir İran hökmdarı Nadir şah Əfşarın atlarının cinsindən olan bu ilxıları hərbi səfərləri zamanı Şahsevən, Şəqaqi, Xorasan ellərindən yığıb Qarabağa gətirmişdi. Qızılı rəngli bu cins ayğırlar öz gözəlliyi, dözümlülüyü, yüngüllüyü və sürəti ilə müxtəlif at cinsləri arasında seçilirdilər. İbrahimxəlil xan şöhrəti Cənubi Qafqazın hüdudlarından uzaqlara da yayılmış əla cinsli at ilxıları ilə fəxr edirdi, onları özünün ən qiymətli zinəti, mal-dövləti sanırdı.

Bu atlar həm əla yük nəqliyyatı vasitəsi, həm də müharibə zamanı döyüşçülərin daimi köməkçiləri idilər. İngilislər Qarabağ atlarını öz süvari qoşunları üçün məmnuniyyətlə alırdılar. Heç də təsadüfi deyildi ki, xanlıqda cins atların artırılması üçün ayrıca təsərrüfat sahələri yaradılmışdı. Üstəlik də, xanın özünəməxsus cins atları, 400 baş balalayan madyanı, saysız-hesabsız qatır ilxıları, qoyun sürüləri, iribuynuzlu və xırdabuynuzlu sağmal mal-qarası vardı. Bütün bunlar da xanlığın keçmiş paytaxtı Şahbulaq qalasının ətrafındakı ərazilərdə saxlanılırdı.

İbrahimxəlil xan 1780-ci illərdən etibarən bütün bu daşınar əmlakını gətirib, Qarqar çayının hər iki sahilində yerləşdirdi, xidmətçiləri, malabaxanları, bağbanları ailəlikcə burda məskunlaşdırdı. İllər ötdükcə bu kiçik yaşayış məntəqəsi böyüyüb iri bir kənd halına düşdü və el arasında "İbrahimxəlil xanın kəndi", yaxud qısaca "Xankəndi" adlandırılmağa başlandı.

Xankəndi İbrahimxəlil xan Cavanşirin şəxsi iqamətgahı oldu. O, burada gözəl imarətlər, yaşayış evləri və müxtəlif təyinatlı inzibati binalar – karvansaralar, dəyirmanlar, tövlələr, buzxana, cəbbəxana və sair tikdirdi, Qarqar çayından arxlar çəkdirdi. Xankəndidə bütün Cənubi Qafqazda, hətta İranda və Türkiyədə çox məşhur olan zorxana da inşa olundu. İbrahimxəlil xan çox zaman asudə vaxtlarını burada keçirirdi. Ümumiyyətlə, müxtəlif əyləncələr, idman yarışları, xüsusən, pəhləvan güləşləri, ovçuluq onu daha çox cəlb edirdi.

Həvəskar ovçu kimi tanınan İbrahimxəlil xan tez-tez Xankəndi meşələrində ceyran, cüyür ovuna çıxırdı. Bəzən qırx-altmış başdan ibarət ceyran sürüsünün arxasınca düşür və onlardan bir neçəsini ovlamayınca geri qayıtmırdı. Dəriləri xalça-palazı əvəz edən bu heyvanların ətindən isə xan mətbəxində ləziz xörəklər bişirmək üçün istifadə edilirdi.

Qarabağ silsiləsinin şərq ətəyində yerləşən Xankəndinin şimal-qərb hissəsində meşələr, yuxarı tərəfində gözəl alp düzənlikləri, eyni zamanda, təbii yaylaq-otlaq sahələri uzanıb gedirdi. Təbii sərvətləri isə ilk növbədə, onun ab-havası, altı-üstü "qızıl olan" torpağı, çayları, bulaqları, meşələri idi. Bu yerlərin son dərəcə əlverişli təbii coğrafi şəraiti burda həm əkinçiliyin, həm də heyvandarlığın inkişafına mühüm şərait yaradırdı.

Xankəndinin torpağı çox mənfəətli və bərəkətli idi. İbrahimxəlil xan burda ipəkçilik, bağçılıq, bostançılıq və kənd təsərrüfatının müxtəlif sahələrini inkişaf etdirirdi.

Alp çəmənliklərinin çox gözəl gül-çiçəkləri və dağətəyi yerləri, çöl bitki aləminin zənginliyi, şirin sulu bulaqları, iqliminin isti olması, çay ətrafında yerləşməsi Xankəndidə arıçılığın da inkişafı üçün lazımi zəmin yaratmışdı. Burada 5 mindən çox bal arısı ailəsi saxlanılırdı.

XVIII əsrin 90-cı illərində Qarabağ torpağı yenə də bir-birindən şiddətli, dağıdıcı, viranedici basqınlara məruz qaldı. İran hökmdarı Ağa Məhəmməd Şah Qacarın bu əraziyə hərbi yürüşləri, xüsusilə də, 1795-ci ilin yayındakı hücumu qarabağlılar üçün daha fəlakətli nəticələrə səbəb oldu. İran qoşunları hər yeri viran qoydu, xarabazarlığa çevirdi. Qarabağın kəndləri tamamilə boşaldı, xanlıq həm siyasi, həm də iqtisadi böhrana düşdü.

Bu fəlakətlər Xankəndidən də yan keçmədi. İgid və cəsur xankəndli gənclər də silaha sarılıb, düşmənin qarşısını kəsərək Qarqar çayı sahillərindən Şuşa qalasına qədər uzanan yollar boyunca düşmənə müqavimət göstərir, İran ordusuna ziyan vururdular. Onlar Qacar qoşunları üçün Arazın o tayından gələn ərzaq mallarının düşmənə çatdırılmasına imkan vermir, onları azuqəsiz qoyurdular. Bununla xankəndlilər də müharibəni udmaq üçün əllərindən gələni edirdilər.

Şuşa qalasının mühasirəsindən əl çəkmək məcburiyyətində qalan Ağa Məhəmməd Şahın qarətçi qoşunu Malıbəylini, Ağdamı və vaxtilə əhalisini Pənahəli xanın Borçalıdan və Qazax mahalından bu əraziyə gətirib məskunlaşdırdığı bir çox iri yaşayış məntəqələri ilə yanaşı, Xankəndini də odlara qaladı, yüz min başdan çox mal-qaranı, qoyun sürülərini Qarabağdan Arazın o tayına apardı. Lakin İbrahimxəlil xanın ilxılarına əlləri çatmadı. Xanın qoçaq mehtərləri igidlik göstərərək iranlıların əllərinə keçməsin deyə, at ilxılarını Xankəndidən əlçatmaz yerlərə, Qırxqız dağlarına çıxarmışdılar.

Qarqar çayının o tay-bu tayındakı bərəkətli torpaq sahələrində dənli bitkilər, üzüm, geniş meyvə bağları, ipəkçiliyi inkişaf etdirmək üçün çoxlu tut (çəkil) bağları salınmışdı. Xanın şəxsən özünə məxsus, uzunluğu kilometrlərlə ölçülən 26 tut bağı vardı. Bu təsərrüfat sahələrinin hamısı Qarqar çayından çəkilən arxların suyu ilə suvarılırdı. Onların gəliri ilə beş-altı min rəiyyət ailəsi asudə yaşaya bilirdi.

Xankəndini qiymətli ağac növləri ilə zəngin olan sıx və qalın meşə zolağı əhatə eləyirdi. Bu meşələrdən daha çox yanacaq və tikinti məqsədilə istifadə olunurdu.

Qırxqız dağının ətəklərindən başlayan və Qarqar çayının sağ sahilində geniş bir sahəni tutan, bütün fəsillərdə yaşıl donunu əynindən çıxarmayan meşələr bu yerlərə həyat verirdi.

Hər il müsəlman bayramlarında, xüsusilə, Novruz bayramı günlərində İbrahimxəlil xan qoşununun adlı-sanlı sərkərdələrini, mahal başçılarını, döyüşlərdə fərqlənənləri Xan kəndindəki iqamətgahına dəvət edir, onları xələtlə, ənamla, qılıncla və sairlə mükafatlandırır, ən yaxşı atlarını sevimli adamlarına bağışlayırdı. Xan eyni zamanda Qarabağa gələn hörmətli və nüfuzlu qonaqlarını da burdakı iqamətgahında qarşılayırdı.

### Savaş meydanı

Ağa Məhəmməd şah Qacar Qarabağı tərk eləyib, Tiflis üzərinə hücuma hazırlaşarkən yol üstündə gözə görünən bütün yaşayış məntəqələrini yandırıb, külə döndərdi. Qarabağ quru bir səhraya çevrildi. Bu diyar bir müddət ayağa dura, dirçələ, özünə gələ bilmədi. Xankəndinin əhalisi də pərən-pərən düşdü, baş götürərək qürbət ellərə üz tutdu, Türkiyəyə, İrana, Gürcüstana, Gəncəyə, Şirvana və başqa yerlərə səpələndi. Qarabağın əhalisi 300 min nəfərdən 40 minə düşdü. Xankəndinin də əhalisi xeyli azaldı.

İbrahimxəlil xan Ağa Məhəmməd şah Qacarın iki dəfə viranedici və talançı yürüşündən sonra, 1797–1804-cü illər arasındakı dinc quruculuq dövründə oğlanları Məhəmmədhəsən ağa və Mehdiqulu ağa ilə əl-ələ verərək xanlığın daxili işləri ilə – dağıdılmış təsərrüfatının bərpası, iqtisadi həyatının dirçəldilməsi, əhalinin maddi durumunun yaxşılaşdırılması ilə məşğul olmağa başladı. Xankəndidə də həyat tədricən öz axarına düşdü. Didərgin salınmış əhali öz yurduna qayıtdı.

### Xanlığın qara günləri

XIX əsrin əvvəllərində Qarabağ xanlığının siyasi həyatında böyük hadisələrdən biri baş verdi. 1805-ci il mayın 14-də Rusiya dövləti ilə Qarabağ xanlığı arasında məşhur Kürəkçay müqaviləsi bağlandı. İbrahimxəlil xanın general Sisianovla görüşü zamanı varislik və vəliəhdlik adı onun böyük oğlu Məhəmmədhəsən ağanın adına yazıldı. Lakin o, atasının sağlığında öldüyündən bu adlar xanın qərarı ilə Mehdiqulu ağaya verildi. İbrahimxəlil xan Rusiya imperatoru I Aleksandra məktub yazıb, heç bir tərəddüd etmədən Mehdiqulu ağanı özünün varisi və vəliəhdi təsdiq etdirdi. 1806-cı il fevralın 24-də bu barədə sənəd imzalandı və həmin gündən etibarən xanlığı Mehdiqulu ağa idarə etməyə başladı.

Artıq qocalmış İbrahimxəlil xan xanlığı idarə etmək iqtidarında olmadığından hüquqlarının bir hissəsi ilə yanaşı, öz tərəfdarlarına, qohumlarına, yaxın adamlarına, inam və hörmət dərəcəsindən asılı olaraq, ömürlük istifadə üçün, yaxud da irsi mülkiyyət kimi torpaq, kəndlər, yurd yerləri, hətta bütöv mahallar da bağışladı. Xankəndini isə bir neçə kəndlə bərabər Mehdiqulu xana irsən verdi.

Kürəkçay müqaviləsi bağlanıldığı dövrdə Xankəndidən keçməklə Şuşadan Gəncəyə və Şəkiyə yollar gedirdi. Amma yerin dağlıq şəraiti gediş-gəlişi çətinləşdirdiyinə görə, müqavilənin beşinci maddəsinə əsasən, yolların təmiri nəzərdə tutulmuşdu və az müddətdə təmir olunmuşdu. Həm də Rusiya imperator ordusunun mayoru İvan Lisaneviçin başçılığı ilə 500 nəfərlik bir jeger dəstəsi öz topxanası ilə Xankəndidə yerləşdirildi və bundan sonra xankəndililərin qara günləri başlandı.

Sonralar Xankəndini Mehdiqulu xan arvadı Bədircahan bəyimə bağışladı və bu torpaq ondan da qızı Xurşudbanu bəyimin mülkiyyətinə keçdi. 1822-ci ildə Mehdiqulu xan və Bədircahan bəyim İrana mühacirət edərkən Xankəndi çar Rusiyasının dövlət xəzinəsinə verildi. Bundan sonra yerli əhalinin əksəriyyəti öz yurdundan didərgin düşdü. Həqiqi mülkü müşavir Mogilyevski və polkovnik Yermolov tərəfindən 1823-cü ildə tərtib olunmuş "Qarabağ əyalətinin təsviri" adlı rəsmi hesabatda Xankəndidə cəmi 40 ev olduğu göstərilirdi.

1827-ci ildə Mehdiqulu xan mühacirətdən qayıdandan sonra dədə-baba yurdu olan Xankəndi özünə qaytarıldı. Lakin xanlığın idarəetmə hüququ onun əlindən alındı. Yalnız torpaqlarını formal olaraq idarəetmə hüququ saxlanmaqla Mehdiqulu xan ömrünün sonunadək dinc şəraitdə öz mülklərini və təsərrüfatlarını idarə etməklə məşğul oldu.

1826-cı ilin yayında ikinci Rusiya-İran müharibəsi başlanarkən şahzadə Abbas Mirzənin komandanlığı altında 60 minlik qızılbaş qoşunu Qarabağın sərhədlərini aşıb, iyulun 26-da Şuşanı mühasirəyə aldı. Gəncə və İrəvana gedən yollar bağlandı. Qarabağın dincliyi yenidən pozuldu və diyar yenə də müharibə meydanına çevrildi. Xankəndi və ətrafındakı yaşayış məntəqələri işğal olundu.

Abbas Mirzə öz düşərgəsini mühüm strateji mövqeyə malik olan Xankəndidə saldı. O, müşavirələrini burda keçirir, hərbi əməliyyat planlarını burda cızırdı. İran şahzadəsi dəfələrlə Şuşaya hücum eləsə də, qalanı tuta bilmədi, 48 gün mühasirədə saxladı, yenə istədiyi nəticəni ala bilmədi. Ona görə də Şuşanın mühasirəsindən əl çəkərək Qarabağı tərk elədi. Gedərkən Xankəndini də talan edib, yandırdı. Özündən sonra Xankəndidə xoşagəlməz izlər qoyub getdi.

Mehdiqulu xan dağıdılmış və viran edilmiş Xankəndini yenidən bərpa etdirib, dirçəltdi. Lakin 1828-ci ildə bağlanmış Türkmənçay sülh müqaviləsi Kürəkçay (1805) və Gülüstan (1813) müqavilələrindən dəfələrlə bədnam, həqarətli, alçaldıcı və rüsvayçı oldu. Bu müqavilədə Qarabağın beynəlxalq mövqeyi qorunmadı və onun hüquqları ayaqlar altına atıldı. Bura digər millətlərin nümayəndələrinin köçürülməsi milli tərkibin dəyişməsinə səbəb oldu. Qarabağ bir müddət rus hərbi komendantlığı tərəfindən idarə olundu. Şuşa qalasının köməkçi hərbi və təsərrüfat qəsəbəsi olan Xankəndi də bu idarəçiliyə tabe idi.

### Xankəndi – ordugah

Çar hökumət orqanları Xankəndinin strateji cəhətdən mövqeyini, əhəmiyyətini və perspektivini nəzərə alaraq 1847-ci ildə Aşağı Xan bağında yerləşdirilmiş 16-cı Qrenadyor Minqrel polkunu Xankəndinə köçürdülər. Burda hərbi şəhərcik salındı, kazarmalar, xəstəxana, qospital, digər inzibati binalar, hərbi kontingenti ərzaq məhsulları ilə təmin etmək və saxlamaq üçün iri anbar, böyük buzxana tikildi. Polkun hərbi qərargahı – ştabı ikimərtəbəli bir binada yerləşdirildi. Yerli əhalinin Xan kəndini "Ştab" adlandırması da bununla əlaqədar idi. 1864-cü ildə Xan kəndində hərbi yunker məktəbi fəaliyyətə başladı. Məktəbdə azərbaycanlı bəylərin övladları da təhsil alırdılar.

Sonralar Şuşada tərcüməçi və hüquqşünas işləmiş şair Mirzə Ələsgər Növrəs, rus ordusunun polkovnikləri Məmməd bəy Əhmədbəyov, Rüstəm bəy Mirzəyev, uzun illər məhkəmə pristavı olmuş Hüseynəli bəy Cavanşir, Şükür bəy və İbiş bəy Cavanşirlər, digər azərbaycanlılar bu hərbi məktəbdə təhsil almışdılar.

XIX əsrin sonu – XX əsrin əvvəllərində Xan kəndində ikisinifli məktəbin, xəstəxananın, bir çox sənaye müəssisələrinin, iaşə-məişət obyektlərinin açılması və s. bu kiçik yaşayış məntəqəsini şəhər tipli qəsəbəyə çevirdi.

1918–1920-ci illərdə Azərbaycan Milli Ordusu Xankəndini daşnaklardan təmizləyib, hərbi hissələrini burda yerləşdirdi. Azərbaycanda sovet hakimiyyəti qurulandan az sonra, 1923-cü il iyul ayının 7-də gələcəkdə separatizm yuvasına çeviriləcək "Dağlıq Qarabağ muxtar vilayəti" yaradıldı və Xankəndi qəsəbəsi onun mərkəzi elan edildi və həmin vaxtdan bu yaşayış məntəqəsi Azərbaycanda bolşevik-daşnak dəstələrinin rəhbərlərindən olan Stepan Şaumyanın "şərəfi"nə Stepanakert adlandırıldı və şəhər statusu aldı. 1991-ci ildə isə Azərbaycan SSR Ali Sovetinin qərarı ilə şəhərin əvvəlki adı bərpa edildi və Xankəndi oldu.

2023-cü ilin sentyabr ayından Xankəndi şəhərində Azərbaycan Respublikasının dövlət orqanlarının fəaliyyəti bərpa edilmişdir.

***Vasif QULİYEV,***
***"Şuşa" qəzetinin redaktoru***

**Canəli Əkbərov – 85**

# Muğamın aşiqi-sadiqi

**Milli teatr günündə anadan olmuş, ömrünün yarısını Opera və Balet Teatrında çalışmış Xalq artisti, "Şöhrət", "Şərəf", 1-ci dərəcəli "Əmək" ordenli, "Sənətkar" medallı xanəndə Canəli Əkbərovu bizdən 3 il yarıma qədər zaman məsafəsi ayırır. Amma o, parlaq ifaları ilə videolarda və həzin xatirələrdə yaşayaraq, yenə də könüllərimizi oxşayır.**



Filarmoniyaya da, möhtəşəm Opera Teatrına da müsabiqələr yolu ilə qalib gələrək, solist kimi qəbul edilib. Gözəl səsi onu heç kimə minnətçi salmayıb. Xanəndə Opera Teatrının səhnəsində Məcnun və İbn-Səlam ("Leyli və Məcnun"), Şah İsmayıl "Şah İsmayıl"), Aşıq Qərib ("Aşıq Qərib") kimi yaddaqalan obrazlar yaradıb. Canəli Əkbərov xarici ölkələrdə – Almaniyada, Malidə, Avstriyada və s. ölkələrdə dəfələrlə qastrol səfərlərində olub. İfa etdiyi bütün muğamlar dəsgahlar vallara və disklərə yazılıb. Canəli Əkbərov Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində "Muğam sənəti" kafedrasının müdiri vəzifəsində çalışıb, gənc xanəndələr nəslini yetişdirib.

O oxuyanda səsin rənglərini görürük. Zilə qalxanda qatı boyanmış tünd rəngləri, bəmə enib avazıyanda duyğuları saflaşdıran açıq rəngləri. 1978-ci ildə Səmərqənd simpoziumunda, 1989-cu ildə İsveç beynəlxalq festivalında qalib gəlmiş Canəli öz səsi ilə bu rəngləri dünyaya göstərib. Onun "Rast"ı, "Bayatı Şiraz"ı, "Mirzə Hüseyn"i, "Mahur"u, "Şur"u... hələ də aləmə səs salmaqdadır.

"Leyli və Məcnun"la öz simasını yaradan böyük Füzulinin söz dünyasıyla avazımı zənginləşdirmişəm. Dahi Üzeyirin musiqi aləmi hər dəfə yenidir mənim üçün. Ordakı musiqinin, şeiriyyətin əsiriyəm. "Aşiq oldur ki, qılır canın fəda cananına" – deyibən Leyli-Məcnun üçün can verən aşiqlərdənəm. Atamı (Xanəli Əkbərovu) ustad kimi dinləmiş, öyrənmiş, onun muğamları üstündə pərvazlanmışam. Sənət qibləgahım Xan əminin nəsihətləri, ustad tövsiyələri həmişə sənət yolumu işıqlandırıb. Təsadüfi deyil ki, bu gün dünyanı dolaşan üçlüyümüz qibləgahım Xan Şuşinskinin adını daşıyır. Sənət nəhəngi Seyid Şuşinskini, müəllimim Nəriman Əliyevi də, səsinin yanğısında yanıb külə dönən unudulmaz Leylim – Rübabə Muradovanı da həmişə məhəbbətlə anıram. Vaxtilə məni işə götürən dahi sənətkarımız, həmişə yeri görünən maestro Niyazinin, məni ilk dəfə Məcnuna hazırlayan və oynadığım Məcnunu məhz mənim ifamda görmək istədiyi kimi görən professor Mehdi Məmmədovun da ruhuna rəhmət diləyirəm" – deyib Canəli Əkbərov.

Milli teatrımızın 152-ci ilində bunu da xatırlamaq yerinə düşər ki, Opera Teatrında İlyas Əfəndiyevin yubileyi münasibətilə onun "Apardı sellər Saranı" hekayəsi səhnələşdirilmişdi. Canəli Əkbərov məşhur xalq mahnısını iki dəfə zil səslə oxuyub. Ertəsi gün səhər unudulmaz İlyas müəllim ona zəng vuraraq deyib: "Sənin səsin əsl xalq səsidir, el harayıdır. Sənin səsinin fövqündə dünən bütün Qarabağı qarış-qarış gəzib dolandım". Mərhum Xalq şairimiz Nəbi Xəzri, Rus musiqi nəzəriyyəçisi Vladimir Zak, alman professor Yurgen Elstner və başqaları da onun istedadına heyranlıqlarını ifadə ediblər.

Operada duruş gətirmək, eyni səsi saxlamaq çox çətindir. Əvvəlki şövqlə Məcnun, Şah İsmayıl oynayan Canəli Əkbərov üçün muğamda əlçatmaz zirvə olmayıb. Xalq artisti Əlibaba Məmmədov deyib ki, əsrin əvvəlində Məcnun adı Sarabski ilə bağlanırdısa, əsrin sonunda bu ad Canəli Əkbərovun adı ilə sevilib. Qəribi, Kərəmi də... özünəməxsus ifa edib. Şaqraq şəlalə səsi tamaşaçıların, dinləyicilərin yaddaşında yaşayır. O, "Sevil"də azançını oynayanda dahi Fikrət Əmirov operaya baxandan sonra: – Mən axtardığımı tapdım, – deyib.

Hacı Canəlinin yüksək diapazonunda Şah İsmayıl insanda şahanəlik yaradıb, Məcnun isə fədakarlıq. O, illər uzunu operanın Şahı, sənəti, sevgisi yolunda canından keçən Məcnunu olub. Səs dünyasındakı zənginliklə, çılğınlıqla, oynaqlıqla, şaqraqlıqla muğama öz xallarını, öz güllərini vurmaqla tufan qoparmağı bacaran sənətkar idi.

Dərs dediyi auditoriyalarda dəfələrlə iştirak edib tələbə-müəllim münasibətlərinin şahidi olmuşam. Bütün ifaları, söhbətləri bu günə kimi yadımdadır. "Bizim bu muğam notlarının görünüşü yoxdur. Yalnız qavramaqla yadda saxlamaq olar. Muğamın yazısı yox, pozusu yox. Avazla öyrənmək lazımdır" – belə öyrədirdi tələbələrini Canəli müəllim. Beləcə, sait-sait, səs-səs agah edirdi muğamın sirlərini. "Zənguləyə gülləri belə vur, xalları belə. Burda nəfəs al-malısan ki, gücün olsun zilə qalxmağa. Var söz cümləsi, var səs, avaz cümləsi" – deyərək səsinin avazıyla sözsüz cümlələr yaradırdı. Mübtədası da, xəbəri də yerli-yerində. Səmimi, insani tələbə-müəllim rabitəsi yaradırdı auditoriyada.

...Hələ də 1999-cu ilin 25 avqustunda Lənkəranda çalınan toyun təəssüratı ilə yaşayıram. Həmin axşam Canəli Əkbərovun muğamları ilə süslənən avazından daşlar da, divarlar da dincəlirdi. İndi haqq dünyasında olan qardaşım Yusifin toyunu deyirəm. Xahişimizi yerə salmayan Canəli müəllim Bakıdan Lənkərana o toya gəlmişdi. Zilə elə qalxdı ki, ürəyim döyündü: "Ay aman, neylədi, bəmə necə enəcək? – deyə düşündüm. Amma böyük səhnələrdə şahidi olduğum kimi, yenə də yanıldım. Vəfalı səs hansı çılğınlıqla, şaqraqlıqla zilə, zirvəyə qalxmışdısa, eyni ahənglə burula-burula axıb öz məcrasına düşdü. Qonaqlar ilk dəfə idi, belə muğam axşamlı toyun sehrinə düşürdü. Allah, Allah! Nə boya idi, nə xallar idi səsə vurduğu!.. Canəli Əkbərov o toyda düz 5 saat oxudu. Nə özü yoruldu, nə dinləyənlər doydu. Bulaq suyu kimi tər-təmiz səs və şirin nəfəsdən "Ay qəşəng ceyran", "Narı-Narı" süzüldü, "Çahargah" üsyanı qələbəyə harayladı, "Segah" əsəbləri sığalladı, "Heyratı" heyrət abidəsi oldu.

Ölməz səsli sənətkar Canəli Əkbərov 2021-ci il oktyabr ayının 22-də dünyasını dəyişib. Müəllimi və mənəvi atası olan dahi Xan Şuşinskinin uyuduğu II Fəxri xiyabanda dəfn edilib. On illər, yüz illər keçsə də, onun yaddaşlarda qoyduğu iz silinməyəcək. Biz "Söz" jurnalı olaraq Xanəndənin 85 illiyinə həyat və sənət yolundan bəhs edən kitab hazırlayırıq. Elə bu qeydlərimiz də həmin kitabın qısa bir hissəsi idi.

***Sevda ƏLİBƏYLİ,***
***"Söz" jurnalının baş redaktoru***

**Qəmər Almaszadə – 110**

# Şərqin ilk balerinası

**Müsəlman Şərqinin ilk balerinası - ahəngdar elementləri ustalıqla icra etməsi və plastikası ilə tanınmış ünlü xoreoqraf, SSRİ xalq artisti Qəmər Almaszadə incəsənətin bu sahəsində parlayan şəmsi-qəmərimiz olub.**



Qəmər Almaszadə 10 mart 1915-ci ildə Bakıda ayaqqabı taciri Hacıağanın ailəsində anadan olub. Gələcəyin baletmeysterini sənətə uşaqlıqda bu rəqs növü ilə məşğul olan rəfiqəsi Şura həvəsləndirib. Mühafizəkar müsəlman atasından gizli olaraq özəl balet studiyasına gedib.

Həmin vaxt orada məşğələlərin qiyməti 7 rubl imiş, Qəmərin isə 6 rublu olub. O, pedaqoqa deyib ki, mənim pulum bu qədərdir. Xanım müəllim isə çox təəccüblənib ki, azərbaycanlı, müsəlman qız balet öyrənmək istəyir. Deyib, buyur, 6 rubla gəl. Qəmərin həkim olan anası Məryəm xanım isə Hacıağanı aldadıb ki, qızı guya idmanla məşğul olur.

Qəmər xoreoqrafiya məktəbini bitirəndən sonra Azərbaycan Dövlər Opera və Balet Teatrında işləməyə başlayıb və populyarlaşıb. Sayı artan pərəstişkarları onu elə hey



gül-çiçəyə qərq ediblər. Amma bəzi "qeyrət dağarcıqları" buna pis baxıblar. Hətta bir dəfə Qəməri öldürmək də istəyiblər və xoşbəxtlikdən ona atılan güllə ayaqqabısının dabanına (kabluka) dəyib. Beləliklə, Məryəm xanımın Hacıağa kişiyə dediyi yalan üzə çıxıb. Mömin ata əvvəlcə qəzəblənsə də, sonra daha bir söz deməyib və arabir teatra gizlicə gedərək qızının ifalarına baxıb, fərəhlənib.

Balerinanın onu "mənim sarışınım" deyə çağıran atası ilə bağlı xatirələrindən: "Bir gün çəkməçi Hacıağa heç vaxt üz tutmadığı teatra getməyə hazırlaşır, ən axırıncı sıraya bilet alır. Bizim bilet yoxlayan qızlar bu haqda mənə deyəndə, qorxdum ki, o səhnəyə cumacaq və dəhşətli qalmaqal yaradacaq. Amma yox, o, bütün tamaşaya baxdı. Qəhrəman Gülyanaq, daha doğrusu, mən qalanın başından dənizə atılanda, o elə hönkürüb ki, qonşularımız bunun səhnə oyunu olduğunu söyləyərək, onu sakitləşdirməyə başlayıblar. Bunu öyrənəndə, tamaşadan sonra evə getməyə qorxurdum. Amma ayağımı evin kandarına qoyanda atam yaxınlaşıb məni qucaqladı: "Sən necə də gözəl artistsən!"

O vaxtlar hələ Azərbaycanda balet çox inkişaf etməmişdi, Qəmər isə öz təcrübə və bacarığını daha da inkişaf etdirmək istəyirdi. Amma atası onu təkbaşına harasa getməyə qoymurdu. Bir gün konservatoriyanın tələbəsi, gələcək bəstəkar Əfrasiyab Bədəlbəyli qızı evə ötürəndə onlar Hacıağa kişi ilə qarşılaşırlar. Qəmər utanıb pis vəziyyətdə qalır. Tündməcaz ata isə Əfrasiyabın qarşısında məsələni qəti qoyur. Onun valideynləri elçi düşüb Qəməri nişanlayırlar. Bundan sonra o, həyat yoldaşı bəstəkar Əfrasiyab Bədəlbəyli ilə birlikdə Rusiyaya təhsil almağa gedir, Leninqrad Xoreoqrafiya Məktəbinə daxil olur. Orada Qəmər bacısı Ədilə ilə məşhur balerina Qalina Ulanovanın anası Mariya Romanovanın sinfində oxuyurlar. Ədilə xəstəlikdən vəfat edir, o isə 1936-cı ildə ali məktəbi bitirib Bakıya qayıdır. İstedad, səbr və inadkarlıq Qəməri balet primasına (baş balerinaya) çevirir.

Sənətdə ilk ciddi addımı Reynhold Qlierin "Şahsənəm" operasında ikinci dərəcəli rolla atan gənc balerina daha sonra dövlət filarmoniyasının nəzdində mahnı və rəqs ansamblını yaradıb. Dahi Üzeyir Hacıbəylinin rəhbərliyi ilə Azərbaycan əyalətlərinə ezamiyyələrə gedərək, ilk mənbədən xalq rəqsləri haqqında məlumatlar toplayıb. Sonra Bakı Xoreoqrafiya Məktəbində ilk rəqs dərsini deyib, ardınca oranın direktoru olub. Əfrasiyab Bədəlbəylinin məxsusi olaraq onun üçün yazdığı "Qız Qalası" adlı ilk Şərq baletinə özü həm tərtibat verib, həm də bu əsərdə yüksək peşəkarlıqla çıxış edib. Üzeyir bəyin "Koroğlu" operasında əsas rəqs nömrələrindən biri məhz Qəmər Almaszadənin ifasında sərgilənib.

Yeri gəlmişkən, Üzeyir Hacıbəyli "Qız qalası"nda Gülyanağın ilk ifaçısı, balerina Qəmər Almaszadənin çıxışını çox yüksək dəyərləndirmişdi. Moskvada çıxan "Pravda" qəzetində bu barədə yazmışdı: "İstedadlı balerina Q.Almaszadə ayrıca vurğulanmalıdır. Öz ifasında o, xoreoqrafiya sənətinin çağdaş texnikası ilə xalq rəqsini yaradıcı şəkildə birləşdirə bilmişdir. Onun yaratdığı Gülyanaq surəti inandırıcılığı, dolğunluğu, bütövlüyü ilə seçilir və uzaq keçmişdən xatirə kimi görünən "azərbaycanlı qadının faciəsi"nin ifadəsi kimi bizi həyəcanlandırır".

Opera və Balet Teatrının səhnəsində "Qu gölü", "Raymonda", "Baxçasaray fontanı", "Don-Kixot", "Qırmızı lalə" və bir çox digər əsərlərdə baş rolları Qəmər Almaszadə böyük məharətlə ifa edib. Onun bütün çıxışlarını tamaşaçılar alqışlarla qarşılayırdı. Bu sıraya "Jizel", "Şelkunçik", "Yeddi gözəl", "İldırımlı yollarla", "Qaraca qız", "Gülşən", "Min bir gecə", "Babək", "Xəzər balladası", "Qobustan kölgələri" də aiddir. Qəmər xanımın truppası xaricə səfərlər edib, hətta Fransada – ənənəvi festivalda qran-priyə layiq görülüb. Sənətini Hindistanda, Nepalda da tanıdıb. 1970-ci ildə Bağdada İraq Xalq Rəqsləri Ansamblını yaratmaq üçün dəvət olunub. 1950-ci illərdə baleti tərk etsə də, 40 ilə qədər Bakı Xoreoqrafiya Məktəbinin direktoru kimi çalışıb. Onun yetirməsi olan bir çox balet ustası sənət aləminin zirvələrinə qalxıb, sevən könülləri fəth edib. Onlardan biri də SSRİ Xalq artisti Leyla Vəkilova olub.

Balerina Azərbaycan qadınlarının XX əsrdə incəsənət sahəsindəki uğurlarının təməlini qoyanlardan olub, musiqi mədəniyyətimizdə yeni janrın meydana çıxmasına güclü təkan verib. Opera və Balet Teatrının səhnəsində tamaşaya qoyulmuş bir çox əsərin uğuru məhz Qəmər Almaszadənin verdiyi quruluşla bağlı olub. Görkəmli balet ustası klassik xoreoqrafiya ənənələri ilə Azərbaycan xalq rəqs yaradıcılığı nailiyyətlərinin ahəngdar vəhdətini yarada bilib.

Qəmər Almaszadə uzun illər göstərdiyi səmərəli fəaliyyətinə görə çoxlu orden-medalla təltif edilib, dövlət mükafatları və fəxri adlar alıb. Amma müstəqil Azərbaycanın "Şöhrət" ordenini hamısından üstün tuturdu. O, 2006-cı il aprel ayının 7-də dünyasını dəyişib və Bakıda Fəxri xiyabanda torpağa tapşırılıb. Unudulmaz sənətkar indi haqqında çəkilmiş filmlərdə, "Ömrün səhifələri" kitabında və sənətini görüb dəyərləndirən pərəstişkarlarının xatirələrində yaşayır. Sabunçu rayonunun Savalan qəsəbəsində adına küçə var. İki dəfə Bakıda Qəmər Almaszadə adına Beynəlxalq Rəqs Müsabiqəsi keçirilib, amma sonra nədənsə dayandırılıb.

**Azərbaycan Teatrı – 152**

# Milli teatrın doğuluş günü

**Baharın gəlişi ilə qeyd olunan ilk bayramlarımızdan biri də Prezident İlham Əliyevin 2013-cü il 1 mart tarixli sərəncamı ilə təsis edilən Milli Teatr Günüdür. Zəngin tarixi yol keçmiş milli teatrımızın peşəkar səhnədə əsası 1873-cü il martın 10-da Bakı Realnı Məktəbinin təbiət müəllimi Həsən bəy Zərdabinin rəhbərliyi ilə tür şagirdlərin səhnələşdirdiyi Mirzə Fətəli Axundzadənin "Sərgüzəşti-vəziri-xani Lənkəran" komediyası ilə qoyulub.**

Məşhur xeyriyyəçi-mesenat Hacı Zeynalabdin Tağıyev Bakıda ilk teatr binasını inşa etdirib. Orada Azərbaycan səhnəsinin Cahangir bəy Zeynalov, Hüseynqulu Sarabski, Mirzağa Əliyev, Hüseyn Ərəblinski, Ülvi Rəcəb, Abbas Mirzə Şərifzadə, Mustafa Mərdanov, Məmmədrza Şeyxzamanov, Ağasadıq Gəraybəyli, Əliağa Ağayev, Lütfəli Abdullayev, Nəsibə xanım Zeynalova, Mərziyə xanım Davudova kimi çoxlu ünlü siması yetişib.




Müstəqillik illərində Azərbaycan teatrının inkişafında yeni mərhələ başlayıb. Həm dünya teatrının örnəklərinə, həm də milli-mənəvi dəyərlərə daha çox üstünlük verilib. Teatrlarımızın maddi-texniki bazasının daha da gücləndirilməsinə, kollektivlərin yaradıcılıq axtarışlarının bəhrəsi olaraq yeni maraqlı tamaşaların hazırlanmasına, nüfuzlu Qərb, o cümlədən Avropa teatrları ilə təcrübə mübadiləsinə diqqət daha da artıb.

Ümummilli lider Heydər Əliyev hər zaman teatra, yaradıcı insanlara böyük qayğı ilə yanaşıb. Bu ənənəni Prezident İlham Əliyev uğurla davam etdirir. Məhz dövlət başçısının bilavasitə təşəbbüsü ilə yeni əsrdə ölkədə teatr sənətinin inkişafı ilə bağlı bir sıra fundamental sənədlər qəbul olunub. "Teatr və teatr fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu, dövlət proqramları uğurla tətbiq edilir. İnişil milli peşəkar teatrımızın 150 illik yubileyi təntənə ilə qeyd olunub. Ondan bir ay sonra isə inkişaf perspektivlərlə bağlı Teatr Forumu keçirilib. Aparılan fikir mübadilələri və müzakirələr əsasında toplanan təkliflər Mədəniyyət Nazirliyi tərəfindən hazırlanan Azərbaycan mədəniyyətinin 2040-cı ilədək inkişafı ilə bağlı strategiyada əksini tapacaq.

Şübhə yoxdur ki, Azərbaycan teatrı bundan sonra da gözəl səhnə əsərləri ilə milli-mədəni zövqün inkişafına fədakarcasına xidmət edəcək.

**Bəşir Səfəroğlu – 100**

# İncə gülüşlərin sərt həqiqətləri

**Milli Teatr Gününün səhərisi – 1925-ci il martın 11-də dünyaya gəlib, ömrünü bu sənətə həsr etmiş Xalq artisti Bəşir Səfəroğlu cəmi 44 il yaşasa da, adını dövrünün görkəmli gülüş ustası kimi mədəniyyət tariximizə yazdırıb.**




O, gənc yaşlarında getdiyi İkinci Dünya müharibəsində kontuziya alıb, dili tutulub, qulaqları ağır eşidib. Tərxis ediləndən bir qədər sonra dili açılan Bəşirin dilavərliyi, dadlı-duzlu, məzəli monoloq və dialoqları ilə ürəkləri fəth edə bilməsi əsl möcüzə təsiri bağışlayıb.

Bu möcüzə – nitq qabiliyyətinin ideal bərpası isə məhz teatrın sayəsində baş verib. Bir müddət fəhlə, yük maşını sürücüsü işləyən Bəşir rejissor Niyaz Şərifovun məsləhəti ilə tez-tez getdiyi "Şoferlər klubu"nun dram dərnəyinin tamaşalarının təsirinə düşüb. Nəhayət, bir gün onu truppaya aktyor qəbul ediblər. Buna görə keçirdiyi ani həyəcan yaradıcılıq ehtirası ilə çırpınan gəncin dilinin qəfil açılmasına səbəb olub və Bəşir bülbül kimi ötməyə başlayıb. (Başqa bir varianta görə isə, bir dəfə evə gələndə az qalıb tramvayın altına düşsün, qorxudan bərk qışqırıb və o hadisədən sonra dili açılıb, qulağı eşidib). Qısa ömrünün sonuna qədər satirik-yumoristik obrazları ilə Azərbaycan Musiqili Komediya Teatrına şərəf-şan gətirib.

Əslən Qubadan olan böyük gülüş ustasının öz adı Bəşir olsa da, səhnə və ekranda Möhsün, Qoçu Əsgər və Məşədi İbad, Uzun və Nəcəf, Salyanski, Ohan yüzbaşı və Hacı Qara, Şulu, Murtuzov, Dayandur, Firuzbala, Səbrəli, Nəsrəddin, Səfər, Gülümsərov kimi, bəlkə də, daha çox tanınıb. "Aygün", "Qəribə əhvalat", "Əhməd haradadır?", "Ulduz", "Xoca Nəsrəddinin 12 qəbri", "Yun şal" və "Yaşamaq gözəldir, qardaşım" filmlərinə çəkilib. 60-cı illərin ortalarında Azərbaycan Dövlət Filarmoniyasında təşkil olunan "Gəlməli, görməli, gülməli" miniatür teatrında Bəşir Səfəroğlu onlarla satirik obraz yaradıb. 1964-cü ildə Əməkdar artist, 1968-ci ildə isə Xalq artisti fəxri adlarına layiq görülüb.

"Gəlməli, görməli, gülməli", sözün əsl mənasında gəlməli, görməli və gülməli olub. Orada əsas müəlliflər mahir qələm ustaları Seyfəddin Dağlı və Salam Qədirzadə olublar. Bu teatrda Bəşir Səfəroğlu Əliağa Ağayev, Müxlis Cənizadə, Fazil Salayev, Ofeliya Məmmədzadə ilə birlikdə seyrçilərə ciddi yumorla, mənalı gülüşlərlə zövq aşılayıb. Onun səhnədə görünməsi ilə üzlərə təbəssüm qonub, dinib-danışması ilə hər kəs gözü yaşarıncaya qədər uğunub gedib. Mütəxəssislərin dediyinə görə, istedadlı aktyor oynadığı rolun səhnə həllinə, qəhrəmanların sözlərinə münasibətdə fərqli mövqedən yanaşıb. Hər kəlməni müxtəlif intonasiyalarla məna dəyişiminə məruz qoyub. Qəhrəmanın ovqatına psixoloji zəmindən yanaşıb və oyununda gözgörəsi ifşa-özünüifşa olmayıb. O, sadəcə, obrazın xarakterini və vəziyyətinin komikliyini açırdı. Nadan professora da, bürokrat Murtuzova da, səfeh polis rəisinə də ciddi məntiqlə yanaşırdı.

Bir tamaşaçı kimi onu xatırlayanda, nədənsə, öncə yadıma hələ uşaq vaxtı baxıb güldüyüm bu səhnəcik düşür - "Bəşir Səfəroğlu: – Yeznə, baza yavaş-yavaş yandı"... – Bazanın, sonra qarajın (və oradakı maşının), idarənin yanması xəbərini çox sakit qarşılayan yeznə-müdir (Əliağa Ağayev) kabinetinin, makintojunun çırtapırtla yanmasından bərk sarsılır. "Yanmadı!" deyərək hayqırır və ürəyi gedir. Bəşir Səfəroğlu isə ona "Ağ eləmə, yandı"nı elə tərzdə deyir, elə mimika ilə çatdırır ki, tamaşaçılar az qala əldən gedən yeznəni unudaraq, şaqqanaq çəkməkdən özlərini saxlaya bilmirlər. Sonra o, yeznənin nəbzini ölçür: "1,2,3... 27" və "Yeznə yavaş-yavaş getdi" deyib yekun qərarını verir...

O özü isə yaşının 44-ündə, elə anadan olduğu mart ayının 23-də həyatla vidalaşıb və Fəxri xiyabanda dəfn olunub. Haqq dünyasına güzarından 12 gün əvvəl aktyor öz arzusu ilə son dəfə "Milyonçunun dilənçi oğlu" tamaşası ilə səhnəyə çıxıb. Sonra isə onu sevən milyonların gözünü yolda qoyub.

Yaxşı ki, Bəşir Səfəroğlunun ölməz sənət yolunu ondan sonra qızı, Xalq artisti Afaq Bəşirqızı böyük uğurla davam etdirir. Atasından "cehiz" kimi aldığı nikbinliyi, yumor hissini insanlarla bölüşür, onun arzularını həyata keçirir, yarımçıq qalmış ideyalarını tamamlayır.

Elə bu günlərdə Quba Rayon Mədəniyyət Mərkəzində Bəşir Səfəroğlunun 100 illiyi münasibətilə Azərbaycan Dövlət Akademik Musiqili Teatrı Afaq Bəşirqızının iştirakı ilə "Toya bir gün qalmış" tamaşasını böyük uğurla təqdim edib. Həmin gün onun dedikləri: "Xoşbəxtsən ata! Bilirəm ki, ruhun şaddır. Çünki sənin 100 yaşın öz torpağında, öz həmyerlilərinin yanında olacaq. Xoşbəxt sənətkarsan, ona görə ki, əsl sənətkarsan! Ruhun okeanlarda üzür, adına gəmilər, küçələr, mədəniyyət mərkəzləri və mədəniyyət evləri, büstlər var. Hamı səni sevir, rəğbət bəsləyir. 55 ildir artıq həyatda yoxsan. Bu yoxluğunla Azərbaycan xalqının heç bir nümayəndəsi barışmayıb. Həmişə rəhmət qazanmısan. Çox nadir, az qalan lent yazılarına baxıblar və "Allah sənə rəhmət etsin" deyiblər. Bu rəhməti sən qazandın! Mən səninlə fəxr edirəm. Yaxşı ki, atamsan! İstəyirəm ruhun yaşasın və sevinsin" – deyə Xalq artisti bildirib.

***Səhifəni hazırladı:***
***Əli NƏCƏFXANLI***
***XQ***

# Təbabətin incəliklərinə yol alan soydaşımız

## *Onun arzusu Azərbaycana mükəmməl mütəxəssis kimi dönməkdir*

**Müasir tibb dedikdə yalnız yüksək texnologiya – həssas diaqnostika və bu sahədə istifadə edilən son təsirli müalicə avadanlığı başa düşülmür. Günün tibbi xidməti, həm də yüksək ixtisaslaşmış və məharətli həkimdir. Uşaqlıqdan həkim olmağa böyük marağı olan, bu arzusunun ardınca Moskvaya gedən, orada uroloq – cərrah kimi yetişən Tamerlan Qasımov məhz belə bir həkim kimi ad qazanıb.**

30 yaşlı soydaşımız Azərbaycanda doğulub böyüyüb. 17 yaşından ali tibb təhsili aldığı şəhərdə illər keçdikcə cərrahiyyə və urologiya sahəsində peşəkarlaşıb. Bu gün gənc həmyerlimiz urologiya sahəsində nəinki klinik təcrübələr aparır, həm də yeni tibbi texnologiyaları fəal şəkildə mənimsəyir.

Tamerlan Qəhrəman oğlu Qasımov 2019-cu ildə A.İ.Yevdokimov adına Moskva Dövlət Tibb Universitetində ali tibb təhsilini bitirib. Sonra A.S.Loqinov adına Moskva Klinik Elmi-Praktik Mərkəzin cərrahiyyə ixtisası üzrə rezidenturasına daxil olub. Hazırda Dorji Banzarov adına Buryat Dövlət Universiteti Xəstəxanasının cərrahiyyə kafedrasının aspirantı olan gənc həkim, Almaniyanın LEBEN tibb klinikasında aparıcı mütəxəssis kimi fəaliyyət göstərir. O, sıravi həkim, cərrah-uroloq kimi ümumi tibbi xəstəliklərin – mədə-bağırsaq traktının, ağciyərlərin, sidik-cinsiyyət sistemi xəstəliklərinin diaqnostika və müalicəsi ilə məşğul olur. Soydaşımız ümumi



cərrah kimi uroloji, xoşxassəli şişlərin çıxarılması kimi əməliyyatlarla pasientlərinə sağlamlıq bəxş edir.

Tamerlan genişspektrli elmi-tibbi fəaliyyətlə məşğuldur. O, cərrahi və uroloji xəstələrə həm də ambulator müalicə ilə xidmət edir. Bununla kifayətlənməyən həkim standartlara cavab verən müalicə və diaqnostik yardım göstərir. Əlavə olaraq, tibbi müayinələrin nəticəsinə uyğun xəstələri tibbi-sosial ekspertizaya istiqamətləndirir. Hər növ kiçik cərrahi müdaxilələri həm ənənəvi üsullarla, həm də müasir texnologiyalardan istifadə etməklə həyata keçirir.

***Tamerlan tibbin asan sahə olmadığını hələ uşaq yaşlarından anlayıb. Bu barədə belə deyir:***

– Düşünürəm ki, 11 yaşımda xəstəxanaya düşməyim tibb sahəsini seçməkdə əsas rol oynayıb. İndi simptomlarla diaqnoz qoymaq mənə çətin deyil. O vaxt məni şiddətli sancılarla xəstəxanaya apardılar. Burada 1–2 sualdan sonra kəskin appendisit diaqnozu ilə əməliyyat etdilər. Uşaqlıqda mən, əlbəttə ki, bunu olduğu kimi dərk etmirdim. Biz uşaqlar böyüklərdən daha həssas oluruq. Elə bundan sonra da mən cərrahlara heyran oldum. Deyirlər ki, həkimlik Allahdan gələn bir peşədir. Düşünürəm ki, tibbin bir hissəsi olmaq və həqiqətən, ehtiyacı olan insanlara kömək etmək böyük savabdır.

Beləliklə, mənim bir mütəxəssis kimi yetişməyimdə uşaqlığımda baş verən həmin hadisə böyük rol oynadı.

İllər keçdikcə tibb də ona uyğun zamanla ayaqlaşır və yeni kəşflər ondan yan keçmir. İnformasiya Texnologiyaları həlləri iş proseslərini böyük dərəcədə optimallaşdırır, süni intellekt yaranır. Müasir texnologiyalar sayəsində tibb son illərdə daha rahat və əlçatan olub. On illər əvvəl həkimin qəbuluna yazılmaq üçün tibb müəssisəsinə getməyə ehtiyac qalmayacağını, lakin elektron xidmətlərdən istifadə edərək bunun mümkün olacağını təsəvvür etmək çətin olardı. Eynilə teletibb müalicəsi yarandı. Əlbəttə ki, teletibb ənənəvi təbabəti əvəz etmir, lakin müasir dünyada ilkin diaqnozun qoyulması vasitəsi kimi tətbiq olunur.

***Tamerlan teletibblə bağlı belə düşünür:***



– Mən bütün mümkün olanlardan yalnız bir üsulu ayıra bilmərəm. Tibb son onilliklərdə əhəmiyyətli irəliləyişlər əldə edib. Xəstəlikləri erkən mərhələdə aşkarlaya bilən yeni müayinə üsulları ortaya çıxıb. Bu cür diaqnostika yeni imkanlar açır, bu da vaxtında müalicəyə və təhlükəli ağırlaşmaların qarşısını almağa imkan verir – bu təsiredici vasitədir. Çünki prosesin özü və xüsusən də müalicənin müsbət nəticələrini görmək həkimdə xoş hisslər yaradır.

Cərrahiyyə haqqında danışsaq, əlbəttə ki, mən minimal invazivliyə əsaslanan müasir üsullara meyilliyəm. Bu, bədənə müdaxilə sahəsini və toxuma zədələnməsinin dərəcəsini minimuma endirməyə imkan verir.

Onlayn məsləhətləşmələr və teletibb haqqında danışarkən, prosesin özünü təhlil edib deyə bilərəm ki, bu, müasir dünyada bir irəliləyişdir. Lakin mən bu üsullara nadir hallarda müraciət edirəm. Mənim üçün önəmli olan xəstə ilə şəxsi təmasda olmaq, lazım gəldikdə müayinə aparmaq və diaqnozu təsdiqləmək və ya müəyyən etmək üçün onları prosedur otağına göndərmək bacarığıdır. Eyni zamanda, müsbət dinamika önəmlidir.

Ötən illər ərzində Tamerlan daim öz üzərində çalışır, yeniliklər barədə elmi məqalələr oxuyur, yenə öyrənməyə davam edir. Bu, hər kəsə daha asan gəlir. Lakin o hələ də təcrübəli həmkarlarının bilikləri ilə tanış olur, onları mənimsəyir.

Braziliyalı yazıçı Paulo Koelyo “Kimyagər” romanında “əvvəlcədən təyin edilmiş, yaxud tale” mənasını verən “məktub” sözündən istifadə etmişdir. Tamerlan da hesab edir ki, onun əldə etdiyi uğurlar da taleyin qisməti, alın yazısıdır. Düşünür ki, hər şey belə olmalı idi, çünki bu, İlahidən belə yazılmışdı. Çünki vaxtilə başqa ölkədə oxuduqdan sonra orada yaşayıb işləməyi ehtimal olsa belə əsla düşünməyib. Deyir ki, şadam ki, hər şey bu cür alındı və mən təkcə Moskvada deyil, həm də Rusiyanın digər şəhərlərində təhsil almaq, biliyimi inkişaf etdirmək və bacarıqlarımı artırmaq imkanı əldə etdim. Buna görə taleyimə minnətdaram.

Tamerlan Azərbaycandakı həmkarları ilə yaxından əlaqə saxlayır və bu münasibəti xüsusi dəyərləndirir. Ümumiyyətlə, xarici həmkarları ilə ünsiyyəti yeni təcrübə və yenidən qazanılan bilik hesab edir. Onlar Azərbaycanda gedən siyasi, mədəni proseslərdən tutmuş, tibb sahəsində baş verən klinik hadisələri, konfransları, elmi məqalələri müzakirə edir, bir-birinin təcrübəsindən faydalanırlar.

Qeyd edək ki, Rusiya ilə Azərbaycan arasında səhiyyə sahəsində ilk saziş hələ 1995-ci ildə imzalanıb. Ölkələr arasında səhiyyə, tibb təhsili və elm sahəsində əməkdaşlığın, o cümlədən təhlükəli yoluxucu və qeyri-infeksion xəstəliklərin qarşısının alınması və müalicəsi, ana və uşaqların sağlamlığının qorunması, dərman vasitələrinin və tibbi cihazların dövriyyəsi sahəsində dövlət tənzimlənməsi məsələlərinin həlli, ictimai səhiyyənin gücləndirilməsi sahəsində qarşılıqlı fəaliyyətin inkişafına yönəlmiş sazişin məqsədlərinə əsaslanan inkişaf perspektivləri yüksəkdir.

Tamerlan işlədiyi müddətdə onu qane etməyən, narazı qaldığı məsələlərdən də söz açır. Deyir ki, biz tez-tez simptomlara məhəl qoymamaq və şikayətləri həkimə gec bildirmək kimi səhvlərlə qarşılaşırıq. Anlamaq lazımdır ki, xəstə nə qədər tez bir mütəxəssislə məsləhətləşərsə, səbəb o qədər tez müəyyən edilər və müvafiq müalicə təyin edilər. Bu da xəstəliyin gedişindəki sonrakı ağırlaşmaları minimuma endirər. Bundan başqa, xəstələrin müalicədən sonra tövsiyələrə əməl etmədiyi hallar da olur, çünki onlar yaxşılaşma hiss edirlər.

Həkimin tövsiyələri tapşırıq olaraq verilmir və müalicə prosesində əldə edilmiş nəticələri möhkəmləndirmək üçün onlara əməl etmək vacibdir. Simptomlara diqqətlə yanaşılmalıdır. Onların hamısı orqanizmdən asılı olaraq dəyişir. Məsələn, görmə qabiliyyətində qəfil dəyişikliklər, şiddətli baş ağrısı, nəfəs darlığı, şiddətli qarın ağrısı, döş sümüyünün arxasında təzyiq hiss edən kimi həkimə müraciət etmək lazımdır. Hər kəs sağlamlığına ciddi yanaşmalı, qayğısına qalmalıdır.

Tamerlan Qasımov hazırda cərrahiyyə və urologiya üzrə ixtisaslaşır və hələlik başqa sahələrə toxunmaq fikri yoxdur. Onun fikrincə, hər bir sənaye unikaldır və praktikada iki eyni klinik hadisə yoxdur. Yəni həmişə öyrənmək üçün nələrsə var. O, bu sənayelərdə daha da inkişaf etməyi, bacarıqlarını təkmilləşdirməyi və həmkarlarının praktiki təcrübəsini mənimsəməyi planlaşdırır.

Azərbaycanda nəşr olunan qəzetləri izləyir. Prezident İlham Əliyevin gənclərin milli vətənpərvərlik ruhunda tərbiyə olunması, mükəmməl təhsilə yiyələnməsi üçün gostərdiyi qaygıdan bəhrələndiyini deyir. Bildirir ki, aspirantura təhsilini başa vurub elmi isini yekunlasdırandan sonra mükəmməl və hərtərəfli tibb mütəxəsisi kimi dogma Vətənə qayıdıb, xalqa xidmət etmək onun arzusu və ən boyuk amalıdır.

***Zərifə HÜSEYNOVA***
***XQ***

**Beynəlxalq həyat**

# Almaniya qlobal siyasətə qayıdır

## *Bununla Avropada yeni era başlanacaq*

**Almaniya dünyanın 4-cü böyük iqtisadi gücüdür. Avropada isə birincidir. Bu ölkəni qitə iqtisadiyyatının “lokomotivi” də adlandırırlar. Amma hər iki Dünya müharibəsindəki ağır məğlubiyyətdən sonra rəsmi Berlin qlobal siyasi səhnədə kölgədə qalmağa üstünlük verib. Yəni yenidən başını 3-cü dəfə bəlaya salmaq istəməyib.**

Amma, deyəsən, indi vəziyyət dəyişir. Belə ki, Avropanın şərqində 3 ildən çoxdur davam edən Rusiya–Ukrayna müharibəsində rusların tədricən üstünlük qazanmaları qitənin digər ölkələri kimi, Almaniyanın da təhlükəsizliyi üçün ciddi təhdidlər törədir. Berlin, təbii ki, yeni reallığın fərqindədir. Üstəlik, ABŞ Avropaya artıq təhlükəsizlik zəmanəti verməyəcəyini bəyan edib.

Bəli, Almaniya ictimaiyyəti ölkənin gələcək taleyi ilə bağlı narahatdır. Ölkə zorən də olsa qlobal siyasət səhnəsinə qayıtmalı olur. Bunu gözardı etmək qeyri-mümkündür. Bu günlərdə ölkə parlamenti–Bundestaqa keçirilən son seçkilərin nəticələri Almaniyanın ictimai-siyasi həyatının barometrinin göstəricisi kimi qəbul edilə bilər. Seçkilərdə sağçı mühafizəkar Xristian Demokratlar İttifaqı / Xristian Sosialistlər İttifaqı bloku isə qələbə qazanıb. Qatı millətçiləri təmsil edən Almaniya uğrunda Alternativ partiyası səsvermədə hətta 2-ci yerə çıxıb.

Qalib blokun lideri, ölkənin yeni kansleri olacaq Fridrix Merts son günlər Almaniyanın daxili və xarici siyasəti ilə bağlı bir çox bəyanatlar səsləndirib. Bildirib ki, Avropada artıq yeni era başlayır və Almaniya fəal qlobal siyasətin əsas subyektlərindən biri olmalıdır. F.Merts hesab edir ki, ABŞ-ın yeni lideri Prezident Donald Tramp Avropanın gələcək taleyinə biganə yanaşır və mövcud vəziyyət Avropa siyasətçilərindən öz ölkələrinin müdafiəsinin qayğısına qalmalarını tələb edir. Qısası, ABŞ-ın “təhlükəsizlik çətiri” altında olan Avropa İttifaqı dövlətləri üçün artıq “komfortlu həyat” yoxdur.

Yeri gəlmişkən, Ağ evdə D.Trampla V.Zelenski arasında Ukraynadakı vəziyyət ilə bağlı müzakirələr zamanı baş verən diplomatik gərginlikdən sonra bir çox Avropa liderləri, eləcə də F.Merts Vaşinqtonun siyasətinə münasibətdə açıq və sərt danışmağa başlayıblar. F.Merts açıq mətnlə deyib ki, biz elə etməliyik ki, Almaniya, eləcə də digər qitə ölkələri Pentaqondan asılı olmasınlar. Onun sözlərinə görə, bu taleyüklü problemi NATO-nun bu ilin iyun ayına planlaşdırılan sammitinə qədər yubatmaq olmaz. Avropa təcili olaraq sözdən əmələ keçməlidir.

F.Mertsin digər bir açıqlaması da diqqətdən yayınmayıb. O qeyd edib ki, ölkəsi hazırda hər iki tərəfin – həm Rusiyanın, həm də ABŞ-ın daim artan güclü təzyiqləri ilə üzləşir. Göründüyü kimi, rəsmi Berlin Amerikanı Rusiya ilə bir tərəziyə qoyur. Halbuki, bu il fevralın 14–17 tarixlərində keçirilən Münxen konfransına qədər Almaniya ABŞ-ın ən yaxın strateji müttəfiqlərindən biri sayılırdı.

“Siyasətdə daimi dostlar olmur” deyənlər haqlıdırlar. Burada ancaq üstün maraqlar var. Taleyin ironiyası deyilmi: dünənki dostlar bugünkü rəqiblərə, hətta düşmənlərə çevrilə bilirlər. Lakin Avropa dövlətləri ən qısa müddətdə toparlana biləcəklərmi? Bu suala birmənalı cavab vermək çətindir. Bir çox analitiklər hesab edirlər ki, Avropa dövlətlərinin öz etibarlı müdafiələrini təmin etmələri üçün 7 ildən 10 ilə qədər vaxt lazımdır. Bu, çox uzun müddətdir. Təhlükəsi isə qapının qarşısındadır.



F.Merts okeanın o tayına getmək, Ağ evdə Prezident Trampla mümkün qədər tez görüşmək arzusundadır. Arqument budur ki, Almaniya Fransa və Böyük Britaniya ilə bərabər, Avropanın “Böyük üçlüyü”nə daxildir və Berlin yeni dünya düzənində əsas söz sahiblərindən biri olmalıdır. Beləliklə, görünən budur ki, Almaniya yenidən özünə günəş altında yer istəyir. Tanış ssenaridir, deyilmi? XX əsrdə Almaniya məhz bu iddialarla 2 dəfə müharibəyə başlamışdı. Allah üçüncüdən qorusun!

Hələ ötən ilin noyabrında Almaniyanın daxili işlər naziri bildirmişdi ki, ölkədə mümkün fövqəladə təhlükəli hallar üçün sığınacaq bunkerlər hazırlanır. Belə çıxır ki, Almaniya milli təhlükəsizliyi üçün xarici təhdidləri real sayır. Berlin başa düşür ki, şərqdən ehtimal olunan təhlükəsini önləmək üçün Ukraynaya hərtərəfli yardım etmək lazımdır. Yeri gəlmişkən, Almaniya Birləşmiş Ştatlardan sonra Ukraynaya ən çox maliyyə yardımı göstərən ölkədir.

F.Merts bu yardımları davam etdirmək istəyir, lakin Fransa və Böyük Britaniyadan fərqli olaraq, Almaniya hələlik Ukraynaya əsgəri qüvvə göndərib-göndərməyəcəyini açıqlamır. Belə çıxır ki, qorxu sindromu hələ də almanların canından çıxmayıb. Onları qınamaq da düzgün olmazdı. Həqiqətən, qorxu yaman şeydir. Suyu üfürə-üfürə içiblər. Bəzən isə seçim imkanları sadəcə qalmır. Bir də ki, söhbət millətin taleyindən gedir. Bir çox analitiklər hesab edirlər ki, Ukraynanın şərqində gedən ağır döyüşlər gec-tez Almaniyanın müharibəyə cəlb edilməsinə gətirib çıxara bilər. Deyəsən, bu xamır, həqiqətən, hələ çox su aparacaq.

Divin canı şüşədə olduğu kimi, NATO-nun əsas gücünü ABŞ-ın hərbi qüvvələri təşkil edir. Pentaqon öz qoşunlarını Avropadan geri çəkərsə, Avropanın müdafiəsi kritik səviyyədə aşağı düşə bilər. Hazırda Aİ dövlətlərinin birlikdə quru qoşunlarının sayı 230-240 min civarındadır. Bu, Rusiyanın ən azı 1,5 milyona çatan ordusu qarşısında çox azdır.

Avropada bir çox siyasətçilər artıq nəzərlərini NATO-nun ikinci böyük ordusuna sahib olan Türkiyəyə yönəldirlər. Ankaranın avropalıların əvəzinə Rusiya ilə vuruşacağı ehtimalı real görünmür. Avropada bir çox siyasi dairələr, eləcə də Fransa prezidenti E.Makron Rusiya ilə Türkiyəni bir-birilə vuruşdurmaqdan ötrü min bir oyundan çıxırlar. Fransanın Cənubi Qafqazda sülh prosesinə mane olmaq cəhdləri məhz bu məkrli siyasətdən qaynaqlanır.

Almaniya tarixinin ən görkəmli siyasətçilərindən biri və bəlkə də birincisi olan Otto fon Bismark yazırdı ki, öz ordusunu yaratmayan millətlər yad orduları yedirib bəsləməyə məhkumdurlar. Bu gün almanlar da bir an vaxt itirmədən hərbiyyəsini qurmalıdır. Bu arada məlum olub ki, İtaliya ordusuna daha 30-40 min hərbçinin cəlb edilməsi nəzərdə tutulur. İtaliyanın Baş Qərargahı orduda şəxsi heyətin sayının üçdəbirdən çox artırılmaqla təxminən 135 min nəfərə çatdırılmasına dair milli təhlükəsizlik planı üzərində işləyir. Bu prosesin 5-8 il arasında həyata keçiriləcəyi bildirilir.

Kansler F.Merts Almaniyanı beynəlxalq siyasi arenaya qaytarmaq niyyətindədir. Bir çoxları Almaniyanı “yatmış şir”ə bənzədirlər. Onların düşüncələrinə görə, alman “hərbi maşın”ı işə düşərsə, qitədə hərbi qüvvələr nisbəti köklü surətdə dəyişə bilər. Görünür, püşk atılıb və Almaniya dövrün yeni çağırışlarına cavab verməyə məhkumdur. Amma, böyük divlərin savaşı necə bitəcək, bunu bir Allah bilir!

***Məsaim ABDULLAYEV***
***XQ***

# Xəzərdən Avropaya yaşıl enerji dəhlizi



**Macarıstanın paytaxtı Budapeşt şəhərində “Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş”in icrası məqsədilə 10-cu Nazirlər/Rəhbər Komitənin iclası keçirilib.**

Toplantıda Azərbaycanı energetika naziri Pərviz Şahbazov, Macarıstanı xarici işlər və ticarət naziri Peter Siyarto, Gürcüstanı Baş nazirin birinci müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Levan Davitaşvili, Rumıniyanı energetika naziri Sebastian-İoan Burduja, Bolqarıstanı isə energetika naziri Jeço Stankov təmsil ediblər. Görüşdə Avropa Komissiyası, Birgə Müəssisə (GECO Power Company) və “CESI” şirkətinin nümayəndələri də iştirak ediblər.

İclasda Azərbaycanın bərpa olunan enerji potensialının inkişafı, “Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi” layihəsi üzrə irəliləyişlər və perspektivlər nəzərdən keçirilib. “Yaşıl Enerji Dəhlizi Enerji Şirkəti”nin (GECO) fəaliyyəti, Bolqarıstanın layihəyə cəlbi, “CESI” şirkəti tərəfindən həyata keçirilən texniki-iqtisadi əsaslandırmanın (TİƏ) cari vəziyyəti, layihənin maliyyələşdirilməsi üzrə Avropa İttifaqı (Aİ) ilə əməkdaşlıqla bağlı məsələlər müzakirə edilib.

Energetika naziri Pərviz Şahbazov bildirib ki, Xəzər dənizinin Azərbaycan seqmentində müəyyən edilmiş 4 sahədə külək enerjisi üzrə bir sıra beynəlxalq şirkətlərlə müvafiq müqavilə sənədləri üzərində işlər aparılır və bu razılaşmalar “yaşıl hidrogen”in inkişafı ilə bağlı planlarımızı da dəstəkləyəcək.

Müzakirələrdən sonra 4 ölkənin nazirləri tərəfindən iclasın yekunlarına dair Protokol və “Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstanın Avropa İttifaqının (Aİ) enerji məsələləri üzrə komissarı Dan Yorgensenə Birgə Məktubu” imzalanıb. Bolqarıstanın Hökumətlərarası Sazişə qoşulma prosedurunun başlanması barədə razılığa gəlinib. Birgə Müəssisəyə Bolqarıstanın layihəyə qoşulması və fiber-optik kabel (FOC) komponentlə əlaqədar məsələlərin TİƏ-nin iş həcmində nəzərə alınması üçün müvafiq səlahiyyətlər verilib. İclas çərçivəsində Energetika Nazirliyi ilə CESI şirkəti arasındakı müqavilə üzrə əsas səlahiyyət və öhdəliklərin GECO-ya ötürülməsi məqsədilə müvafiq sənəd imzalanıb.

Nazirlərin növbəti görüşünün Gürcüstanda keçirilməsinə qərar verilib.

***XQ***

“Azərbaycan Hava Yolları”
Qapalı Səhmdar Cəmiyyəti
*yaz-yay üçün təhlükəsizlik ayaqqabılarının satın alınması üçün*
AÇIQ TENDER ELAN EDİR

“Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinin yaz-yay üçün təhlükəsizlik ayaqqabılarının satın alınması üçün açıq tenderdə iştirakçılar dilara.racabova@azal.az elektron poçt ünvanına yazılı müraciət etməklə prosedurun şərtlər toplusunu əldə edə bilərlər.

Təkliflərin təqdim olunması üçün son tarix 19 mart 2025-ci il, saat 17.00-dəkdir.

**Prosedur üzrə əlaqələndirici şəxs – Dilarə Rəcəbova,**
**Mütəxəssis, dilara.racabova@azal.az.**
**Əlaqə nömrəsi – (+99412) 4972600 – daxili 1450.**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 53 (30747) 11 mart 2025-ci il, çərşənbə axşamı

İdman

## Bakıda gimnastika üzrə Dünya Kuboku başa çatıb



**Komandamız yarışda 1 qızıl medal qazanıb**

Bakıda keçirilən idman gimnastikası üzrə Dünya Kuboku başa çatıb.

Azərbaycan turniri bir qızıl medalla başa vurub. Komandamızın heyətində halqalarla hərəkətlərdə Nikita Simonov fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Dörd gün davam edən yarışların yekununda ən yüksək icra xalını toplamış gimnastlara ənənəvi "AGF Trophy" kuboku da təqdim olunub.

Qeyd edək ki, turnirdə 19 ölkədən gimnastlar çıxış edib.

## Şahmatçımız Dünya çempionatında 2-ci olub



**Azərbaycan şahmatçısı Ayan Allahverdiyeva Monteneqroda təşkil edilən 20 yaşlı şahmatçılar arasında dünya çempionatında uğurla çıxış edib.**

Şahmatçımız XI turda 8 xal qazanaraq dünya çempionatının gümüş medalına sahib çıxıb.

Mundialda 50 ölkədən 200-dən çox şahmatçı mübarizə aparıb.

## Niderlandda 16 medal




**Azərbaycanın yeniyetmə taekvondoçuları Eyndhoven şəhərində keçirilən 52-ci Niderland açıq çempionatının 2-ci günündə 5-i qızıl, 5-i gümüş, 6-sı isə bürünc olmaqla 16 medal qazanıblar.**

Sabir Məmmədli (33 kq), Rüqəyya Əliyeva (33 kq), Nicat Nadirov (41 kq), Yusif Nağızadə (57 kq) və Rəsul Cavadzadə (61 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Elmira Bayrak (41 kq), Musa Süleymanlı (37 kq), Əbil Mehralı (45 kq), Ədiş Cəlilov (49 kq), Gülnaz Abdullayeva (59 kq) ikinci, Mədinə Aslanlı (29 kq), Tapdıq Quluzadə (33 kq), Kənan Bayramlı (37 kq), Cavidan Heydərzadə (41 kq), Akif Əliyev (45 kq) və Saleh Heydərov (53 kq) isə 3-cü yeri tutublar.

***LA ZAD***
***XQ***

# Adı Ələsgərdi, ünvanı aşıq poeziyasının zirvəsi

**"Dədə Ələsgər Ocağı" İctimai Birliyi Azərbaycan Yazıçılar Birliyində şair-publisist Salman Qaraların "Adım Ələsgərdi..." kitabının təqdimat və imza gününü keçirib.**



Mərasimdən əvvəl aşıq ədəbiyyatımızın böyük ustadı Dədə Ələsgərin paytaxtdakı abidəsi ziyarət olunub, böyük saz və söz ustadına dərin ehtiram ifadə edilib.

Natəvan klubundakı təqdimatda AYB-nin sədri, Xalq yazıçısı Anar əbədiyaşar Ələsgər irsinin tədqiq olunmasının əhəmiyyətini vurğulayıb və Salman Qaraların bu sahədə davamlı fəaliyyətini yüksək dəyərləndirib.

"Dədə Ələsgər Ocağı" İctimai Birliyinin sədri Xətai Ələsgərli yeni nəşrin əhəmiyyətindən bəhs edərək onun ölməz aşığın irsinin öyrənilməsinə və gələcək nəsillərə çatdırılmasına önəmli töhfə olduğunu söyləyib. O, "Adım Ələsgərdi..." adlı tədqiqat əsərində müəllifin uzun illər apardığı araşdırmalarla Dədə Ələsgərin həyat və yaradıcılığı ilə bağlı bir çox yeni fakt və epizodların üzə çıxardığını qeyd edib.

Azərbaycan Yazıçılar Birliyinin İdarə Heyətinin üzvü, ədəbiyyatşünas Əsəd Cahangir Aşıq Ələsgərin əbədiyaşarlığına nəzər salaraq bildirib ki, baharın nəfəsinin duyulduğu bu vaxtda ölməz Aşıq Ələsgərin əsərləri yenidən insanların qəlbini fəth edir. Elə bir şəxs tapmaq çətindir ki, Aşıq Ələsgər yaradıcılığından xəbərsiz olsun. O, folklor poeziyamızın əbədi zirvəsidir.

Kitabın müəllifi Salman Qaralar əsər üzərində çoxillik yaradıcılıq prosesindən danışıb. O, Dədə Ələsgər irsinin tükənməz xəzinə olduğunu vurğulayıb: "Kitabda Dədə Ələsgərin yaradıcılığı yalnız şeirləri və aşıq sənəti ilə deyil, həm də onun mənəvi dünyası və Azərbaycan ədəbiyyatına təsiri baxımından araşdırılıb. Kitabın gələcəkdə Dədə Ələsgər haqqında aparılacaq yeni tədqiqatlara töhfə verəcəyinə ümid edirəm".

Moskvadan professor Ələddin Allahverdiyev isə "Adım Ələsgərdi..." kitabı haqqında mərasim iştirakçılarına ünvanladığı məktubda bildirib: "Ələsgərşünaslıqda söylənmiş fikirlər, aparılmış tədqiqatlar arasında Salman Qaraların tədqiqatı, orijinallığı, Dədə Ələsgər şeirinin məna qatlarını bədii və irfani cəhətdən araşdırmaq baxımından müasir səslənir. Əminəm ki, Salman müəllimin təqdimatı keçirilən "Adım Ələsgərdi..." elmi-bədii-publisistik dildə yazdığı monoqrafiyası ələsgərşünaslığa dəyərli töhfə olaraq folklorumuzu, aşıq yaradıcılığını araşdıran bütün tədqiqatçılar və adi oxucular üçün daim maraq doğuran və dəyərli bir kitab, ədəbi mənbə olacaq".

Tibb Universitetinin müəllimi, fəlsəfə doktoru Nağdəli Keştəkli, Bakı Dövlət Universitetinin müəllimi Almara Nəbiyeva, Təhsil İnstitutunun elmi işçisi Adilə Nəzər, əməkdar müəllim Hüseyn Şahbəndəyev, şairlər Ramiz Qusarçaylı, Yusif Nəğməkar, iş adamı, xeyriyyəçi Rəşid Süleymanov və başqaları kitabın Aşıq Ələsgər irsinin dərindən öyrənilməsinə və mənimsənilməsinə verəcəyi töhfələrdən söhbət açıblar.

Sonda ədəbiyyat və mədəniyyət sahəsindəki xidmətləri yüksək qiymətləndirilən Xətai Ələsgərli AYB-nin fəxri üzvlüyünə qəbul edilib.

***T.RÜSTƏMLİ***
***XQ***

Avropada şahmat baharı

# Zəka savaşı Dunay sahilləri və Rodos adasında olacaq

**Azərbaycan şahmatçıları növbəti sınaq ərəfəsindədirlər. Martın 15-də Dunay sahillərində yerləşən Rumıniyanın Eforie Nord şəhərində kişilər arasında şəxsi Avropa çempionatına start veriləcək. Bu yarışın qalib və mükafatçıları müəyyənləşdikdən sonra nəzərlərimiz Yunanıstanın Rodos adasına yönələcək. Orada isə qadın zəka sahiblərinin çempionatı martın 31-də başlayıb aprelin 11-dək davam edəcək.**



Xatırlatmaq istərdik ki, qadın şahmatçılar ötən il də qitə birinciliyinin medalları uğrunda mübarizədə Rodos adasında üz-üzə gəlmişdilər. Fəxri kürsünün zirvəsinə həmvətənimiz Ülviyyə Fətəliyeva yüksəlmişdi. Bununla da Azərbaycan şahmat məktəbinin yetirməsi ölkəmizdə idmanın həmişəcavan növünün inkişafının bütün tarixi ərzində ilk dəfə qadınlar arasında Avropa çempionu adını qazanmışdı. O, Yunanıstandan Bakıya qızıl medalla qayıtmışdı. Bu qələbə qadın şahmatımızın tarixində möhtəşəm nailiyyət idi!

O ki qaldı Rumıniya turnirinə, 400-dən çox iddiaçı Eforie Nord şəhərində kişi şahmatçıların Avropa çempionatında iştirakını təsdiqləmişdir. Onlardan 107-si qrossmeysterdir. Reytinqə görə, turnir iştirakçılarının siyahısına təşkilatçı ölkənin nümayəndəsi Daniel-Boqdan Diak (2692) başçılıq edir. İlk üçlüyə serbiyalı Aleksey Sarana (2689) və niderlandlı Yorden van Forest (2676) də daxildirlər.

Respublikamızın təmsilçiləri arasında ən yüksək reytinqli şahmatçı Aydın Süleymanlı 2633 əmsalla siyahıda 22-cidir. Nicat Abasov (2612) və Məhəmməd Muradlı (2584) müvafiq surətdə 38-ci və 49-cu mövqedədirlər. Çempionatda bir qrup nümayəndəmizin də çıxışlarını izləyəcəyik.

Martın 26-da finişə çatacaq 11 turdan ibarət yarış İsveçrə sistemi üzrə keçiriləcək. Avropa Şahmat İttifaqı turnir üçün 100 min avro məbləğində ümumi mükafat fondu təsis etmişdir. Çempion 20 min, gümüş və bürünc medalların sahibləri müvafiq surətdə 15 və 10 min avro məbləğində mükafat qazanacaqlar.

Çempionat iştirakçıları təkcə medallar uğrunda mübarizə aparmayacaqlar. Onları həm də növbəti Dünya kuboku yarışına vəsiqə uğrunda kəskin rəqabət də gözləyir. Turnirin yekun cədvəlində ilk 23 yerin sahibləri həmişə hər bir şahmatçının iştirakçısı olmağı arzuladığı bu çox məsul yarışda ustalıqlarını nümayiş etdirmək hüququ qazanacaqlar.

Rodos çempionatının da iştirakçıların sayına görə mötəbər olacağı gözlənilir. Azərbaycan şahmatçıları çempionatın medalları uğrunda mübarizədə bu dəfə də yüksək yerlər uğrunda daha inamla yarışacaqlar. Avropa çempionatının ümumi mükafat fondu 60 min avro olacaq.

Bu arada Çernoqoriyanın Petrovaç şəhərində başa çatan 20 yaşadək şahmatçılar arasında Dünya çempionatında Ayan Allahverdiyevanın qazandığı gümüş medal idmanımıza çox dəyərli töhfə olmuşdur. Ayan 11 mümkün xaldan 8-ni toplayaraq, yalnız yarışın rusiyalı qalibi Anna Şuxmandan geri qalıb. Allahverdiyeva çempionatda keçirdiyi 11 görüşdə 6 qələbə qazanmış, 4 dəfə heç-heçə ilə kifayətlənmiş və 1 oyunda uduzmuşdur. Təmsilçimizin məğlubiyyətə uğratdığı rəqiblər arasında çempion Şuxman da var.

Ayan Allahverdiyevanın Dünya çempionatında qazandığı gümüş medal Avropa çempionatları ərəfəsində Azərbaycan şahmatının növbəti böyük uğurudur.

***Oq ụ B AYRAMOV,***
***Əməkdar jurnalist***

HAVA

# Dumanlı Bakı...



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, martın 11-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Bəzi yerlərdə arabir duman olacaq. Cənub-şərq küləyi əsəcək. Gecə 3-6°, gündüz 10-15° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 766 mm civə sütunu, nisbi rütubət gecə 80-85, gündüz 60-65 faiz olacaq.

Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 3-7°, gündüz 17-22° isti, dağlarda gecə 3° şaxtadan 2°-dək isti, gündüz 8-13° isti olacaq.

***QQ ASIMOV***
***XQ***

# Gül kələm – faydası var bir aləm

**Ən faydalı tərəvəzlərdən biri olan gül kələm C, PP, A, B qrupu vitaminlər, kalium, kalsium, fosfor, maqnezium, dəmir və bir çox digər minerallar, həzm olunmayan qidalı liflərlə zəngindir. Bu tərəvəz bağırsaqların fəaliyyətinə müsbət təsir edir, mikroflorasını tənzimləyir, həzm sistemində xora və şişlərin əmələ gəlməsi riskini azaldır. Azkalorili olduğu üçün arıqlamaq istəyənlərə kömək edir. Ürək-damar sistemi üçün faydalıdır, qanda "pis" xolesterolun səviyyəsini aşağı salır.**



Fol turşusu ilə zəngin olan gül kələm qanazlığı olanlar, həmçinin hamilə qadınlar üçün olduqca faydalıdır. Araşdırmalar göstərir ki, hamiləlik zamanı fol turşusunun qəbulu uşaqda, xüsusilə sinir sistemi qüsurlarının qarşısını alır. Gül kələmin tərkibində nadir "dindolilmetan" adlı maddə var. Bu maddə kişilərdə prostat vəzidə əmələ gələn xərçəng hüceyrələrini öldürmək xüsusiyyətinə malikdir. Bu səbəbdən gül kələm bu növ xərçəngin profilaktik vasitəsi kimi qiymətləndirilir.

C vitamini ilə zəngin tərəvəz damarları daha elastik edir. Öd kisəsi və qaraciyər üçün ən faydalı məhsullardan sayılır. Selenlə zəngin olan gül kələm saç, dəri və dırnaqların vəziyyətini yaxşılaşdırır. Antibiotik və ya digər dərmanların uzunmüddətli qəbulu zamanı gül kələmdən istifadə edilir. Çünki tərkibindəki B5 vitamini dərmanların orqanizmə olan mənfi təsirini azaldır.

***Z.HÜSEYNLİ***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3367
SİFARİŞ 482
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV

Çapa imzalanmışdır 00:00